www.elkhan-suleymanov.az

ŞAMAXININ MİLLƏT VƏKİLİ YEDDİNCİ İL

Bakı - 2018

Buraxılışa məsul: Fuad Babayev
siyasi elmlər üzrə fəlsəfə doktoru,
əməkdar jurnalist

www.elkhan-suleymanov.az portalının nəşri olan bu kitabda Şamaxının millət vəkili Elxan Süleymanovun Milli Məclisin üzvü kimi fəaliyyətinin yeddinci ili mediada dərc olunan xəbərlərin, müraciət və çıxışların, müsahibələrin, eləcə də foto-şəkillərin dili ilə şərh olunur.

Kitaba həmçinin, bu nəşr üçün tərtib edilmiş hesabat da daxil edilib.

Kitabın cildində görkəmli Azərbaycan rəssamı Mikayıl Abdullayevin "İmadəddin Nəsimi" portretindən istifadə olunub.

ISBN: 978-9952-516-88-3

© www.elkhan-suleymanov.az 2018

SEÇKİ - 2015

85 Saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclis üzvlüyünə namizəd Süleymanov Elxan Sirac oğlunun həyat və fəaliyyəti haqqında qısa məlumat

Süleymanov Elxan Sirac oğlu 1940-cı ildə Göyçay rayonunun Hacalı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsinin məzunudur.

Uzun illər mədəniyyət sahəsində çalışıb. 1966-1979-cu illərdə Respublika Həmkarlar İttifaqı Yeyinti Sənayesi İşçilərinin Həmkarlar Komitəsinin Fioletov adına klubuna, 1981-1982-ci illərdə Yazıçılar İttifaqının Şüvəlandakı Yazıçılar Evinə, 1982-1985-ci illərdə Mədəniyyət Nazirliyi nəzdində "Azərattraksion"a, 1985-1989-cu illərdə isə "Nizami" kinoteatrına rəhbərlik edib.

Bu illər ərzində ölkədə mədəniyyət, incəsənət və Azərbaycan kinosunun inkişafı və təbliği, gənc istedadların üzə çıxarılması və inkişafı üçün yorulmadan işləyib.

1990-1998-ci illərdə Rusiya-Amerika Universitetinin Azərbaycan bölməsinin baş direktoru olub. Ermənistanın Azərbaycana silahlı təcavüzü zamanı cəbhə xəttinə, döyüşlərdə iştirak edən ordu hissələrinə yüzlərlə ton müxtəlif ərzaq və geyim göndərib.

Bütün Şirvanda məşhur xeyriyyəçi və maarifçi kimi ta-

nınmış mərhum babası Hacı Rəhim Əfəndinin xeyriyyəçilik fəaliyyətini uğurla davam etdirib.

2005-ci ildə Elxan Süleymanovun təsis etdiyi Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası onun rəhbərliyi altında indiyə qədər onlarla böyük layihə həyata keçirib.

Elxan Sirac oğlu Süleymanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə 2011-ci ildə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni, 2015-ci ildə isə Azərbaycan Respublikasının parlamentlərarası əlaqələrinin genişləndirilməsində fəal iştirakına görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclis üzvlüyünə namizəd Süleymanov Elxan Sirac oğlunun seçkiqabağı platforması

Verdiyin sözə nəyin bahasına olursa–olsun əməl etməlisən. Bu, adi göründüyüqədər mürəkkəb, çətin qaydaya riayət edən insan sonda HÖRMƏT qazanır. Bu HÖRMƏT ölçüyəgəlməz dərəcədə qiymətlidir.

Səmimi olmağı bacarmalısan. Səmimilik son nəticədə sənə İNAM qazandırır. İNAM isə ən böyük sərvətdir.

Böyük Abbas Səhhət heç zaman unudulmayacaq şeirlərindən birində doğma torpağını sevməyən insanda vicdanın olmadığını qeyd edib. Doğrudan da, elini-obasını sevməyən insan yüksək dəyərlərdən danışa bilərmi? Əlbəttə ki, yox. Amma harada olmasından asılı olmayaraq VƏTƏN barədə düşünən, onun xoş sabahı üçün əlindən gələni əsirgəməyən insan kamillik zirvəsinə ucala bilər. VƏTƏN üçün faydalı olmağa çalışmaq qədər şərəfli nə ola bilər?

Bu gün arxada qalan 5 ilə nəzər salıb özümə suallar verirəm.

Görəsən bu 5 il ərzində Şamaxılılar üçün nəsə edə bilmişəmmi? Seçicilərimə, arif şamaxılılara qarşı səmimi olmuşammı? Həmişə Şamaxı və şamaxılılar haqqında düşünmüşəmmi? Bəlkə də təvazökarlıqdan kənar görünə bilər. Amma mənə elə gəlir ki, məni tanıyan insanlar bu sualları

daha düzgün cavablandıra bilərlər.

Ona görə də seçicilərimin mənə bəxş etdikləri HÖRMƏT və İNAM mənə VƏTƏN üçün yaşamağa, VƏTƏN üçün çalışmağa imkan verib.

Əziz şamaxılılar!

Düz 5 ildir ki, biz yanaşı addımlayırıq. Siz məni yaxşı tanıyırsınız. İnsanın bütün keyfiyyətləri, istər yaxşı, istərsə də pis cəhətləri iş prosesində açılır, aydın görünür. Mən də bu gün, 5 illik yolun sonunda, sizlərin qarşısında alnıaçıq, üzüağ dayanıb deyə bilərəm ki, bu illər ərzində sizin üçün əlimdən gələni, bacardığımı etmişəm. Etdiklərimi doğma Şamaxım üçün, mənə etimad göstərmiş seçicilərimə mənəvi borcumun heç olmasa bir hissəsini ödəmək üçün etmişəm.

Gördüyüm işləri sadalamaq, nəyisə xüsusi olaraq vurğulamaq fikrindən çox uzağam. Çünki dəqiq bilirəm: Daha çox iş görmək olardı… Və bu işlərin davam etdirilməsi üçün gücüm, imkanlarım, iradəm, ən başlıcası isə həvəsim yetərincədir.

Dəyərlərimizə HÖRMƏT, gücümüzə İNAM! Bu VƏTƏN bizimdir. Biz Vətənimizin güclənməsi üçün əlimizdən gələni birlikdə etməliyik.

Gəlin daha 5 il yanaşı addımlayaq!

Siz məni tanıyırsınız. Seçim sizindir!

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclis üzvlüyünə namizəd Süleymanov Elxan Sirac oğlunun seçicilərə müraciəti

Əziz Şamaxılılar!

Siz mənə 2010-cu ildə etimad göstərib millət vəkili seçdiniz. Mənə şərəf və şöhrət verdiyiniz üçün sizə minnətdaram.

5 ildə sizinlə birgə addımlamışıq. Mən 5 ildə gördüyüm işləri sadalamaq fikrində deyiləm. Bu işlər sizə bəllidir. Əgər siz mənə etimad göstərib yenidən öz aranızda görmək istəyirsinizsə, keçən 5 ildə olduğu kimi, yenə də bütün güc və bacarığımı səfərbər edib problemlərinizi həll etməyə çalışacağam. Heç nə əsirgəməyəcəyəm.

5 ildə olduğu kimi, mən sizlərdən biriyəm, sevinc və kədərinizi bölüşürəm və həmişə sizin ixtiyarınızdayam!

XƏBƏRLƏR

ABŞ-ın araşdırma mərkəzi 2016-cı ilin Azərbaycan üçün uğurlu olduğunu bildirir

10.01.2017

APA

ABŞ-ın "Keçmiş Sovet Sosialist Respublikalarını Araşdırma Mərkəzi"nin internet resursunda "2016-cı ilə baxış" adlı məqalə dərc edilib.

Bu barədə APA-ya Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) prezidenti, millət vəkili Elxan Suleymanov məlumat verib.

O bildirib ki, məqalədə ötən il dünyanın bir çox ölkələrində, xüsusən post sovet məkanında baş verən mühüm hadisələr şərh edilir: "Məqalədə başı miqrant böhranına qarışmış Avropanın daha mühüm məsələlərlə məşğul ola bilmədiyi, Baltik ölkələrinin öz təhlükəsizliyi ilə bağlı narahatlıqlarının yarandığı, Ukraynada davam edən müharibənin real həll yolunun tapılmadığı kimi məqamların yer aldığını nəzərə alaraq, müəllifin ümumilikdə ötən il dünyada baş verən proseslərlə bağlı pessimist yanaşma sərgilədiyini demək olar. Amma təhlildə yeganə müsbət fikirlər var ki, bu da Azərbaycanla bağlıdır. 2016-cı ildə Azərbaycanda keçirilmiş referendum müsbət dəyişiklik kimi qiymətləndirilir. Bildirilir ki, Azərbaycan ölkəni iyirmi birinci əsr idarəçiliyinə uyğunlaşdırmaq məqsədilə növbəti dəfə konstitusiya və hüquqi islahatlar keçirdi. Təhsil islahatı, gənc vətəndaşlara siyasi vəzifələr üçün zəmin yaradılması və seçki prosesinin müasirləşdirilməsi kimi mühüm

məsələlər xalqın böyük dəstəyini qazandı".

E. Süleymanovun sözlərinə görə, "Keçmiş Sovet Sosialist Respublikalarını Araşdırma Mərkəzi" 2016-cı ildə Azərbaycanın digər iki uğuru olaraq, AŞPA-nın qəbul etdiyi 2085 saylı qətnaməni və qətnamənin dəstəklənməsi ilə bağlı AVCİYA tərəfindən Ağ ev Administrasiyasına ünvanlanmış "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" petisiyanın həmin platforma tarixində ikinci ən məşhur petisiya kimi seçilməsini qeyd edir: "Şübhəsiz, ölkə üçün ən böyük xəbər Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnamə oldu. Qətnamə Azərbaycan ərazisinin beşdə-birinin Ermənistan tərəfindən işğalını birmənalı surətdə sülhə təhdid elan edərək, buna son qoymağı tələb etdi. Bunun ardınca birbaşa sevincli hadisə baş verdi: Qətnaməyə dəstək naminə Ağ evə ünvanlanmış petisiya bütün dünya üzrə yüz minlərlə imza toplayaraq, 2016-cı ildə ikinci ən məşhur petisiya oldu".

AVCİYA Şən və Hazırcavablar Klubundan təxribata son qoyulmasını tələb edib

12.01.2017

APA

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Şən və Hazırcavablar Klubunun rəhbərliyindən təxribata son qoyulmasını tələb edib.

AVCİYA-dan APA-ya bildirilib ki, qurum bununla bağlı klub rəhbərliyinə müraciət edib. Müraciətdə deyilir ki "KVN – 2017" adlı 28-ci şən və hazırcavablar Beynəlxalq Festivalında bir çox ölkənin komandaları ilə yanaşı, "Çörək və Duzla" adlı qondarma "Dağlıq Qarabağ" komandasının da iştirak etməsinə Azərbaycan xalqı qəti etirazını bildirir.

"Nəinki Rusiya, bütün dünya Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi faktını qəbul edir və 1 milyondan artıq Azərbaycanlının işğal bölgəsindən məcburi köçkün düşməsi, Ermənistan silahlı qüvvələri tərəfindən çoxsaylı insanların amansızcasına qətlə yetirilməsi barədə məlumatlıdır. 2016-cı ildə AŞPA-nın qəbul etdiyi 2085 saylı qətnamə bunun əyani sübutudur. Avropa Şurasına üzv olan 47 Avropa ölkəsi bu qətnaməyə səs verərək Ermənistan dövlətini işğalçı kimi tanıdı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən geri çəkilməsini tələb etdi. İşğalçı Ermənistan işğalı leqallaşdırmaq üçün Dağlıq Qarabağı müstəqil dövlət olaraq tanıtmaq istiqamətində 25 ildir iş aparır, lakin onlar bu məqsədlərinə nail ola bilmirlər – deyə, müraciətdə qeyd

olunub.

AVCİYA bildirir ki, qondarma "Dağlıq Qarabağ" komandasının bu festivalda tərəf kimi çıxışı birbaşa Ermənistanın işğalçı siyasətinə dəstək verilməsinə xidmət edir: "Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası olaraq, Ermənistanın işğal altında saxladığı ərazilərdə formalaşdırdığı separatçı qondarma "Dağlıq Qarabağ Respublikasını" təmsil edən "Çörək və Duzla" adlı komandanın festivalda iştirakının dərhal dayandırılmasını tələb edir, ictimai rəydə çaşqınlıq yaradılmasının qarşısını almağa çağırırıq. Hesab edirik ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycanın Rusiyadakı səfirliyi, Diaspor təşkilatlar bu təxribatın qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər görməlidir".

Deputat: "AŞPA ermənilərin Azərbaycan nümayəndə heyətini ləkələmək cəhdini dəstəkləmədi"

23.01.2017

APA

"AŞPA-da Azərbaycan nümayəndə heyətinə qarşı şayiələr öz təsdiqini tapmadı".

APA-nın məlumatına görə, bunu AŞPA Monitorinq Komitəsinin üzvü Elxan Süleymanov deyib.

"Son günlər Ermənistanın bir çox mənbələri dəfələrlə Azərbaycana və Azərbaycan nümayəndə heyətinin üzvlərinə qarşı yanlış və saxta iddialar yayaraq, qəsdən mətbuatda gərginliyi artırırdı. Erməni deputatlar və bəzi ermənipərəst qüvvələr bütün AŞPA üzvlərini açıq şəkildə Azərbaycan nümayəndə heyətinin mandatını sual altına qoymağa çağırır və hətta azərbaycanlı deputatların AŞPA-dan çıxarılacağını hesab edirdi. Bu gün aydın oldu ki, sağlam düşüncə və ədalət üstün gəldi", - deyə o vurğulayıb.

E. Süleymanovun sözlərinə görə, plenar sessiyada Azərbaycan nümayəndə heyətinin və ayrı-ayrı deputatların mandatı sual altına qoyulmayıb: "Avropalı deputatlar açıq-aşkar anladılar ki, hüququn aliliyinə xidmət edən AŞPA-nın sübutsuz şayiələrə uyub hər hansı bir üzv dövlətin nümayəndə heyətinin üzvlərinə hücum etməsi hüquqa ziddir və tam anormal haldır. Bəzi qərəzli beynəlxalq QHT-lərin dəstəklədiyi Ermənistan bir daha sırf öz qon-

şusunun müsbət imicini zədələməyə cəhd göstərib, lakin AŞPA ermənilərin bu cəhdini dəstəkləməkdən açıq-aydın imtina etdi".

Yanvarın 24-də AŞPA-nın Monitorinq Komitəsinin hər iki AŞPA həmməruzəçisinin Bakıya faktaraşdırıcı səfərini müzakirə edəcəyini deyən E. Süleymanov müzakirənin nəticəsinin həm Azərbaycan, həm də AŞPA üçün müsbət və konstruktiv olacağına əminliyini ifadə edib. O, bu gün Strasburqda AŞPA-nın plenar sessiyasında bu nəticələri olduqca təqdirəlayiq hesab etdiyini və ermənilərin şayiələrinin bu cür ali Avropa institutunda ciddi qəbul edilməyəcəyinə tamamilə əmin olduğunu qeyd edib.

Azərbaycan nümayəndə heyətini bu qış sessiyasında narahat edən yeganə məsələ Ukrayna nümayəndə heyətinin rəhbəri Volodimir Arievin "Avropada jurnalistlərə və mətbuat azadlığına hücumlar" adlı məruzəsinə ermənilərin və ermənipərəst deputatların verdiyi düzəlişin qarşısının alınmasıdır. Həmin düzəlişdə "üzv dövlətlərin de-fakto separatçı rejimlər tərəfindən nəzarət edilən digər ərazilərində də, xüsusilə Azərbaycanın Dağlıq Qarabağ…" ifadəsinin çıxarılması təklif edilir.

"Şəbəkələşmiş iftiraçılar ifşa olundu"

14.02.2017

APA

"Ermənilər, ermənilərə xidmət edən daxili və xarici ermənipərəst, anti-Azərbaycan qüvvələr Azərbaycana zərbə vurmaq məqsədi ilə bir neçə aydan bəri yerli və beynəlxalq mətbuatda mənə, həmkarıma kobudcasına qeyri-etik hücumlar edərək böhtan, iftira və şər atır".

Bunu APA-ya millət vəkili Elxan Süleymanov deyib. E. Süleymanov Azərbaycan el məsəlini xatırladı: "Ayının min oyunu var, bir armudun başında. Xalq məsəlində olduğu kimi, yerli və beynəlxalq səviyyədə şəbəkələşdirilmiş bu iftiraları yaradan erməni və ermənipərəst qüvvələrin yeganə məqsədi Azərbaycanın beynəlxalq imicini zədələmək idi. Olduqca fəal erməni lobbiçiləri kimi tanınmış bir neçə Qərb deputatı Strasburqda, AŞPA-nın qış sessiyası zamanı bu mənfur hücumları davam etdirdi. Hamıya bir daha aydın oldu ki, ölkəmə qarşı hazırlanmış güclü şər və böhtan kampaniyası xarici korporativ qüvvələrin Azərbaycanda stabilliyi pozmaq üçün iğtişaş yaratmaq məqsədilə təşkil etdiyi irimiqyaslı beynəlxalq təxribatın bir hissəsi idi. Lakin İtaliyanın Milan Məhkəməsi bu təxribatçıların hamısının bütün arzu və ümidlərini puç etdi".

E. Süleymanov bildirib ki, iddiaların şər və böhtan olması yanvarın 27-də Milan Məhkəməsi hakiminin qərarında tam təsdiqini tapıb, hər kəs, hətta iftiraçılar da məhkəmə qərarına hörmətlə yanaşmağa borcludurlar: "Təəssüf

ki, Avropada Azərbaycana əsassız hücum edənlər, şər və böhtan atanlar çox hallarda qəhrəman döyüşçü kimi qarşılanırlar. Milan prokurorluğunun ilkin istintaqlar üzrə Hakimlər Şurası İtaliya Xalqı adından bəyan etdi: "Luka Volonte Giuseppe barədə qaldırılan iddianın əsassız olması səbəbindən, onun öz səlahiyyətlərinin icrası zamanı rüşvət alması ittihamı üzrə cinayət təqibinə xitam verilməsinə qərar verilir". Bu qərar ölkəmə və mənə qarşı şəbəkələşmiş iftiraçıları ifşa etdi!

Mən heç vaxt böhtan və şayiələrə məhəl qoymuram, çünki bu, ictimai sahədə işləyən bir şəxs kimi, həyatımın bir hissəsidir və mən hər zaman olduğu kimi, ölkəmə və xalqıma sədaqətlə xidmətimi davam etdirirəm. Ölkəmi korporativ anti-Azərbaycan qüvvələrin, xüsusilə daxili və xarici erməni və ermənipərəstlərin qərəzli, əsassız hücum, təqib və stabilliyi pozmaq cəhdlərindən qorumaq üçün bundan sonra da bütün səylərimi səfərbər edəcəyəm".

AVCİYA-nın "Xocalı yaddaşı" kitabı işıq üzü görüb

20.02.2017

APA

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) "1905.az" portalının "1905.az kitabı" seriyasından ikinci nəşri – "Xocalı yaddaşı" kitabı işıq üzü görüb.

AVCİYA-dan APA-ya verilən məlumata görə, kitab Xocalı soyqırımı qurbanlarının xatirəsinə ithaf olunub və şərti olaraq üç hissəyə bölünüb. Kitab AVCİYA-nın prezidenti, Elxan Süleymanovun ön sözü ilə açılır.

Birinci hissədə Qarabağ bölgəsinin, bu əraziyə ermənilərin köçürülməsinin tarixi, onların törətdikləri soyqırımlar, Ermənistanın ərazi iddiaları, Qarabağ probleminin başlanması, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin işğalı ilə bağlı materiallar, ikinci hissədə Xocalı rayonu və şəhəri, Xocalı soyqırımı, hadisə zamanı itkin düşənlərin, əsir və girov götürülənlərin siyahısı, əsir və girov götürülənlərlə bağlı ətraflı məlumat, faciə zamanı müstəsna igidlik göstərən Azərbaycanın Milli Qəhrəmanları, qətliamı törədən erməni qruplaşmaları, xocalılara divan tutulan yaşayış məntəqələri ilə bağlı materiallar yer alıb. Üçüncü hissədə isə Rusiyanın "Memorial" İnsan Hüquqları Mərkəzinin, "Human Rights Watch" təşkilatının Xocalı hadisələri ilə bağlı hesabatı, Xocalı soyqırımı ilə bağlı rəsmi sənədlər, ümummilli lideri Heydər Əliyevin və prezidenti İlham

Əliyevin bir sıra çıxış və müraciətləri, hadisənin soyqırımı kimi dəyərləndirilməsi ilə bağlı materiallar, Heydər Əliyev Fondunun Xocalı soyqırımının tanıdılması ilə bağlı fəliyyəti, "Xocalıya ədalət" kampaniyası, soyqırımın beynəlxalq aləmdə tanınması, eləcə də bu hadisə ilə bağlı gerçəkləri dünyaya yayan insanlar haqqında məlumatlar verilib.

Kitabın ideya müəllifi və naşiri AVCİYA-nın prezidenti, Elxan Süleymanov, elmi məsləhətçiləri AMEA-nın müxbir üzvü İlyas Babayev, siyasi elmlər doktoru, professor Ramiz Sevdimalıyev, iqtisad elmlər doktoru Vurğun Süleymanov və başqaları, yaradıcı heyətin rəhbəri siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayevdir.

Deputatlar AŞPA-nın Büro, Monitorinq və Daimi komitələrinin iclaslarında iştirak edəcəklər

03.03.2017

APA

Martın 6-da və 8-də Parisdə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Siyasi işlər və demokratiya, həmçinin Monitorinq Komitələrinin iclasları keçiriləcək.

Milli Məclisdən (MM) APA-ya verilən məlumata görə, iclaslarda MM-in Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin sədri, ölkəmizin təşkilatdakı daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun başçılığı ilə nümayəndə heyəti iştirak edəcək.

Nümayəndə heyətinə deputatlar Elxan Süleymanov və Sabir Hacıyev daxildirlər.

Tədbirlərdə Hökumət səviyyəsində korrupsiya, Yeni Tunis hökumətinin yürütdüyü siyasət, Belarusda vəziyyət və digər məsələlər müzakirə olunacaq.

Milli Məclisin deputatları müzakirəyə çıxarılacaq məsələlərə münasibət bildirəcək, qeyd və təkliflərini verəcəklər.

Martın 9-da və 10-da isə İspaniyanın Madrid şəhərində AŞPA Bürosunun və Daimi Komitəsinin iclasları keçiriləcək.

İclaslarda Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin sədri, ölkəmizin təşkilatdakı daimi nümayəndə heyətinin rəhbəri Səməd

Seyidov və deputat Sahibə Qafarova iştirak edəcəklər.

İclaslarda Albaniyada, Bolqarıstanda, Serbiya və Ermənistanda keçiriləcək parlament seçkiləri, Türkiyədə Konstitusiya dəyişiklikləri, AŞPA çərçivəsində gender bərabərliyi, Rusiya Parlamenti ilə AŞPA arasında əməkdaşlıq və digər mövzularda fikir mübadiləsi aparılacaq.

Səfər martın 12-də başa çatacaq.

Elxan Süleymanov Avropa Şurasında genişmiqyaslı yeni meyarlara çağırış edib

10.03.2017

APA

"Finance.yahoo.com", "prnewswire.com" və digər dünya saytlarında "Qeyri-müəyyən vəziyyət"in olduğu bir vaxtda azərbaycanlı deputat Süleymanov Avropa Şurasında genişmiqyaslı yeni meyarlara çağırış edir" adlı məqalə dərc edilib.

APA-nın məlumatına görə, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) prezidenti, azərbaycanlı deputat və AŞPA üzvü Elxan Süleymanov Avropa Şurası Parlament Assambleyasının (AŞPA) bütün üzvlərinə ünvanladığı açıq məktubda hazırda institut daxilindəki "qeyri-müəyyən vəziyyəti" nəzərə alaraq, genişmiqyaslı islahatlara çağırış edib.

E. Süleymanov bazar ertəsi Brüsseldə fəaliyyət göstərən beyin mərkəzi "Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzi"nin dərc etdiyi və Avropa Şurası Parlament Assambleyasında (AŞPA) "Ermənistanın xeyrinə Azərbaycana qarşı amansız təbliğat kampaniyası aparmış" "Erməni Sövdələşməsi" şəbəkəsini aşkara çıxaran ətraflı hesabatdan sonra (http://www.esisc.org/publications/analyses/11791) məktub yazmağı zəruri hesab etdiyini bildirib. "Məhz ölkəm və mən AŞPA-da bu hücumlara və gizli anti-Azərbaycan sövdələşməsinə məruz qalırdıq" deyən E.Süleymanov bildirib və öz məktubunda "Faktlar və təxəyyülü

bir-birinə qataraq və təəssüf ki, AŞPA-nın imicinə görünməmiş zərər vurmaqla, bütün beynəlxalq mətbuatda yaxşı hazırlanmış böhtanın necə yayıldığı"nı açıqlayıb.

O, xüsusilə Azərbaycandan iddia edilən rüşvəti qəbul etdiyinə görə barəsində istintaq aparılmış italiyalı siyasətçi Luka Volonteyə qarşı Milan məhkəməsinin heç bir ittiham irəli sürməmək haqqında verdiyi qərarı qeyd edib. "Bütün AŞPA üzvləri hüququn aliliyinə, o cümlədən Milan məhkəməsinin bütün korrupsiya ittihamlarına xitam vermək barədə aydın qərarına istisnasız olaraq tam hörmət etməlidir", - deyə E. Süleymanov tələb edib.

O, eyni zamanda Hüquq Məsələləri Komitəsinin xüsusi məruzəçisi KristofŞtrasser tərəfindən hazırlanmış və 2013-cü ilin yanvar ayında böyük əksəriyyətlə - 125 səs əleyhinə və 79 səs lehinə olmaqla, Azərbaycanda siyasi məhbuslara dair rədd edilmiş məruzəni qeyd edib. "Son əsassız korrupsiya iddialarında təkrar edilir ki, guya rüşvət sayəsində həmin səsverməyə təsir edilib" deyən E. Süleymanov əlavə edib ki, bütün siyasi qrupların iclas protokollarındakı məlumatı nəzərdən keçirilməsinin mümkünlüyü nəzərə alınsa, bu, tamamilə gülüncdür: "Bütün üzvlər bir-birinin siyasi mövqeyinə daha çox hörmət etməli, hər bir həmkarının sərbəst səsverməsinə hörmət etməli, öz mövqeyinin digərinkindən mənəvi cəhətdən daha üstün olduğunu iddia etməməlidir. Biz heç vaxt geriyə baxmamalıyıq. Səsvermənin nəticələrini və deputatların səsvermə mövqeyini sual altına qoymaq AŞPA-nın özünü sual altına qoymağa bərabərdir. Assambleyamız mütəşəkkil etimadsızlıq deyil,

həqiqi əməkdaşlıq vasitəsilə daha da güclənəcək".

E. Süleymanov eyni zamanda lobbiçiliyə aydınlıq gətirməyə çağırıb: "Bu ya qadağan edilməli, ya da buna icazə verilməlidir? AŞPA ilə əlaqəli QHT-lərə maliyyə yardımına icazə verilməlidirmi? Bu həmin QHT-lərlə əməkdaşlıq edən deputatlara xələl gətirə bilərmi? AŞPA-da ikili standartlara yol verilməməlidir", - deyə məktubda vurğulanıb.

"Yanlış korrupsiya şayiələri yaymaq Assambleyanın qlobal etimadına güclü xələl gətirir. Təcili surətdə yeni qaydalar qəbul edilməlidir", - deyə E. Süleymanov qeyd edib.

"Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında gənclərimizin rolu" mövzusunda tədbir keçirilib

13.03.2107

APA

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) "Azərbaycanın gəncliyi gələcəyimiz naminə: Baxış bucağı" layihəsi çərçivəsində "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında gənclərimizin rolu" mövzusunda tədbir keçirilib.

APA-nın məlumatına görə, layihənin məqsədi mövcud informasiya məkanında Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında gəncləri təşviq etməkdir.

AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov deyib ki, Avropa Şurası Parlament Assambleyası AVCİYA prezidenti Elxan Süleymanovun təşəbbüsü ilə 20/35 saylı qətnamə qəbul edib. Həmin qətnamə Azərbaycanın işğal olunmuş ərazisində yerləşən Sərsəng su anbarı ilə bağlıdır və sənəddə Azərbaycan ərazilərinin işğal olunduğu əksini tapıb. Keçən il Ağ Evin saytında Azərbaycanın işğal olunmuş əraziləri və Sərsəng su anbarı ilə əlaqədar petisiya təşəbbüsü də xatırladan E. Salmanov AVCİYA-nın Azərbaycan həqiqətlərinin təbliği, informasiya savaşı sahəsində fəaliyyətini davam etdirdiyini vurğulayıb.

Layihənin rəhbəri İradə Yaqubova bildirib ki, bu gün Azərbaycanın prioritet istiqaməti Dağlıq Qarabağ münaqişəsinin həllidir: "Ötən müddət ərzində beynəlxalq

arenada Azərbaycan dövləti siyasi müstəvidə Dağlıq Qarabağ probleminin həlli, Ermənistanın işğalçılıq siyasətinin dayandırılması və məcburi köçkünlərin öz doğma evlərinə qayıtması üçün lazımi işlər həyata keçirib. Lakin burada əsas məsələ həm də Azərbaycan gəncliyinin hərəkətə keçməsi və öz sözünü deməsidir. Bu gün ali təhsil ocaqlarında minlərlə tələbə təhsil alır. Tələbələrimiz internet vasitəsilə dünyada baş verənləri yaxından izləyir, sosial şəbəkələrdə aktivdirlər. Məhz buna görə də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, yanlış informasiyanın qarşısının alınmasında gənclərimiz, tələbələrimiz yaxından iştirak edə bilərlər. Bunu nəzərə alaraq, AVCİYA bu məqsədlə gənclərin iştirakı ilə debatlar silsiləsinə start verir".

Layihə bütövlükdə 2017-ci ili əhatə edəcək. İl ərzində tədris semestri nəzərə alınmaqla müxtəlif universitetlərdə debatlar təşkil olunacaq. Bu tədris semestrində 4 debatın keçirilməsi nəzərdə tutulub.

Tədbir çıxışlarla davam edib.

Elxan Süleymanov təqaüdçüləri və onların valideynləri ilə görüşdü

18.03.2017

musavat.com

Millət vəkili Şamaxıda seçicilərini Novruz Bayramı münasibəti ilə təbrik etdi

Şamaxının millət vəkili Elxan Süleymanov son illər ərzində yüksək balla ali məktəblərə daxil olmuş şamaxılı gənclərlə və 2011-ci ildən bəri Şamaxı məktəbliləri arasında hər il keçirilən, Mirzə Ələkbər Sabir yaradıcılığına həsr edilmiş qiraət müsabiqələrinin qalibləri ilə görüşüb.

Musavat.com xəbər verir ki, təsis etdiyi təqaüdü alan 100-ə yaxın gənci, eləcə də onların valideynlərini Novruz bayramı münasibətilə təbrik edən Elxan Süleymanov sovqatlarını təqdim edib.

Qarabağ müharibəsində şəhid olmuş 76 şamaxılı soydaşımızın ailə üzvlərinə də millət vəkilinin bayram sovqatları da bir neçə gün əvvəl təqdim edilib.

Millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə şamaxılı aprel şəhidləri yad edildi

04.04.2017

musavat.com

Aprelin 4-də Şamaxı şəhərindəki Mədəniyyət Sarayında Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə "Torpaq uğrunda ölən varsa, Vətəndir!" adlı tədbir keçirilib. Musavat.com xəbər verir ki, Şamaxı ictimaiyyəti nümayəndələrinin, hərbçilərinin, şəhid ailələrinin iştirak etdikləri tədbir 2016-cı ilin aprel döyüşləri zamanı həlak olan şamaxılı döyüşçülər – Samir Kaçayevin, Nazım Zəkərəyevin və Elşən Səmədovun xatirələrinə həsr olunub.

Tədbiri giriş sözü ilə millət vəkili Elxan Süleymanovun Şamaxı rayonundakı səlahiyyətli nümayəndəsi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Dəyanət Musayev açdı. Tədbir iştirakçıları Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra çıxış edən Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı şöbəsinin rəisi Nasir Qurbanov, Şamaxı rayon Ağsaqqallar Şurasının sədri Mayıl Alıcanov, ehtiyatda olan zabit, birinci Qarabağ müharibəsinin iştirakçısı Yalçın Şıxıyev ötən ilin aprelində erməni silahlı qüvvələrinin cəbhə xəttində törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdi-

yi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdikləri şücaətlərdən danışdılar.

Dəyanət Musayev iştirakçılara AVCİYA-nın layihəsi olan 1905.az portalının "1905.az kitabı" layihəsindən bəhs etdi və sözü bu layihə çərçivəsində çapdan çıxmış "Samir! Nazim! Elşən!" kitabının müəllifi Aida Eyvazlı Göytürkə verdi. Xatırladaq ki, kitaba yuxarıda adları çəkilən şəhidlərlə bağlı müəllifin Modern.az saytında dərc edilmiş yazıları daxil edilib. Aida Eyvazlı Göytürk kitab haqqında ətraflı danışaraq, Azərbaycanın qalibiyyət şəhidlərinin həyat yolu ilə bağlı məlumat verdi. Aida xanım "Samir! Nazim! Elşən!" kitabının ərsəyə gəlməsində göstərdiyi köməyə görə Elxan Süleymanova minnətdarlığını bildirdi. Samir Kaçayevin Çuxuryurd kənd tam orta məktəbində sinif rəhbəri olan Güntəkin Xummetov şəhid haqqında xairələrini bölüşdü, Nazim Zəkərəyevin atası Nadir Zəkərəyev tədbir iştirakçılarına minnətdarlığını bildirdi. Şamaxının millət vəkilinin dəstəyi ilə 2011-ci ildən keçirilən Mirzə Ələkbər Sabir Bədii Qiraət Müsabiqəsinin qalibləri xalq şairi Qabilin "Azərbaycan əsgəri" şeirini söylədilər. Tədbirin sonunda çıxış edən Şamaxının millət vəkili Elxan Süleymanov 2016-cı il aprel döyüşlərində əldə olunmuş qələbənin tarixi əhəmiyyətindən danışaraq, Azərbaycanın bu döyüşlərdə öz gücünü düşmənə və dünyaya bir daha sübut etdiyini və indiki vəziyyətlə heç vaxt barışmayacağını göstərdiyini qeyd etdi. Millət vəkili Şamaxı şəhidlərinin valideynləri qarşısında baş əydi və onların qanının yerdə qalmayaca-

ğını vurğuladı.

Tədbirdən sonra Şamaxıdakı Şəhidlər Xiyabanı ziyarət olundu və şəhid məzarlarının üzərinə gül dostələri qoyuldu.

Daha sonra Şamaxı şəhərindəki "Miras" Kitab Evində Aida Eyvazlı Göytürk "Samir! Nazim! Elşən!" kitabını oxucular üçün imzalayıb.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Ermənistanın BMT-yə təqdim etdiyi hesabata alternativ hesabat verdi

08.04.2017

AZƏRTAC

24 aprel – 12 may 2017-ci il tarixlərində BMT-nin İrqi ayrıseçkiliyin bütün formalarının ləğvi Komitəsində Ermənistanın 2010-2015-ci illər üçün dövrü hesabatı müzakirə ediləcəkdir. Ermənistan dövləti bu hesabatında Irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında BMT Konvensiyasının tələblərinin təmin edilməsi vəziyyəti – qaçqınlar, milli azlıqlara qarşı ayrıseçklik, dini tolerantlıq və sair barədə məlumat vermişdir. Lakin həmişə olduğu kimi, bu hesabatda da Ermənistan öz yalanları ilə, mövcud duruma müsbət don geyindirməklə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. AVCİYA Ermənistanın adı çəkilən hesabatına alternativ hesabat hazırlayaraq 6 (İngilis, Rus, İspan, İtalyan, Ərəb, Fransız) dildə BMT-yə təqdim etmişdir. AVCİYA-nın bu hesabatında Ermənistanın növbəti yalanları, saxtakarlıqları tam ifşa edilmişdir. Alternativ hesabat artıq BMT-nin rəsmi internet resursunda yerləşdirilmişdir.

Hesabatda bildirilir:

– Ermənistan Respublikasının öz hesabatının Azərbaycan Respublikası ilə münasibətlərə aid hissələrində tarixi faktları saxtalaşdırmışdır. Avropa Şurası Parlament Assambleyasının 2016-cı ilin yanvar sessiyasında qəbul etdiyi

«Azərbaycanın sərhədyanı rayonlarının sakinləri qəsdən sudan məhrum edilir» adlı 2085 (2016) saylı qətnamə Ermənistan dövlətinin Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərini işğal etməsi faktını təsdiq edir. Ermənistan Respublikası işğal edilmiş ərazilərdə etnik təmizləmə, mülki əhalinin kütləvi qətliamları, digər beynəlxalq cinayətlərə və məsul şəxslərin hüquqi məsuliyyətə cəlb etməməyə görə birbaşa cavabdehlik daşıyır;

– Ermənistan Respublikası 2085 saylı qətnamədə vurğulanan, işğal altındakı Sərsəng su anbarı vasitəsilə Azərbaycana "ekoloji təcavüz", digər etnik qrupa – azərbaycanlılara qarşı edilən humanitar, mənəvi, iqtisadi, ekoloji və bioloji təhdidlər edir;

– Ermənistan Respublikası qonşu ölkənin ərazisində apardığı hərbi əməliyatlara və insanların etnik əsaslarla öldürülməsinə, bu qəbildən olan şəxslərin əsirlikdə saxlamaqla, onlar barədə məlumat verməməklə, onlara qarşı zorakılıq, qeyri-insani rəftar tətbiq edilməsinə görə məsuliyyət daşıyır;

– Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazisində Suriya, İraq, Livan və digər yerlərdən olan qaçqınların qanunsuz olaraq yerləşdirilməsi siyasəti və tədbirləri BMT-nin İrqi ayrıseçkiliyin bütün formalarının ləğvi Konvensiyanın tələblərinin birbaşa pozulmasıdır;

– Daimi yaşayış yerlərindən məcburi köçürülmüş (deportasiya olmuş) azərbaycanlıların və digər etnik qrupların Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərinə və Ermənistanın Respublikasının ərazisinə qa-

yıtmasının qarşısının alınmasına görə Ermənistanın siyasi hakimiyəti məsuliyyət daşıyır.

– Ermənistan Respublikası azərbaycanlılara məxsus dini ocaqları və tarixi abidələri dağıdır, mənşəyini saxtalaşdırır;

– Ermənistanın Respublikasının ərazisində irqi ayrıseçkiliyi təşviq edən siyasi təşkilat fəaliyyət göstərir, 2011-ci ildə BMT-nin həmin təşkilatın qanuni yolla kənarlaşdırılması barədə çağırışına da Ermənistan dövləti tərəfindən məhəl qoyulmamışdır.

AVCİYA-nın təqdim etdiyi hesabatda bu kimi mühüm faktlar yer alır, eyni zamanda sadalanan məsələlərlə bağlı BMT Komitəsinə Ermənistan dövləti tərəfindən izahat verilməsi tələb edilir. Bildirilir ki, BMT-nin İrqi ayrıseçkiliyin bütün formalarının ləğvi komitəsi Ermənistan Respublikasından azərbaycanlılara və etnik mənsubiyyəti fərqli olan digər qruplara irqə görə ayrıseçkiliyi ləğv etməsini, irqə görə nifrət siyasətinə son qoymasını və buna aparan istənilən ictimai təşəbbüsün pislənməsini və qarşısının alənmasını tələb etməlidir.

Musa Yaqubun yeni kitabı – "İndi bildim nağıldı…" çapdan çıxıb

01.05.2017

1905.az

Azərbaycanın görkəmli şairi Musa Yaqubun 80 illik yubileyi ərəfəsində "İndi bildim nağıldı…" kitabı işıq üzü görüb. Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə nəşr olunan kitaba şairin müxtəlif mövzularda 400-dən artıq şeiri və iki poeması daxil edilib. Kitab Elxan Süleymanovun ön sözü ilə açılır. On iki bölümə ayrılmış kitabda şairin yeni əsərləri ilə yanaşı, çoxumuz üçün uşaqlıqdan tanış olan məşhur şeirləri də yer alıb. Bölümlərin hər biri xüsusi olaraq kitab üçün çəkilmiş illüstrasiyalarla başlanır. Kitabda həmçinin Musa Yaqubun geniüsahibəsi də dərc olunub. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab əməkdar jurnalist Fuad Babayevin rəhbərliyi ilə "1905.az STUDİO"da nəşrə hazırlanıb, tərtibçi Nəzirməmməd Zöhrablı, məsul redaktor Gündüz Nəsibovdur.

Mayın 3-də saat 19.00-da Azərbaycan Yazıçılar Birliyi və Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının birgə təşkilatçılığı ilə Musa Yaqubun 80 illik yubileyi münasibətilə keçiriləcək təntənəli tədbirdə "İndi bildim nağıldı…" kitabı da təqdim olunacaq.

Şamaxıda VII M.Ə.Sabir Bədii qiraət müsabiqəsi oldu

30.05.2017

elkhan-suleymanov.az

May ayının 24-25-də Şamaxı son yeddi il ərzində olduğu kimi yenə də M.Ə.Sabir şeirlərilə nəfəs alırdı. Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə keçirilən Yeddinci M.Ə.Sabir Bədii Qiraət müsabiqəsinə həmişəki kimi maraq böyük idi. Aprelin 20-dən başlayaraq təhsil müəssisələri səviyyəsində keçirilən müsabiqə öz kuliminasiya mərhələsinə qədəm qoymuşdu. Müsabiqənin rayon turuna Şamaxının ümumi və tam orta məktəblərini, Şamaxı Dövlət Regional Kollecini, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialını təmsil edən 200-dən artıq iştirakçı qatılmışdı.

İştirakçılar tanınmış şair Musa Yaqubun rəhbərlik etdiyi, ölkənin tanınmış elm və mədəniyyət adamlarının daxil olduğu münsiflər heyətinə fərdi, qrup halında və kreativ çıxışlarını təqdim etdilər. Sabir şeirlərini qeyri-adi təfsirdə – şeirlər əsasında qurulmuş mini-tamaşa formasında təqdim edənlərin çıxışları xüsusilə maraqla qarşılandı. Müsabiqə iştirakçılarının bir çoxu məxsusi olaraq bu tədbir üçün tikdirdikləri kostyumlarda, səylə hazırladıqları qrim, dekorasiya və rekvizitlərdə çıxış etdilər. İştirakçılar arasında Sabir şeirlərini Azərbaycan dilində söyləyən bir neçə milliyyətcə rus şagirdin olması, eləcə də şairin rus dilinə tərcümə edilən şeirlərinin səsləndirilməsi yaddaqalan idi. Bü-

tövlükdə müsabiqə parlaq keçdi, həm tamaşaçılarda, həm də iştirakçıların özlərində böyük təəssürat yaratdı.

Mayın 25-də Şamaxı şəhər mədəniyyət sarayında millət vəkili Elxan Süleymanovun, rayon rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə müsabiqə qaliblərinin mükafatlandırma mərasimi oldu. Aktyor Səfa Mehdinin aparıcı olduğu tədbirdə münsiflər heyətinin üzvləri şair Musa Yaqub, filologiya elmləri doktoru, professor Asif Hacıyev, Sabir ev-muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi Rəqsanə Xəlilzadə, Şamaxı rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qasım Qasımov çıxış edərək, müsabiqənin tərbiyəvi əhəmiyyətindən, rayonun mədəni həyatında artıq özünə möhkəm yer tutmasından danışdılar və bu tədbiri yeddinci ildir keçirən, rayonun bir sıra kəndlərinə su çəkdirib, Sabir bulaqları inşa etdirən və böyük şairin adını əziz tutan millət vəkili Elxan Süleymanova minnətdarlıqlarını bildirdilər.

Şamaxının millət vəkili Elxan Süleymanov artıq yeddinci ildir müsabiqənin münsiflər heyətinə rəhbərlik edən şair Musa Yaqubu 80 illik yubileyi münasibətilə təbrik etdi. Millət vəkili Sabirin Azərbaycan ədəbiyyatında tutduğu mövqedən, onun şeirlərinin aktuallığından danışdı, qalibləri və onların müəllimlərini təbrik etdi.

Tədbirin sonunda müsabiqə qalibləri müakafatlandırıldı, onlara qiymətli hədiyyələr və diplomlar təqdim olundu.

200 illik işğal və 2016-cı ildə AŞPA-da təsbit olunan işğal faktı

29.06.2017

musavat.com, Elşad Məmmədli

Erməni işğalının dünəni və bu günü; düşmənin dişini qıran aprel döyüşləri...

Azərbaycanın başı tarixən bəlalı olub. Daha dəqiq desək, mühüm strateji mövqedə, təbii sərvətlərlə zəngin bölgədə yerləşdiyindən çoxları – farslar, ruslar, ingilislər və digərləri zaman-zaman, ərslər boyu Azərbaycanı öz əsarətində saxlamağa, işğal etməyə, torpaqlarını qoparmağa, sərvətlərini yağmalamağa çalışıb. 19-cu əsrdə bədnam ermənilər Azərbaycanın qərb bölgəsinə yerləşdiriləndən sonra isə daha dəhşətli faciələrimiz başlayıb...

Azərbaycanın tarixi ərazilərində ermənilərin yerləşdirilməsinə Rusiya imperiyasının dəstəyi ilə 19-cu əsrin əvvələrində start verilib. Çünki bu, rus imperiyasına bölgədə öz nüfuzunu artırmaq, ətrafını zəiflətmək üçün sərf edirdi. XIX əsrdə baş verənlər, xüsusi ilə Rusiya-Türkiyə, Rusiya-İran müharibələri rus imperiyasının ciddi şəkildə zəifləməsinə səbəb olmuşdu. Bu dönəmdə şimal qonşumuz özünün cənub sərhədində müsəlman və türk ölkəsi olan Azərbaycanın varlığından, güclənməsindən də təbii ki, narahat olmaya bilməzdi. Məhz bu səbəbdən də Azərbaycan ərazilərində ermənilərin yerləşdirilməsi bir siyasət kimi həyata keçirilib. Məqsəd Azərbaycanı maksimum zəiflətmək və erməni kartı ilə təzyiq etmək olub və bu gün də həmin si-

yasət bu və ya digər formada davam edir...

Torpaqlarımızın iki müqavilə ilə parçalanmasından - 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay sazişlərinin imzalanmasının ardınca isə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi daha da intensivləşdirilib.

Müxtəlif mənbələrdən alınan məlumatlar göstərir ki, həmin dövr ərzində Türkiyədən 90 minə, İrandan isə 50 minə yaxın erməni gətirilərək, Azərbaycan torpaqlarında, daha çox İrəvan, Göyçə, Qarabağ, Naxçıvan və Bakı ərazisində yerləşdirilib...

Əlbəttə, siyasətin məğzi təkcə ermənіləri bura köçürüb onları toplum halına salıb yaşatmaq deyildi. Türkmənçay müqaviləsindən dərhal sonra qərbi Azərbaycan ərazisində erməni valiliyinin yaradılması da bunu isbat edən ilk faktdır. Həmin vilayət İrəvan xanlığının səyləri nəticəsində 1846-cı ildə ləğv edilib. Amma ermənіləri Azərbaycan üçün işğalçı toplum kimi hazırlamaq və onlar üçün Ermənistan dövləti yaratmaq siyəsətinin qarşısını almaq həmin dövrdən təəssüf ki, mümkün olmayıb və bu siyasət bu gün də öz ağır nəticələrini verməkdədir...

Ermənilər bəlli missiyaya uyğun olaraq ərazilərimizdə məskunlaşdıqdan sonra öz dövlətlərini yaratmaq haqqında düşün(dürül)məyə başlayıb. Məskunlaşma başa çatar-çatmaz planlı şəkildə, missiyalarına uyğun olaraq onlar Azərbaycan xalqına qarşı soyqırım aktı keçirmək planı qurublar. Rəsmən qeydə alınan ilk həmlə 1905-ci ildə başlayıb. Ermənilər 1905 və 1906-cı illərdə azərbaycanlılara qarşı kütləvi soyqırımlar törətməyə start veriblər. Həmin

illərdə erməni daşnakları Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlıları öldürüblər. Və bu cinayətləri xüsusi qəddarlıqla həyata keçirməklə, xalqımızda ağır xof yaratmaq istəyiblər...

Rus imperiyasının dəstəyi ilə Azərbaycan torpaqlarında ermənilərə dövlət - Ermənistan qurulduqdan sonra isə daha ağır cinayətlər həyata keçiriblər. 1918-1920-ci illərdə onlar qərbi Azərbaycan ərazisində "türksüz Ermənistan" iddialarını maksimum reallaşdırmağa çalışıblar. Bu müddət ərzində ermənilər YARIM MİLYONDAN çox azərbaycanlını qətlə yetiriblər, tarixi yurdlarından didərgin salıblar.

1918-ci ilin mart-aprel aylarında isə onların törətdiyi soyqırım dünyanın ən dəhşətli kütləvi qətliamlarından biri kimi tarixə düşüb. Erməni daşnaqları Bakıda, Şamaxıda, Muğanda, Qubada, Lənkəranda on minlərlə azərbaycanlını qətlə yetiriblər, şikəst ediblər, hətta xeyli insanı diri-diri torpağa gömüblər. O dönəmdə Bakıda və Şamaxıda ermənilərin həyata keçirdiyi kütləvi soyqırım aktları daha dəhşətli xarakter alıb. Təkcə Bakıda 30 minə yaxın insan xüsusi işgəncələrlə məhv edilib. Şamaxının 60-a yaxın kəndi tamamilə dağıdılıb, 7 minə yaxın insan öldürülüb. Qubada müsəlmanların yaşadığı 122 kənd məhv olunub. Qubada soyqırıma məruz qalmış müsəlmanların kütləvi məzarlıqları bu gün dünyanın dəhşətlərindən biri kimi qəbul edilir.

Qarabağda 200-ə yaxın, Zəngəzurda 120-dən artıq kənd, oba xarabalığa çevilib. İrəvan quberniyasında 210-dan,

Qarsda 90-dan çox kənd yerlə-yeksan edilib...

1918-ci ildə erməni daşnaqlarının Bakıda və ölkə boyunca törətdiyi kütləvi qırğınların sonunda Bakının və ölkənin işğalına doğru getdiyi bir vaxtda Azərbaycana qardaş Türkiyədən Nuru Paşanın başçılıq etdiyi qoşunların köməyə gəlməsi o dövrdə proseslərin qarşısını alıb. Türk əsgərləri ilə birlikdə azərbaycanlıların yaratdıqları Qafqaz İslam Ordusu daşnaqların bəşəri cinayətlərini neytrallaşdırıb. Bu zaman həlledici döyüş Göyçay qəzasında (indiki Göyçay rayonu) ərazisində olub. Burada daşnaqlar məğlub edilib, daha böyük miqyaslı soyqırım, işğal planının qarşısı alınıb.

... Buna rəğmən XX əsrin əvvəllərində Cənubi Qafqazda cərəyan edən proseslərin sonluğu Azərbaycan üçün ağır fəsadlar vermişdi: Xalq Cümhuriyyəti hakimiyyətdən salınıb, sovet hökuməti formalaşanda Azərbaycan ərazilərinin böyük bir hissəsi artıq parçalanmışdı, qərbi Azərbaycan ermənilərin nəzarətinə verilmişdi.

Fakt isə budur ki, 1918-ci il mayın 27-də "Ermənistan Respublikası" elan edildiyi zaman bu qondarma dövlətin paytaxtı belə mövcud deyildi! Rusiya imperiyasının təzyiqi ilə Azərbaycan Milli Şurası 1918-ci il 29 mayda tarixi şəraitin diqəti ilə İrəvan şəhərini 99 illik müqavilə ilə Ermənistan Respublikasının paytaxtı kimi tanımaq məcburiyyətində qalıb...

Beləcə, illər ərzində həyata keçirilən siyasət nəticəsində Qərbi Azərbaycan torpaqları – İrəvan, Zəngəzür, Göyçə mahalı, Vedibasar, Zəngibasar, Qəmərli, Dərələyəz, Ağbaba, Qafan, Amasya və digər tarixi yurdlarımız Ermənistan

dövlətinin ərazisi kimi qeyd edilib...

1923-cü ildə artıq möhkəmlənmiş və Kremldən açıq dəstək alan ermənilər Dağlıq Qarabağa muxtariyyət statusu ala bildilər!

1948-1953-cü illərdə də xeyli Azərbaycan əraziləri Ermənistanın tabeliyinə verilib, minlərlə soydaşımız tarixi yurdlarından deportasiya olunublar...

Görünən odur ki, ermənilərin mənfur işğalçılıq siyasəti bir an belə dayanmayıb.

Ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində ermənilər tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə birləşdirilməsi məsələsi qaldırılıb. Bu iddia hətta həmin illərdə Kremldə - Siyasi Büroda dəfələrlə qapalı şəkildə müzakirə olunub. 1969-cu ilin mayında Qazax və Ermənistanla sərhəd olan digər bir neçə başqa rayonun ərazisinə daxil olan Azərbaycan kəndlərinin Ermənistana birləşdirilməsi barəsində düşmən ölkənin Ali Soveti qərar qəbul edib. Bu qərar SSRİ Ali Soveti tərəfindən də təsdiq olunub. Həmin vaxt mərhum Heydər Əliyevin Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi bu qərarın həyata keçməsinə imkan verməyib! Lakin 1986-cı ildə Azərbaycanın o vaxtkı rəhbərliyinin səhlənkar yanaşması səbəbindən həmin ərazilərin bəzisi Ermənistana birləşdirilib...

Ermənilər xüsusi ilə 70-80-ci illərdə Qarabağı da "dinc yolla" işğal etmək üçün Kremldə min oyundan çıxıblar. Lakin həmin müddət ərzində Azərbaycanın birinci katibi, Siyasi Büro üzvü olan Heydər Əliyev Dağlıq Qaraba-

ğın Ermənistana ilhaqına mane olub. 1987-ci ildə Heydər Əliyevin Siyasi Bürodan və Nazirlər Soveti sədrinin birinci müavini postundan uzaqlaşdırılmasından sonra ermənilərin əl-qolu açılıb...

Və 1988-ci ildə ermənilər açıq şəkildə Dağlıq Qarabağ iddiasına girişdilər; Topxana meşəsinin dağıdılması yeni konfliktin əsasını qoymaq üçün məqsədli addım idi...

Və tarixi düşmənlərimiz 1989-cu ilk "uğura" nail oldular. Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın bu ölkəyə birləşdirilməsinə dair hüquqa söykənməyən, siyasi mahiyyət daşıyan bir qərar qəbul etdi. O dövrdə artıq can verən SSRİ-nin rəhbərliyi, xüsusi ilə Qorbaçov ermənilərə açıq şəkildə dəstəyini əsirgəmədi...

Azərbaycanın erməni siyasətinə dəstək verməsi səbəbindən və Azərbaycanın özünün müqəddəratını müəyyən etmək mübarizəsinin qarşısını almaq üçün rus imperiyası 1990-cı ilin yanvarında Bakıda dəhşətli qırğın da törətdi. Lakin bununla da Azərbaycanın haqq mübarizəsinin qarşısını ala bilmədilər...

Ermənilər Dağlıq Qarabağı silahlı yolla işğal etməyə başlayanda Azərbaycan dövləti tam qanuni əsaslarla, suveren hüququndan istifadə edərək 26 noyabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" qanun qəbul etdi. Bundan sonra ermənilərin yenə də Rusiyanın dəstəyi ilə işğal siyasəti daha da intensiv xarakter aldı...

1988-ci ildən başlayaraq, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının

20 faizi – Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun (Laçın – 1992-ci il 18 may, Kəlbəcər – 1993-cü il 2 aprel, Ağdam – 1993-cü 23 iyul, Cəbrayıl – 1993-cü il 23 avqust, Füzuli – 1993-cü il 23 avqust, Qubadlı – 1993-cü il 31 avqust, Zəngilan – 1993-cü il 29 oktyabr tarixlərdə) ərazisi işğal olunub. Həmçinin, Ermənistanla həmsərhəd bir sıra yaşayış məntəqələri – Naxçıvan Muxtar Respublikasının 1 (Kərki), Tərtər rayonunun 13 (Çardaxlı, Umudlu, Ortakənd, Talış, Həsənqaya, Şıxarx, Çanyataq, Çaylı, Ağdərə, Kiçikqarabəy, Qızıloba, Ağabəyyalı, Uluqarabəy) və Qazax rayonunun 7 (Yuxarı Əskipara, Aşağıəskipara, Baqanis Ayrum, Xeyrimli, Barxudarlı, Soflu, Qızılhacılı kəndləri) artıq 20 ildir ki, Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Naxçıvan MR isə blokadadadır. Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün düşüb.

Bu müddət ərzində ermənilər Azərbaycana xalqına qarşı kütləvi soyqırım siyasəti də həyata keçirdi. Bu soyqırımlardan ən dəhşətlisi Xocalı şəhərində baş verdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş işğalı xüsusi qəddarlıqla seçilən faciə kimi XX əsrin bəşəriyyətə qarşı cinayətlərdən biridir. Xocalıda 613 dinc sakin bir gecədə vəhşicəsinə qətlə yetirildi.

Ermənistanın 1988-ci ildə başlayan növbəti işğalçılıq və soyqırım siyasəti nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün düşüb, 20 min nəfərə yaxın

azərbaycanlı şəhid olub, 50 min vətəndaşımız yaralanıb, əlil olub. 5 min insanımız itkin düşüb, girov və əsir götürülüb...

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan münaqişəsinin tərəfləri arasında atəşkəs imzalanıb. Bu müddətdə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar da bugünədək nəticəsiz qalıb. Ötn zaman ərzində ermənilər mütəmadi olaraq atəşkəs rejimini, danışıqlar prosesini pozur və vaxtaşırı cəbhə xəttində təxribatlar törədir. Atəşkəs dövründə də təxminən 1988-1994-cü illər ərzində gedən savaş zamanında olan qədər Azərbaycan vətəndaşı, əsgəri şəhid olub!

Ermənistanın bu işğalçılıq siyasətinə təbii ki, dünyada ciddi əks reaksiyalar olub. BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul edib. Təhlükəsizlik Şurası birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını dəstəkləyib, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkib hissəsi olduğunu aydın şəkildə qeyd edib. Ermənistan Silahlı Qüvvələrinin və ermənilərin qeyri-qanuni silahli birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz tamamilə çıxarılması və didərgin düşmüş əhalinin öz yerlərinə qaytarılması üçün şərait yaradılması tələbi də qəti şəkildə qoyulub. Lakin təəssüflər olsun ki, bu qətnamaələr icra edilməyib və bu gün də torpaqlarımız işğal altında qalmaqdadır.

Paralel olaraq qeyd etməliyik ki, ermənilər 1988-ci ildən

başlayan işğal planında Qərbdən və Avropadan da dəstək alıblar!

Hələ 1989-cu il iyulun 19-da ABŞ Senatı erməni lobbisinin təsiri və təzyiqi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət barəsində Azərbaycanın əleyhinə qətnamə qəbul etmişdi.

Buna paralel olaraq ermənilərin Türkiyəyə qarşı saxta soyqırım iddiaları da bəzi Qərb və Avropa dairələri tərəfindən gündəmə gətirlərək, müdafiəsi yönündə təbilğat aparılırdı.

Azərbaycana və Türkiyəyə qarşı edilən bu təzyiqlərin yekunu olaraq ABŞ Senatı 1991-ci il iyulun 20-də Ermənistana iqtisadi yardım göstərmək barədə qərar qəbul etdi. Daha sonra isə 907-ci düzəlişin qəbul olunması da zaman-zaman Azərbaycan-ABŞ münasibətlərində bir qara ləkə kimi keçir...

* * *

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı yaranmış status-kvonun dəyişməsi artıq zamanın tələbinə çevrilib.

Proseslər göstərir ki, artıq Azərbaycanın da səbri tükənməkdədir, əgər danışıqlar nəticə verməzsə, Azərbaycan dövləti tərəfindən ən yüksək səviyyədə alternativ – hərb yolu ilə torpaqlarını işğaldan azad etmək haqqından istifadə ediləcəyi haqda bəyanatlar dəfələrlə səsləndirilib.

Və bunun ilkin addımı atılıb. 2016-cı ilin aprelində Azərbaycan Silahlı Qüvvələrinin Lələtəpə yüksəkliyini azad etməsi, Cocuq Mərcanlı kəndinin xilas edilməsi Azərbayca-

nın iradəsinin nümayişidir! Və bu çox ciddi bir uğurdur, Ermənilərin belə demək mümkünsə, dişinin sındırılmasıdır!

Qarabağ münaqişəsi ilə bağlı 2016-cı ilin digər bir böyük – beynəlxalq miqyaslı uğuru da var. Beynəlxalq aləmdə ötən 20 ildə Qarabağla bağlı xeyli beynəlxalq təşkilat qərar, qətnamə, bəyanat imzalasa da, 2016-cı ilədək heç bir qurum Qarabağın işğalını açıq və birmənalı şəkildə təsbit etməmişdi. 2016-cı ildə AŞPA nümayəndə heyətinin üzvü, millət vəkili Elxan Süleymanovun təqdimatı əsasında AŞPA 2085 (2016) saylı qətnamə qəbul etdi. Həmin qətnamədə işğal faktı ilk dəfə və birmənalı şəkildə əksini tapır. Bu sənəd 90-cı illərdən indiyədək Ermənistanın işğalçı dövlət kimi tanınmasının qarşısını almağa yönəlmiş siyasətin iflasıdır. Həmin qətnamənin qəbulunun ardınca beynəlxalq qurumların rəhbərləri və yüksək səviyyəli səlahiyyətliləri sırasından ilk dəfə olaraq AŞPA prezidenti cənab Pedro Aqramunt Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərini işğal etməsini rəsmi şəkildə ictimaiyyət qarşısında ifadə etdi. Bu sənəd ermənilərin 20 ildə apardığı siyasəti alt-üst edib..

2085 (2016) saylı qətnamə problemin sülh yolu ilə həllinə bir töhvə kimi qiymətləndirilir.

Məlum qətnamə qəbul edildikdən sonra AVCİYA prezidenti Elxan Süleymanovun təşəbbüsü və imzası ilə "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" petisiyası ilə ABŞ Prezidenti Administrasiyasına müraciət edildi.

Məqsəd həm Ermənistanın işğalçı siyasəti ilə bağlı bütün dünyanı məlumatlandırmaq, həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün ABŞ kimi nəhəng bir güc mərkəzinin dəstəyini almaq idi. Ağ Ev Administrasiyasının internet resursunda Azərbaycan xalqının Obama Administrasiyasına müraciəti yerləşdirildi. Müraciətdə AŞPA-nın 2085 (2016) saylı qətnaməsində vurğulanan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırki durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə çatdırılır, Administrasiyaya AŞPA-nın 2085 (2016) saylı qətnaməsini dəstəkləməsi, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım edilməsi üçün çağırış edilirdi. 1 ay ərzində müraciəti 100 min nəfərin imzalaması lazım idi. AVCİYA-nın kampaniyanın nəticəsi olaraq petisiyaya 350 min nəfərə yaxın şəxs səs verdi.

Ağ Evin müraciətə cavabı Azərbaycan üçün böyük bir siyasi dəstək kimi qiymətləndirilir. Ağ Evin cavabında deyilirdi: "Biz tərəfləri münaqişənin hərtərəfli nizamlanmasına, o cümlədən Dağlıq Qarabağ ətrafı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasına və Dağlıq Qarabağın statusunun müəyyən olunmasına dair təcili danışıqlar

aparmağa və təmkinli olmağa çağırırıq".

Bütövlükdə bu petisiya Azərbaycan xalqının informasiya müharibəsində çox ciddi bir uğuru, intellektual qələbəsi idi. Amerika Tədqiqat Mərkəzi AVCİYA-nın bu petisiyasını Ağ Evin "Biz xalqıq" platformasında toplanan səslərin sayına görə ikinci ən məşhur petisiya elan etdi...

İnformasiya müharibəsi və intellektual mübarizədə AVCİYA-nın həyata keçirdiyi bu iki addım Qarabağ məsələsində Azərbaycanın mühüm uğurları hesab edilir.

* * *

Azərbaycanın Qarabağı işğaldan azad etməsinin üçün güclü ordusu, Ermənistandan qat-qat güclü iqtisadiyyatı, imkanları var. Ermәniləri işğalçılıq siyasətindən geri çəkmək üçün bununla yanaşı, intellektual və informasiya müharibəsində də uğurlara nail olması status kvo-nun dəyişməsində mühümdür. Bu məsələyə biz xüsusi diqqət yetirməliyik...

Qeyd: Yazı AVCİYA-nın "Ermənistanın Azərbaycana təcavüzü media gündəmində" adlı müsabiqəsi üçün hazırlanıb.

"Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: Göyçay döyüşləri-1918-ci il iyun-iyul" kitabı təqdim olunub

30.06.2017

APA

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının nəşr etdirdiyi "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: Göyçay döyüşləri-1918-ci il iyun-iyul" kitabı ictimaiyyətə təqdim edilib.

APA-nın yerli bürosunun xəbərinə görə, Göyçay rayonun Heydər Əliyev Mərkəzində keçirilən mərasimin iştirakçıları əvvəlcə Bığır və Qarabaqqal kəndləri ərazisində 1918-ci ilin iyun-iyul döyüşləri zamanı şəhid olmuş türk əsgərlərinin məzarlarını ziyarət ediblər.

Tədbirdə Milli Məclisin deputatı, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti Elxan Süleymanov, Türkiyənin Azərbaycandakı səfirliyinin katibi Abdullah Tüylü, "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: Göyçay döyüşləri-1918-ci il iyun-iyul" kitabının müəllifi, tarix üzrə fəlsəfə doktoru, dosent Məhərrəm Zülfüqarlı, Göyçay rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə, professor Kərim Şükürov və Şövqi Göyçaylı, tarixçi Pərviz Yəhyayev çıxış edib.

Natiqlər bildirib ki, 1918-ci ilin mart-iyun aylarında ermənilər Azərbaycanın bir çox şəhərlərində, eləcə də Göyçayda günahsız insanlara zülm edərək onlara qarşı xüsusi amansızlıqla soyqırımı həyata keçiriblər. Düşmənlər

qadınlara, qocalara, hətta uşaqlara da aman verməyərək onları ən qəddar üsullarla qətlə yetiriblər. 1918-ci ilin iyununda könüllü əsgər və zabitlərdən ibarət Türk Qafqaz İslam Ordusu general-mayor Nuru Paşanın komandanlığı altında xilaskarlıq missiyası ilə Azərbaycana gəlib. Türkiyə və Azərbaycanın 3 mindən çox əsgər və zabiti Göyçayın yerli könüllüləri ilə birləşərək 30 minlik daşnak-bolşevik birləşmələrinə qarşı mübarizəyə başlayıb və 1918-ci ilin iyun-iyul aylarında Göyçay ərazisində qızğın döyüşlərdə düşmənləri məğlub edərək Bakıyadək qovublar. Həmin vaxt Göyçay ərazisində 1 ay iki gün davam edən döyüşlər Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi hesab edilir. Göyçayın Qarabaqqal, Bığır, Qarayazı, Qaraməryəm, İnçə kəndləri ərazisində gedən döyüşlərdə Türk Qafqaz İslam Ordusunun 200 əsgəri qəhrəmancasına şəhid olub, 156-sı yaralanıb.

Kitabın müəllifi Məhərrəm Zülfüqarlı qeyd edib ki, 1918-ci ilin iyun və iyul aylarında Göyçayda baş verən döyüşlər Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin qorunub saxlanılması və ermənilərin xalqımıza qarşı növbəti soyqırımının qarşısının alınması baxımından böyük əhəmiyyətə malikdir.

Tarixi faktlarla zəngin olan "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: Göyçay döyüşləri-1918-ci il iyun-iyul" kitabında döyüşlərin baş verdiyi kəndlər, aclıq və susuzluqdan əziyyət çəkən orduya kömək edən göyçaylı xeyriyyəçi Hacı Rəhim Əfəndinin xidmətləri, şəhid olan insanların dəfn edildiyi yerlər, həmin dövrdəki ictimai-siyasi vəziyyət

və soyqırımı hadisələri, Göyçay qəzasına daxil olan Ucar dəmiryolu stansiyasının strateji əhəmiyyəti və Kürdəmirdə cərəyan edən hadisələr, qəhrəman türk əsgərlərinin məzarlarının bərpası barədə geniş məlumat verilib.

Tədbir iştirakçıları Azərbaycanın hərb tarixi baxımından bu kitabın əhəmiyyətini yüksək qiymətləndiriblər.

“Sərsəng harayı” kitabı işıq üzü görüb

03.07.2017

1905.az

AVCİYA-nın növbəti nəşri – “Sərsəng harayı” kitabı işıq üzü görüb. Kitabda AVCİYA-nın 2013-cü ildən etibarən həyata keçirdiyi “Sərsəng harayı” layihəsi ilə bağlı ətraflı məlumat verilir.

AVCİYA-nın prezidenti, millət vəkili Elxan Süleymanovun oxuculara müraciəti ilə başlanan kitab üç bölümdən ibarətdir. Siyasi elmlər doktoru, professor Ramiz Sevdimalıyevin müəllifi olduğu birinci bölümdə AVCİYA-nın “Sərsəng harayı” layihəsindən geniş bəhs olunur. Bu layihənin beynəlxalq müstəvidə tanıdılması sayəsində 2016-cı ilin yanvarında qəbul edilmiş AŞPA-nın 2085 saylı “Azərbaycanın cəbhəyanı rayonlarının qəsdən sudan məhrum edilməsi” qətnaməsi ölkəmizin böyük uğuru kimi dəyərləndirilir.

İkinci bölümdə AVCİYA-nın Ağ Ev Administrasiyasına ünvanladığı “Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə” petisiyasına dəstək kampaniyasının bir sıra mərhələləri xronoloji ardıcıllıqla əksini tapıb. 2016-cı il aprelin 6-da AVCİYA-nın prezidenti Elxan Süleymanovun imzaladığı petisiya üçün bir ay ərzində bu təşkilatın genişmiqyaslı fəaliyyəti nəticəsində 331 mindən artıq imza toplandı. Petisiya sayəsində Ermənistan dövlətinin işğalçı siyasəti ilə bağlı dünya yenidən məlumatlandırıldı, təcavüz həqiqətləri ABŞ ictimaiyyətinə çatdırıldı. Qeyd olunmalıdır ki, nüfuzlu Pew Tədqiqat Mərkəzi bu

petisiyanı 5 il ərzində Ağ Ev Administrasiyasına ünvanlanan 4799 petisiya içərisində ikinci ən məşhur petisiya elan etdi. Petisiya Azərbaycan xalqının informasiya müharibəsində mühüm intellektual qələbəsi oldu. İkinci bölümdə petisiya kampaniyasının bir sıra məqamları kiçik mətnlərin və foto-şəkillərin dili ilə çatdırılır.

Üçüncü bölümdə AVCİYA-nın Ağ Ev Administrasiyasına ünvanladığı "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" petisiya layihəsi ilə bağlı jurnalistlər arasında keçirilən müsabiqənin yekunları öz əksini tapıb.

Qeyd edək ki, "Sərsəng harayı" kitabı iyunun 30-da Göyçay şəhərində keçirilən "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: Göyçay döyüşləri (iyun-iyul 1918)" kitabının təqdimat mərasimi çərçivəsində təqdim olunub.

AVCİYA Ermənistanın dinc Azərbaycan əhalisinə qarşı törətdiyi növbəti ağır cinayəti lənətləyir

05.07.2017

AZƏRTAC

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Ermənistan Silahlı Qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndində törətdiyi ağır cinayətlə bağlı bəyanat yayıb. Bəyanatda deyilir:

"Ermənistanın hərbi-siyasi rəhbərliyi növbəti cinayətə imza atdı.

Dünən, iyulun 4-də, axşam saatlarında işğal altında olan ərazilərimizdəki Ermənistan Silahlı Qüvvələri Füzuli rayonunun Alxanlı kəndinin mülki əhalisinin və mülki obyektlərinin ərazilərini mina və qumbaraatanlardan atəşə tutdular.

Bu vəhşi əməl nəticəsində Alxanlı kənd sakinləri - 1966-cı il təvəllüdlü Allahverdiyeva Sahibə İdris qızı və onun nəvəsi 2016-cı il təvəllüdlü Quliyeva Zəhra Elnur qızı həlak oldu, digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Səlminaz İltifat qızı isə ağır bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirildi.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası olaraq Ermənistan dövlətinin dinc Azərbaycan vətəndaşlarına qarşı törətdiyi növbəti ağır cinayəti qətiyyətlə lənətləyir və dünya ictimaiyyətinin diqqətini bu dəhşətli hadisəyə yönəldirik.

ATƏT-in Minsk Qrupunu və beynəlxalq təşkilatları Ermənistan dövlətinin işğalçı siyasətinə son qoymaq üçün qətiyyətli addımlar atmağa çağırırıq".

Yaponiya səfiri Şamaxıda olub

31.07.2017

APA

Yaponiya hökumətinin maliyyə dəstəyi ilə Şamaxı rayonunun Quşçu kəndində "Quşçu kəndinin su təchizatı sisteminin tikintisi" layihəsinin icrası başa çatdırılıb.

APA-nın yerli bürosunun xəbərinə görə, kəndə içməli suyun verilməsi münasibətilə təşkil olunan mərasimdə çıxış edən Milli Məclisin deputatı Elxan Süleymanov Yaponiya hökumətinin bölgələrdə, o cümlədən Şamaxıda həyata keçirdiyi qrant layihələrindən danışıb.

Tədbirdə Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori çıxış edərək qeyd edib ki, Şamaxıda su təchizatı ilə bağlı 2009-cu ildə Məlikçobanlı kəndində də layihə həyata keçirilib. Ümumiyyətlə, Yaponiya hökuməti tərəfindən məktəb tikintisi və təmiri ilə birlikdə indiyədək Şamaxı rayonunda 4 layihə reallaşıb.

Qeyd olunub ki, "Quşçu kəndinin su təchizatı sisteminin tikintisi" layihəsi üzrə qrant müqaviləsi Yaponiyanın Azərbaycandakı səfirliyi ilə "Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiə Mərkəzi" Qeyri-Hökumət Təşkilatı arasında imzalanıb. Layihə çərçivəsində 150 metr dərinlikdə artezian quyusu qazılmaqla, 1,8 kilometr su borusu, 2 su çəni və 3 su bulağından ibarət yeni su təchizatı sistemi tikilib ki, bu da yerli sakinlərin su ehtiyacının ödənilməsinə imkan yaradıb. Bu layihədən 2200 nəfər sakininin faydalanacağı gözlənilir. Layihənin ümumi məbləği 82 min 930 ABŞ dolları təşkil edir.

Elxan Süleymanov yüksək balla ali məktəbə qəbul olunan məzunları təbrik etdi

12.09.2017

musavat.com

Sentyabrın 12-də Şamaxının millət vəkili Elxan Süleymanov rayon mərkəzindəki qərargahında yüksək balla ali məktəbə daxil olmuş Şamaxı məktəblərinin məzunları ilə görüş keçirib.

Musavat.com xəbər verir ki, görüşdə həmçinin 2014-cü ildən bəri ən yüksək balla ali məktəblərə qəbul olunmuş tələbələr, eləcə də millət vəkilinin təşəbbüsü və dəstəyi ilə keçirilən yeddinci Sabir Bədii Qiraət Müsabiqəsinin qalibləri iştirak edib.

Görüşü giriş sözü ilə açan millət vəkilinin rayondakı səlahiyyətli nümayəndəsi, pedaqogika üzrə fəlsəfə doktoru Dəyanət Musayev iştirakçıları salamlayıb. Görüşdə çıxış edən millət vəkili Elxan Süleymanov bu görüşlərin artıq ənənəyə çevrildiyini vurğulayaraq, məzunları tələbə adı almaları münasibəti ilə təbrik edib, onlara öz tövsiyələrini çatdırıb və yeni dərs ilində uğurlar arzulayıb. Görüş iştirakçılarına Şamaxının millət vəkili Elxan Süleymanovun təsis etdiyi təqaüdlər təqdim olunub.

Qeyd edək ki, bu il Şamaxı məktəblərinin 6 məzunu 600-dən artıq bal toplayaraq, tələbə adını qazanıb. Şamaxı şəhər 10 saylı tam orta məktəbin məzunu Şəhla Musayeva və Şamaxı Avropa liyesinin məzunu Lamiyə Mahmudova Azərbaycan Dövlət Tibb Universitetinə, Şamaxı Avropa li-

yesinin məzunu Elgün Bəhrəmli Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına, Ovçulu kənd tam orta məktəbinin məzunu Adəm Heybətov və Adnalı kənd tam orta məktəbinin məzunu Seyidrəsul Heydərov Azərbaycan Dövlət İqtisad Universitetinə, Qurdtəpə kənd tam orta məktəbinin məzunu Şüşəxanım Şahməmmədova Bakı Dövlət Universitetinə qəbul olunub.

Tədbirin sonunda millət vəkili Elxan Süleymanov görüş iştirakçıları ilə xatirə şəkli çəkdirib.

Elxan Süleymanov göyçaylılara və şamaxılılara məktəb hədiyyə etdi

16.09.2017

musavat.com, Elşad MƏMMƏDLİ

Şamaxının millət vəkili Göyçayda və Şamaxıda məktəb binası inşa etdirib

15 sentyabr Bilik Günündə Şamaxının millət vəkili, xeyriyyəçi Elxan Süleymanov göyçaylılara və şamaxılılara məktəb hədiyyə edib.

Öncə Elxan Süleymanovun doğulduğu Göyçay rayonunun Qaraman kəndində yeni tikilmiş məktəb binasının açılışı olub. 1903-cü ildə böyük maarif fədaisi Hacı Rəhim Əfəndinin əsasını qoyduğu məktəbin binası onun nəvəsi, millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə yenidən inşa olunub.

Qaraman kənd tam orta məktəbinin yeni binasının açılışı mərasiminə rayon rəhbərliyi, Qaraman məktəbinin yetirmələri, rayon ziyalıları və kənd sakinləri toplaşmışdılar. Mərasimi giriş sözü ilə məktəbin direktoru Məlahət İsmayılova açdı. Tədbirdə Göyçay rayon İcra Hakimiyyətinin Başçısı Mehdi Səlimzadə, Göyçay rayon Təhsil Şöbəsinin müdiri Elnur İsmayılov, Hacı Rəhim Əfəndinin nəvəsi, millət vəkili Elxan Süleymanov, millət vəkili Elman Nəsirov, Pedaqogika üzrə fəlsəfə doktoru, professor, əməkdar müəllim Nadir Abdullayev, Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Atəş Abdullayev, qocaman müəllim Məzahir Məmmədov, şair Musa Yaqub, millət vəkili Elxan Süleyma-

novun təqaüd verdiyi şagirdin valideyni Gülnarə Cavadzadə və başqaları çıxış etdilər.

Çıxışçılar Qaraman kənd məktəbinin şanlı tarixi, onun Azərbaycan elminə bəxş etdiyi görkəmli ziyalılar haqqında danışdılar.

Qeyd edək ki, məktəbin yeni binası kifayət qədər qısa müddət ərzində başa gəlsə də, bu profilli tikintilər üçün nəzərdə tutulan bütün tələblərə cavab verir. Məktəb böyükdür, genişdir, işıqlıdır. 12 sinif otağı, kitabxana, laboratoriya, hərbi hazırlıq, kompüter otaqları, 2 akt zalı, bufet və daxili qapalı həyət məktəblilərin ixtiyarına verilib.

Elxan Süleymanov bildirdi ki, babası Hacı Rəhim Əfəndidən örnək götürərək, təhsilə, mənəvi dəyərlərə qayğı göstərir, xeyriyyəçilik edir: "Mən oğullarıma da tövsiyyə etmişəm ki, imkanları daxilində bu xeyriyyəçilik ənənəsini davam etdirsinlər, xüsusi ilə təhsilə qayğı göstərsinlər".

Tədbirin sonunda Elxan Süleymanov tərəfindən birinci sinifə gedən şagirdlərin hamısına məktəb ləvazimatları hədiyyə edildi.

Sentyabrın 15-də Elxan Süleymanov şamaxılılara da məktəb binası hədiyyə etdi. Şamaxı rayonunun Məlcək kəndində də millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə yeni ümumi orta məktəb binasının da açılışı oldu.

Məktəbin direktoru Sənəm Rəsulovanın aparıcılığı ilə keçən açılış mərasimində Şamaxı rayon İcra Hakimiyyəti Başçısının müavini Gülnisə Ələkbərova, Şamaxı rayon Təhsil Şöbəsinin müdiri Eyvaz Eminalıyev, Şamaxının mil-

lət vəkili Elxan Süleymanov və kənd ağsaqqalları çıxış etdilər.

Sənəm Rəsulova bildirdi ki, Elxan Süleymanov bu kəndin camaatına heç zaman unudulmayacaq yaxşılıq edib: "Bilik Günündə bir kəndə, rayona məktəb binası hədiyyə etmək üçün böyük ürəyə sahib olmaq lazımdır. Bizlər sizin bu yaxşılığınızı heç zaman unutmayacağıq".

Elxan Süleymanov çıxışında bildirdi ki, ölkədə görülən bütün abadlıq, quruculuq işləri cənab prezident İlham Əliyevin təşəbbüsü və göstərişləri ilə həyata keçirilir: "Mən də bu xeyirxah işlərə qoşularaq, əlimdən gələni etməyə çalışıram. İmkanı olan hər kəsi də bu işlərə dəstək verməyə çağırıram".

Elxan Süleymanovun nəvələri, məktəbin şagirdləri Ana, Məktəb və Vətən haqqında şeirlər söylədilər.

16 nəfər birinci sinif şagirdinə millət vəkili dərs vəsaiti ləvazimatlarını hədiyyə etdi.

Elxan Süleymanovun qərargahında soyqırım mövzusu müzakirə edildi

13.11.2017

musavat.com

Noyabrın 13-də Şamaxının millət vəkili Elxan Süleymanovun rayondakı qərargahında Şamaxı şəhər Avropa Liseyi və S.M.Qənizadə adına şəhər 1 saylı tam orta məktəbinin şagird və müəllimlərinin iştirakı ilə "Azərbaycan tarixində soyqırımlar" mövzusunda tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan Şamaxının millət məkili Elxan Süleymanovun səlahiyyətli nümayəndəsi pedaqogika üzrə fəlsəfə doktoru Dəyanət Musayev iştirakçıları salamladı. Dəyanət Musayev ermənilərin tarix boyu dəfələrlə (1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə) azərbaycanlıları soyqırıma məruz qoyduqlarını bildirdi və tarixin olduğu kimi gələcək nəsillərə çatdırılmasının zəruriliyini qeyd edərək, millət vəkili Elxan Süleymanovun ideya müəllifi və naşirliyi ilə çap edilən "Şamaxı soyqırımı 1918", "Xocalı soyqırımı 1992", "Qaradağlı faciəsi", "Samir, Nazim, Elşən" və s. kitablar barəsində iştirakçıları məlumatlandırdı. Natiq ermənilyin ifşasında "1905.az" portalının rolu ilə bağlı ətraflı danışdı.

Tədbirdə fəal iştirak edən Ülkər Hacıyeva, Elvin Hümbətov, Aqşin Abdulrazaqov və başqalarına "1905.az" və "elkhan-suleymanov.az" saytlarının nəşri olan kitablar və digər hədiyyələr təqdim olundu. Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

Şamaxının millət vəkili balacaları və şəhid ailələrini yeni il münasibətilə təbrik edib

29.12.2017

elkhan-suleymanov.az

Dekabrın 27-də Şamaxının millət vəkili Elxan Süleymanovun adından rayonun 22 uşaq baxçasında tərbiyə alan 1200-dən artıq uşağa yeni il sovqatları təqdim olunub.

Elə həmin gün millət vəkilinin adından Şamaxı rayonunda yaşayan 76 Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin ailələlərinə Yeni il hədiyyələri verilib və onlara Elxan Süleymanovun təbrikləri çatdırılıb.

MƏQALƏLƏR

Ştrasser uydurmasında "erməni sövdələşməsi"nin izi

13.03.2017

APA

Bu konkret və informativ faktlar və rəqəmlər anti-Azərbaycan qüvvələrin Ştrasser məruzəsi ilə bağlı uydurduqları böhtan və şayiələrin mahiyyətini açır.

2013-cü ilin yanvar ayında 125 üzv (79 üzvə qarşı) olduqca müxtəlif səbəblərə görə Ştrasser məruzəsinin əleyhinə səs verdi:

Ştrasserin məruzəsinə əlavə edilmiş və düzəlişə açıq olmayan "siyasi" məhbusların siyahısı təxəyyülə əsaslanırdı (bəzi "məhbuslar" azad edilmiş yaxud artıq vəfat etmişdi və ya ümumiyyətlə, heç vaxt belə "məhbus" olmamışdı), siyahı faktiki olaraq yoxlanmamışdı, beləliklə, etibarlı deyildi.

Ştrasserin məruzəsi o vaxt paralel olaraq müzakirə edilib, ayrıca səsə qoyulan Monitorinq məruzəsinə xeyli zidd idi. Deputatların çoxu seçim etdi.

Ümumiyyətlə, bir çox deputatlar artıq xüsusi müzakirə edilmiş və ətraflı qaydada Monitorinq məruzələrinə daxil edilmiş məsələlərə dair ayrıca məruzələrin hazırlanması təcrübəsinin əleyhinə çıxış etmişdi.

Ştrasserin məruzəsini açıq müdafiə edən QHT-lər və cənab Omtziqt kimi deputatlar heç bir əsas olmadan Ermənistan üçün aşkar lobbiçilik edərək, beləliklə, hamıya tamamilə qərəzli yanaşaraq, Azərbaycan hakimiyyətinə

kor-koranə hücum edirdi. Nəticədə, bu, Ştrasserə kömək etmədi.

Son əsassız korrupsiya iddialarında təkrar edilir ki, EPP-nin o vaxtkı rəhbəri cənab Volonte guya ki, "öz qrupuna Ştrasser məruzəsinin əleyhinə səs vermək göstərişi vermişdi". Lakin bütün qrup iclaslarının protokolları nəzərdən keçirilə bilər və bütün siyasi qruplarda Ştrasserin məruzəsinə səsverməyə dair qrup liderləri tərəfindən aşağıdakı göstərişlər verilmişdi:

Avropa Xalq Partiyası Qrupu (EPP): sərbəst səsvermə!!

Sosialistlər Qrupu (SOC): cənab Ştrasserin lehinə səs vermək məcburi idi, əks halda qrup tərəfindən nizam-intizam sanksiyaları tətbiq ediləcəkdi!

Avropa Mühafizəkarlar Qrupu (EC): sərbəst səsvermə, lakin daha çox əleyhinə (demək olar ki, bütün azərbaycanlı deputatlar EC qrupunda idi).

Avropa Liberal Demokratlar İttifaqı (ALDE): sərbəst səsvermə.

Vahid Avropa Solçuları (UEL): sərbəst səsvermə.

Nəticə etibarilə, üzvlərini səs verməyə qəti məcbur etmiş yeganə siyasi qrup Sosialistlər qrupu idi, lakin Sosialistlər qrupundakı bu ifrat lobbiçilik təcrübəsi heç zaman və ya heç bir yerdə sual altına qoyulmamışdı. Bu, AŞPA – da Azərbaycana qarşı aşıq – aşkar qəbul edilmiş bir təcrübə idi.

Yuxarıda qeyd edilən səsvermə təlimatları müstəvisində Ştrasser məruzəsinə yekun səsvermənin nəticələri daha maraqlıdır və həqiqi bir ifşadır:

Avropa Xalq Partiyası Qrupu (EPP): 66 üzvdən yalnız 38 üzvŞtrasser məruzəsinin əleyhinə səs verdi – yalnız 57%

Sosialistlər Qrupu (SOC): 73 üzvdən yalnız 46 üzv məruzəyə "hə" dedi – üzvlərin 1/3-dən çoxu Almaniyadan olan sosialist həmkarını dəstəkləmədi!

Avropa Mühafizəkarlar Qrupu (EC): yalnız 2 deputat (o cümlədən biri Ermənistan deputatı)Ştrasser məruzəsini dəstəklədi.

Avropa Liberal Demokratlar İttifaqı (ALDE): 50-50-yə nəticə, belə ki, 11 nəfər lehinə, 12 nəfər əleyhinə səs verdi.

Vahid Avropa Solçuları (UEL): 13 üzvdən yalnız 1-iŞtrasser məruzəsinin lehinə səs verdi, deməli, digər 12 UEL üzvü, o cümlədən UEL-in rəhbəri korrupsiyalaşıb və qara siyahıya salınmalıdır..?

Ştrasserin məğlubiyyətindən sonra bu məğlubiyyətə haqq qazandırmaq üçün Azərbaycana qarşı yönəlmiş qarayaxma kampaniyasına rəhbərlik edənlərdən biri, Vahid Avropa Solçuları qrupunun sədri Tini Koksun mövqeyi anlaşılmazdır. Koksun sədrlik etdiyi qrupun 95%-nin Ştrasser məruzəsinin əleyhinə səs verdiyi halda, indi onun Azərbaycana hücum etmə səbəbi sual doğurur.

Avropa Strateji Kəşfiyyat və Təhlükəsizlik Mərkəzi (ASKTM) 6 mart tarixində dərc etdiyi "Erməni sövdələşməsi – Deputatlar və QHT-lərdən ibarət gizli fraksiya 2012-ci ildən etibarən beynəlxalq hüququn pozulması hallarını gizlətmək məqsədilə Avropa Şurası Parlament Assambleyasında necə şəbəkə yaradıb?" adlı hesabatında bu suala aydınlıq gətirdi. Hesabatda "Erməni sövdələşməsinin" ak-

tiv üzvlərinin mövcudluğunun əsl mahiyyəti üzə çıxır.

Nəticə etibarilə, Ştrasser məruzəsinin məğlubiyyətinə sırf EPP qrupu və ya o vaxtkı rəhbərliyini ittiham edərək, bəraət qazandırmağa çalışmaq tamamilə məntiqsiz, absurd və gülüncdür.

Bəs kimdir günahkar?

Bir neçə ay sonra AŞPA-da "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində zorakılığın artması" adlı məruzə 4 səs fərqi ilə rədd edildi, beləliklə, açıq-aydın Assambleyanı parçaladı.

Bu məruzədə yalnız BMT Təhlükəsizlik Şurasının qərarları və AŞPA-nın əvvəlki qətnamələri xatırladılır, lakin heç bir yeni "tələb" irəli sürülmürdü. Lakin hətta AŞPA Bürosunun təsdiqlədiyi "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş əraziləri" adlı başlıq və bu qanunsuz işğalın yenidən AŞPA gündəliyində yer alması faktı AŞPA daxilində və ondan kənardakı bütün ermənilər və ermənipərəst qüvvələri səfərbər etdi.

Həmin sessiyada iştirak edən deputatların hamısı, şübhəsiz ki, bütün ermənilərin və ermənipərəst qüvvələrin, Avropadakı bütün erməni diplomatların, Sorosun maliyələşdirdiyi QHT-lərin, cənab Omtziq və Şvabe, onun AŞPA-dakı "toxunulmazlar" komandasının ifrat lobbiçilik fəaliyyətini xatırlayır. Onların hamısı bu AŞPA məruzəsinin rədd edilməsi üçün səfərbər olmuş və digərlərini də açıq səfərbər etmişdilər.

Bəzi deputatlar hətta ermənilər tərəfindən təhdidə məruz qaldıqlarını mənə bildirmişdi. Ermənilərin açıq qəzəbi

olduqca dəhşətli idi.

Qəribədir ki, ermənilərin bu hədsiz lobbiçilik fəaliyyəti heç gizlədilməmiş, utanma və ya çəkinmə olmadan, açıq-aşkar AŞPA daxilində həyata keçirilmişdir və maraqlıdır ki, heç vaxt heç bir səviyyədə sual altına qoyulmamışdır. Nə üçün?

Nə üçün Azərbaycanla bağlı müzakirədə əsaslı bir fikir irəli sürən hər kəs cinayətkar hesab edilir?

Nə üçün Ermənistan üçün güclü lobbiçilik aparan hər kəs toxunulmaz döyüşçü hesab edilir?

ASKTM-nın son hesabatından sonra "toxunulmaz" deputatlar və QHT-lərin qoruduğu bütün Ermənistan şəbəkəsi üzə çıxdığından, artıq cavabı bilirik.

ASKTM-nin hesabatında qeyd edilir ki, Erməni sövdələşməsinin üzvləri Azərbaycana qarşı yönəlmiş düşmənçilik strategiyasını reallaşdırmaq üçün Ştrasserin 2017 – ci ildə Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkili təyin edilməsinə xidmət edirlər.

Təəssüflər olsun ki, hal-hazırda AŞPA bu azsaylı "toxunulmaz" deputatların qaranlıq mühitinə qərq olmaq üzrədir. Həmin deputatlar bir növ mənəvi üstünlüklərini nümayiş etdirir və buna haqq qazandırır, şəxsi fikirlərini hamıya zorla qəbul etdirir və buna qarşı çıxan hər kəsi açıq-aşkar şantaj və siyasi cəhətdən zəif olmaqda təhdid edirlər.

Elxan Süleymanov

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü, millət vəkili

Baş katib Savitskinin AŞPA-da gizli kəşfiyyat xidməti

28.04.2107

APA

Avropa Şurası Parlament Assambleyası 1974-cü ilə qədər öz Nizamnaməsində hər zaman "Məşvərət" Assambleyası adlanmışdır. O, adını 1974-cü ildə dəyişmişdir, çünki parlamentarilər açıq-aydın ad dəyişikliyində təkid etmişdir. Nazirlər Şurası 1994-cü ildə ad dəyişikliyinə razılıq verdi, lakin Assambleyanın missiyası və miqyası, Nizamnamədə nəzərdə tutulduğu kimi, tamamilə eyni qaldı.

Beləliklə, bu gün baş katiblərin və AİHM-yə hakimlərin seçilməsi istisna olmaqla, Assambleya hələ də sırf "məşvərət" səlahiyyətinə malikdir.

Bundan əlavə, 22-ci maddədə deyilir ki, "Məşvərət (Parlament) Assambleyası Avropa Şurasının məşvərət orqanıdır." Beləliklə, Assambleya yalnız məşvərət apara bilər, bu isə Oksford lüğətinə əsasən, "uzun və diqqətli müzakirə aparmaq" deməkdir. Bu qədər.

Deməli, məşvərət assambleyasının hər hansı tipli istintaq orqanı təsis etməsi açıq-aydın qeyri-mümkündür. Bundan əlavə, bu, nə beynəlxalq hüquqda, nə də üzv dövlətlərin milli hüquq sistemlərində nəzərdə tutulmuşdur. İstintaq hərəkətləri aparmağa qadir olan orqanlar üzv dövlətlərin hüquq-mühafizə orqanlarıdır.

Şübhəsiz, Assambleya istədiyi mövzu barədə improvizə edə və uydurma yaza bilər. Təəssüf ki, heç bir deputat baş

katib Savitskinin şəxsi cəfəngiyyatını dayandırmağa yaxud düzəltməyə müvəffəq olmamış yaxud onlara bunun üçün imkan verilməmişdir. Aydındır ki, bu, təəssüf ki, sadəcə kağız itkisidir.

Əlbəttə, bu gün baş katib əldə etdiyi nəticəyə sevinir, çünki sosialistləri və skandinaviyalıları Assambleyadakı üsyanını kor-koranə dəstəkləməyə asanlıqla inandıra bilmişdir.

Cənab Savitskinin Qaydaları yeni şərhlərindən biri də odur ki, onun təklifinin bazar ertəsi səhər Büronun sənədlərində olması, həmin gün günorta düzəlişlər olmadan qərar verilməsi və iki gün sonra yenidən düzəlişlər rədd edilərək, plenarda olması problem deyil. Demokratik qərarvericiliyin daha bir nümunəsi! Yaxud demokratiya evində 1 nömrəli məmurun kifayət qədər utancverici üsyanı?

Onun Assambleya vasitəsilə irəli sürdüyü sənədi şəxsən ona "namizədlərlə şəxsi danışıqlar aparmaq" və daha sonra üç adla götürmək yaxud götürməmək təklifi vermək səlahiyyəti verir.... Şəffaflıq? Demokratiya?

Bir neçə həftə ərzində aydın olacaq ki, ali baş katibimiz AŞPA-da şəxsi gizli xidmətini yaratmaq ambisiyasının məyusedici xülya ilə bitəcəyini qəbul etməli olacaq... və onun AŞPA-nı imperatorsayağı idarə etməsi çox çəkməyəcək. Böyük ehtimalla AŞPA-da bugünkü çevrilişə cəhd məhz Savitskinin rəhbərlik etdiyi gizli kəşfiyyat qrupunun sövdələşməsinin nəticəsidir. Assambleyanın daha bir tənəzzülünə və yalnız o, buna görə məsuliyyət daşıyacaq!

Deputat Elxan Süleymanov

Körpə Zəhranın qətlinin arxasında beynəlxalq ictimaiyyətin biganəliyi və işğalçı Ermənistana havadarlıq etməsi dayanır

06.07.2107

APA

İşğalçı Ermənistan 4 iyul 2017-ci ildə növbəti qanlı cinayət törətdi. Belə ki, Ermənistan Silahlı Qüvvələri Füzulinin Alxanlı kəndini minaatanlardan və qumbaraatanlardan atəşə tutub. Düşmənin atdığı mərmi atəşi nəticəsində 1967-ci il təvəllüdlü Quliyeva Sahibə və onun nəvəsi 18 aylıq Quliyeva Zəhra həlak olub.

Digər mülki şəxs 1965-ci il təvəllüdlü Quliyeva Sərvinaz yaralanıb. Günahsız mülki əhalini özünə hədəf seçən Ermənistanın insanlıq əlehinə törətdiyi bu cinayət əməli təsadüfi xarakter daşımır, belə əməllərin törədilməsi sistemli xarakter daşıyır və cinayətkar Ermənistan həm işğal zamanı, həm də işğalın davam etdiyi 25 il ərzində mütəmadi olaraq cəbhəyanı ərazilərdə Azəraycan vətəndaşı olan mülki əhalini, əsasən də qadınları və azyaşlı uşaqları xüsusi qəddarlıqla qətlə yetirib.

Cəmi 18 ay ömür sürmüş Zəhranın Ermənistan əsgərlərinin atdığı mərmidən həlak olması istər-istəməz işğalçı tərəfin yaxın keçmişdə törətdiyi digər qanlı cinayətləri bir daha yada salır. Ermənistanın nəzarəti altında olan ərazidən Azərbaycanın Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxılmış "itəbənzər" uşaq oyuncağına quraşdırılmış partlayıcı qurğunun 2012-ci il iyulun 14-də işə düşməsi

nəticəsində 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Zirəddin qızının həlak olması, Ermənistan tərəfindən işğal olunmuş Ağdam rayonu ərazisindən Ermənistan silahlı qüvvələrinin snayperinin 2011-ci ilin martın 8-də açdığı atəş nəticəsində 9 yaşlı Fariz Bədəlovun qətlə yetirilməsi bizim yaddaşımıza həkk olunub.

Ermənistan tərəfinin bu cinayəti ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfərindən sonra baş verməsi onun təsadüfi olmadığını göstərir. Doğrudan da, yaxın keçmişə nəzər saldıqda görürük ki, danışıqların intensivləşdiyi bir vaxtda, vacib nəticələrin gözlənildiyi ərəfədə, həmsədrlərin regiona növbəti səfərləri ərəfəsində və ya ondan sonra bir qayda olaraq Ermənistan tərəfi atəşkəsi pozmuş, bu zəmində mülki şəxslərin, xüsusilə də azyaşlı uşaqların qətlə yetirməsi halları artmışdır. Bu dəfə də belə oldu – ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfəri başa çatdıqdan sonra düşmən öz ənənəsinə sadiq qalaraq növbəti qanlı cinayət törətdi. ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə müzakirələrdə substantiv danışıqlar yolu ilə status-kvonun dəyişdirilməsinə çağırışlar edilən bir zamanda Ermənistanın mülki şəxslərin və uşaqların qəsdən öldürülməsinə yönəlmiş təxribatlara əl atması bu dövlətin işğala son qoymaqda maraqlı olmadığını bir daha sübuta yetirir.

Əlbəttə, Ermənistan işğalla bağlı beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin icra edilməməsini və onların kağız üzərində qalmasını görərək, beynəlxalq təşkilatlarda işğalçı ilə işğala məruz qalan arasında fərq qoyulmamasın-

dan və işğalçı siyasətinə görə ona qarşı heç bir sanksiyanın tədbiq edilməməsindən ruhlanaraq qanlı cinayətlər törətməkdə davam edir. Belə olan halda beynəlxalq təşkilatlar işğalçı Ermənistanın havadarları rolunda çıxış edirlər və faktik olaraq 18 aylıq Zəhranın və digər azərbaycanlı azyaşlı uşaqların qatili olan Ermənistana de-fakto dəstək verirlər. Odur ki, beynəlxalq ictimaiyyət biganəliyə, işğalçı Ermənistanı himayə etməyə son qoymalı, işğalın aradan qaldırılması üçün real addımlar atmalıdırlar.

Elxan Süleymanov,
Azərbaycanın AŞPA-da nümayəndə heyətinin üzvü

"Qarabağ" futbol klubu Azərbaycanın informasiya raketinin daşıyıcısıdır

24.11.2017

APA

Azərbaycanın "Qarabağ" futbol klubunun UEFA yarışlarında uğur qazanmasına dünya futbol rəsmiləri heç vaxt yol verə bilməz. Belə ki, bütün beynəlxalq təşkilatlar, dünya birliyi, güc mərkəzləri 25 ildən artıqdır "münaqişə" ifadəsi ilə Azərbaycan torpaqlarının işğalını mübahisəli ərazi kimi qələmə verməklə, dünya ictimaiyyətində yanlış fikir formalaşdırmağa cəhd edirlər. Beynəlxalq təşkilatlardakı fəaliyyətim zamanı qarşılaşdığım haqsızlıqlar mənim belə bir qənaətə gəlməyimə əsas verir. Odur ki, oyunlarda yüksək peşəkarlıq göstərən Qarabağ FK üzvlərinə, məşqçilərinə, eləcə də oxuculara beynəlxalq təşkilatlarda qarşılaşdığım bəzi məsələlər barəsində qısa məlumat vermək istərdim.

Mən 24 iyun 2014-cü ildə bir qrup AŞPA deputatının imzası ilə AŞPA katibliyinə "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində gərginliyin artması" adlı qətnamə layihəsi təqdim etdim. Bu qətnamə layihəsindəki "Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin işğalı" ifadəsi rəsmi sənədlərdə ilk dəfə olaraq işlədilirdi. Bu səbəbdən AŞPA-nın Siyasi Komitəsində, Büroda və sessiyada bu qətnaməyə məruzəçinin təyin edilməsi üçün görünməmiş mübarizə getdi. Bu mübarizəyə əsas səbəb qətnamə layihəsinin "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində gərginliyin artması" kimi adlandırılması

idi. Belə ki, bu ad faktiki olaraq ermənіləri və Ermənistan dövlətinin uzunmüddətli işğalçı siyasətini puç edirdi. Ermənistan dövlətinin və erməni lobbisinin çağırışı ilə, Qarabağ problemi ilə guya məşğul olan ATƏT-in Minsk Qrupu, güc mərkəzləri, bütün beynəlxalq təşkilatlar və QHT-lər, Türkiyə istisna olmaqla, 45 AŞ ölkəsi din amilini əsas tutaraq, bu məruzənin qarşısının alınması üçün birləşdi. Xristian dünyasının tanınmış siyasətçiləri, dövlət məmurları, din, mədəniyyət və incəsənət xadimləri, müğənnilər, hətta idmançılar da öz din qardaşları olan ermənilərə, işğalçı dövlətə kömək üçün ayağa qalxdılar. Nəticədə, bir il yarım davam edən mübarizəyə və Komitədə və Büroda məruzəçinin təsdiq olunması uğrunda gedən döyüşlərdə qalib gəlməyimizə baxmayaraq, 26 yanvar 2016-cı ildə AŞPA-nın qış sessiyasında məruzə 4 səs fərqi ilə (66 səs lehinə, 70 səs əleyhinə, 45 səs bitərəf) qəbul edilmədi.

Həmin sessiyada eyni zamanda Sərsəng su anbarı ilə bağlı mənim qətnamə layihəm əsasında hazırlanan "Azərbaycanın cəbhəyanı ərazilərinin sakinləri qəsdən sudan məhrum edilir" adlı məruzə də dinlənilirdi. Bu məruzədə də Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi əks olunurdu. Lakin düşmən bu döyüşdə qələbə qazana bilmədi. Bu qətnaməni ona görə xatırlatdım ki, bütün hücum və maneələrə baxmayaraq, davamlı mübarizə əzmində qələbə əldə etmək mümkündür. İnanıram ki, "Qarabağ" futbol klubu da öz əzmi ilə ən yüksək qələbələrə nail olmağa qadirdir.

Hər iki məruzədə bir məqsədimiz vardı: Ermənistanın işğalçı siyasətini ifşa etmək, Azərbaycan torpaqlarının məhz Ermənistan dövləti tərəfindən işğal edilməsini sənədləşdirmək. Robert Volterin məruzəçisi olduğu "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində gərginliyin artması" məruzəsində qarşılaşdığımız maneələr və uduzduğumuz hesab UEFA kubokunda Azərbaycanın "Qarabağ" komandasının İngiltərənin "Çelsi" futbol klubuna eyni hesabla, 0-4 hesabı ilə uduzmasına bənzəyir. Bu, bənzətmə deyil, bu, acı həqiqətdir, çünki Azərbaycanın "Qarabağ" futbol klubunun UEFA kubokunda iştirakı, İngiltərə, İspaniya, İtaliya kimi ölkələrin möhtəşəm futbol klubları ilə saysız-hesabsız azarkeşlər qarşısında oynaması işğalçı Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlama siyasətinə mane olur. "Qarabağ" komandasının bu mötəbər kubokda iştirakı yalnız ölkənin futbol uğuru deyil, bu həm də Azərbaycan həqiqətlərinin, Azərbaycan torpaqlarının Ermənistan dövləti tərəfindən işğalının, Qarabağın Azərbaycan torpağı olmasının dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu isə dünya güc mərkəzlərinin, beynəlxalq təşkilatların Ermənistanın xeyrinə apardığı siyasətin məhv edilməsinə xidmət edir. "Qarabağ" klubu irəli getdikcə milyonlarla insan Qarabağın Azərbaycan torpağı olmasını öyrənir. Bu səbəbdən "Azərbaycanın Dağlıq Qarabağ" ifadəsinin işlədilməsini qadağan edən ermənipərəst dünya birliyi "Qarabağ" klubunun qalib gəlməsinə yol verə bilməzdi.

İstisna deyil ki, "Qarabağ" futbol klubunun son üç oyu-

nunda hakimlərin komandamıza qarşı görünməmiş ədalətsizliyi və nifrəti məhz güc mərkəzləri tərəfindən verilmiş siyasi sifariş idi. "Qarabağ" klubunun sıradan çıxarılması üçün açıq-aydın və məqsədyönlü strategiya hazırlanmışdır. Son oyunlarda baş verən faktlar bu strategiyanın tərkib hissəsi idi. Komandanın ən güclü oyunçuları Dino Ndlov, Pedro Enriqueyə qırmızı vərəqə verilib, növbəti iki oyuna buraxılmaması və son oyunda komandanın kapitanı Rəşad Sadıqova qırmızı vərəaqənin verilməsi, eyni zamanda 2 dəfə 11 metrlik cərimə zərbələrinin təyin edilməsi bunun bariz göstəricisidir.

Bu faktlar hər biri səbəbsiz baş vermiş, qərəzlilik və nifrət göstəricisi idi. Bu, dünya miqyasında məşhur olan "Çelsi" klubunun "Qarabağ" klubu üzərində qələbəsi deyildi, bu, nifrət və küdurət dolu hakimin qələbəsi idi. Bu siyasiləşmiş məğlubiyyət "Qarabağ" klubunun məğlubiyyəti deyil, Avropa demokratiyasının ikiüzlülüyüdür.

Hörmətli Qurban Qurbanov və "Qarabağ" klubunun oyunçuları!

Nəzərə almalısınız ki, Siz "Qarabağ" adı ilə Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin işğal edilməsini dünyaya çatdıran sürətli təbliğat maşınını idarə edirsiniz. Komandanızın və qələbələrinizin populyarlığı beynəlxalq təşkilatların işğalçı Ermənistanı müdafiə etməsini çətinləşdirir. Siz həmişə xristian aləminin diqtəsi ilə işləyən hakimlərin müsəlman ölkəsinə təzyiqlərinə və nifrətinə hazır olmalı, mübarizə əzminizi itirməməlisiniz. İşğal edilmiş ərazilərimiz o vaxt Azərbaycana qayıda bilər ki, Azərbay-

can informasiya müharibəsində qalib gəlsin. "Qarabağ" futbol klubu möhtəşəm oyunlar nümayiş etdirməklə, Azərbaycanın dünyada ən güclü informasiya raketinin daşıyıcısına çevrilir.

Sizə və komanda üzvlərinə dözümlülük və əzmkarlıq arzu edirəm!

Elxan Süleymanov, millət vəkili

MÜSAHİBƏLƏR

AVCİYA prezidenti: "ABŞ petisiyaya cavabında Qarabağətrafı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasına çağırdı"

05.01.2017

APA

Millət vəkili, AVCİYA-nın prezidenti Elxan Süleymanovla müsahibə

- Tanınmış Amerika sosioloji araşdırma mərkəzi AVCİYA-nın layihəsini dünyada ikinci ən məşhur petisiya kimi qiymətləndirdi. Bu barədə nə deyə bilərsiniz?

- Bəli, Amerikanın Pew Tədqiqat Mərkəzi dekabrın 28-də dərc etdiyi hesabatda Ağ Ev Administrasiyasının rəsmi saytında yerləşdirilmiş "Biz Xalqıq" platformasının 2011-2016-cı illər ərzində olan fəaliyyətini və bu platforma vasitəsilə Ağ Ev Administrasiyasına ünvanlanan müraciətlər və bu müraciətlərin cavablandırılması vəziyyətini araşdırıb.

Öncə vurğulamaq istərdim ki, "Biz Xalqıq" platforması 2011-ci ildə Barak Obama Administrasiyası tərəfindən yaradılmış və kifayyət qədər ciddi bir platformadır. Həm bu saytın bütün dünyada çoxmilyonlu izləyiciləri var, həm də sayta edilən müraciətlərə Ağ Evin rəsmi reaksiyasını almaq mümkündür. Bu platforma ilə bağlı araşdırma aparmış Mərkəz özü də dünya səviyyəsində tanınmış bir sosioloji araşdırma qurumudur. Bu Mərkəz Amerikanı və dünyanı formalaşdıran məsələləri araşdırır, ABŞ siyasəti və strategiyasını, ABŞ-ın sosial və demoqrafik istiqamətlərini öyrənir,

bu kimi sahələrdə peşəkar təhlillər aparır.

Pew Tədqiqat Mərkəzinin bu hesabatında bildirilir ki, 5 il ərzində Ağ Ev Administrasiyasına ümumilikdə 4799 petisiya ünvanlanıb və bunlardan cəmi 227-nə Administrasiya tərəfindən cavab verilib, "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya isə Ağ Evə müraciət platforması tarixində ikinci ən məşhur petisiyadır. Bilirsiniz ki, bu petisiya ötən ilin aprel ayında Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) tərəfindən açıldı və petisiyaya Ağ Ev Administrasiyası çox qısa müddətdə cavab verdi.

AVCİYA-nın bu layihəsi bir neçə baxımdan çox uğurlu oldu. Birincisi, petisiyaya bütün Azərbaycan xalqı, bütün türk dünyası qoşuldu və zəruri olan imza sayından 3.5 dəfə artıq imza toplandı. İkincisi, Ağ Evin müraciətimizə cavabı Azərbaycan üçün böyük bir siyasi dəstək idi. ABŞ bu cavabında Dağlıq Qarabağ ətrafı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasına və Dağlıq Qarabağın statusunun müəyyən olunmasına dair təcili danışıqlar aparmağa çağırış etdi. Eyni zamanda, Amerika Tədqiqat Mərkəzinin bu petisiyanı dünyada ikinci ən məşhur petisiya kimi qiymətləndirməsi bu saytın çoxmilyonlu izləyicisinin diqqətini bir daha bu məsələyə yönəltdi, Ermənistanın işğalçı siyasəti yenidən aktuallaşdırıldı.

- Petisiya ideyası necə yarandı və məqsəd nə idi?

- 26 yanvar 2016-cı il tarixində AŞPA 2085 saylı qətnamə qəbul etdi. AŞPA-nın bu qətnaməsi ilk dəfə olaraq məhz Ermənistan dövlətinin Azərbaycan torpaqlarını işğal etmə-

sini rəsmən sənədləşdirdi. Yəni, sənədin qəbul edilməsinə səs vermiş 47 Avropa Şurası üzvü Ermənistan dövlətini işğalçı kimi tanıdı və Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsini tələb etdi. Bilirsiniz ki, bu qətnamə qəbul edilməmişdən 2 il əvvəl AVCİYA "Sərsəng harayı" layihəsi ilə bu sahədə iş aparmağa başlamışdı və mən qətnamə təklifi ilə AŞPA katibliyinə müraciət etmişdim. Başladığımız bu iş nəinki AVCİYA-nın, Azərbaycanın böyük bir qələbəsi oldu. Lakin biz bununla kifayətlənmədik və Azərbaycanın haqq səsinin bütün dünyaya çatdırılmasını istədik. Ağ Evin "Biz Xalqıq" platforması bunun üçün tam uyğun bir meydan idi. Bu səbəbdən "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" petisiyası ilə ABŞ Prezidenti Administrasiyasına müraciət etdik. Məqsədimiz həm Ermənistanın işğalçı siyasəti ilə bağlı bütün dünyanı məlumatlandırmaq, həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün ABŞ kimi nəhəng bir güc mərkəzinin dəstəyini almaq idi.

- Qeyd etdiyiniz qətnamənin ərsəyə gəlməsinin səbəbi sizin AŞPA katibliyinə təqdim etdiyiniz qətnamə təklifi olmuşdu. Bu işdə hansı təzyiqlərlə rastlaşdınız, hansı çətinliklər oldu?

- Həmin vaxt AŞPA katibliyinə iki qətnamə layihəsi təklif etmişdim: "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması", "Azərbaycanın sərhədyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi". Adlar fərqli olsa da, hər iki təklifdə mahiyyət və məqsəd eyni idi – Ermənistan dövlətinin işğalçı siyasətini ifşa etmək, Azərbaycan torpaqlarının işğaldan

azad edilməsi üçün AŞPA kimi nüfuzlu beynəlxalq qurumun qətnaməsinə nail olmaq. Hər iki sənədlə bağlı iki ildən artıq mübarizə aparmalı olduq. Çünki bütün beynəlxalq qurumlarda olduğu kimi AŞPA-da da Azərbaycanın düşmənləri çoxdur, erməni lobbisi kifayət qədər gücə malikdir. Bu səbəbdən də 4 dəfə AŞPA Sədarət Komitəsində, Büroda və Komitələrdə baxıldıqdan sonra nəhayət, məruzəçilər təyin edildi. Lakin Ermənistan tərəfinin çoxşaxəli fəaliyyəti, siyasətçilərlə yanaşı, kilsənin, din xadimlərinin, incəsənət nümayəndələrinin səfərbər olması məruzələrdən birinin – Britaniyalı parlamentari Robert Volterin "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" məruzəsinin qarşısını cəmi 4 səs fərqi ilə ala bildi. 2085 saylı qətnamə qəbul edildikdən sonra isə onun mahiyyəti düşmənlərimizi şoka saldı. Onlar bu mübarizədə uduzduqlarını hələ də həzm edə bilmir, özlərinə xas təxribatlarını indi də davam etdirirlər.

- Bilirik ki, işğalçı tərəf bu məğlubiyyətin təşvişi səbəbindən genişmiqyaslı kampaniyaya başlayıb. Bu kampaniya ilə onlar nəyəsə nail ola bilirlərmi?

- Ermənistan tərəfi Azərbaycan torpaqlarını işğal etmələrini məhz "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi altında gizlədir. Bununla onlar dünya ictimaiyyətində çaşqınlıq yaradır, özlərini işğalçı deyil, münaqişə tərəfi kimi təqdim edirlər. Bu səbəbdən onlar "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" adlı bir sənədin qəbul edilməsini 25 illik strategiyanın məhvi kimi qiymətləndirirdilər və bunun üçün onlar dövlət sə-

viyyəsində iş apararaq, ATƏT-in Minsk Qrupunu da ələ almaqla, cəmi 4 səs fərqi ilə bu məruzənin qarşısını ala bildilər. Lakin 2085 saylı qətnamənin qəbul edilməsi də Ermənistanın yaratdığı çoxillik obrazı ifşa etdi və bunu anlayan işğalçı tərəf genişmiqyaslı kampaniya aparır. Bir misal deyim: 2085 saylı qətnamə Bosniyalı parlamentari Miliça Markoviçin məruzəsi əsasında qəbul edilmişdi. Erməni lobbisi və anti-Azərbaycan qüvvələr bu gün də bu xanıma təzyiq edirlər, ona böhtan və iftiralar atırlar. Onlar guya Miliça Markoviçin bu məruzəni Azərbaycanın sifarişi ilə hazırladığını bəyan etməklə 2085 saylı qətnaməni zərərsizləşdirmək istəyirlər. Erməni lobbisi bu məqsədlə Bosniyanın və Herseqovinanın AŞPA-dakı səfirini, bu ölkənin AŞPA-dakı nümayəndə heyətinin rəhbərini də bu işə cəlb edib. Qurulmuş ssenari üzrə, Bosniyanın AŞPA-dakı səfiri Bosniya parlamentinə anonim məktub ünvanlayır və Miliça Markoviçin Azərbaycan tərəfinin sifarişini yerinə yetirdiyini bildirir. İkinci mərhələdə Bosniyanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri bu məktubu ictimailəşdirir. Hazırda Miliça Markoviç məsələ ilə bağlı hər iki şəxsi məhkəməyə verib. Biz Ermənistanın, erməni lobbisinin bu kimi təxribatlarına artıq alışmışıq və hesab edirəm ki, onlar bununla heç nəyə nail ola bilməyəcək. Biz isə bu kimi təhdidlərdən çəkinməyərək öz haqq işimizi davam etdirir və etdirəcəyik.

- 2085 saylı qətnamənin Azərbaycan torpaqlarının işğaldan azad edilməsi üçün hansı təsiri ola bilər və qətnamədə qoyulan tələblərin icrası üçün nə etməli?

- Hesab edirəm ki, biz döyüş meydanlarından öncə informasiya meydanında Ermənistanı məğlub etməliyik. 2085 saylı qətnamə ilk növbədə bu müharibədə bizim əsas silahımız, daim istifadə edə biləcəyimiz istinaddır. Biz hər zaman bu sənədə istinad etməklə Ermənistan təbliğat maşınını susdura, Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarını özününküləşdirməsinin qarşısı almağa nail ola bilərik.

Qətnaməni qəbul etmiş AŞPA torpaqlarımızı Ermənistanın işğalından azad edəcək gücə malik bir qurum deyil, lakin biz mütəmadi olaraq bu barədə məsələ qaldırmalı, Ermənistana qarşı sansksiyaların tətbiq edilməsinə nail olmalıyıq. Bununla yanaşı bütün mövcud beynəlxalq platformalarda da iş aparılmalı, Ermənistana qarşı beynəlxalq təzyiqlərin olunmasını tələb etməliyik.

- Sizcə Azərbaycan vətəndaş cəmiyyəti, Azərbaycan QHT-ləri, Azərbaycan mediası Ermənistan təbliğat maşınına qarşı mübarizədə yetərincə aktivdirmi?

- Vətəndaşlığından, siyasi mənsubiyyətindən, sosial statusundan asılı olmayaraq hər bir erməni Azərbaycan torpaqlarının işğalının ört-basdır edilməsini özünə borc hesab edir və hər zaman bu məsələdə tərəddüdsüz səfərbər olurlar. Lakin çox-çox təəssüf hissi ilə deyərdim ki, bizlər bu işdə kifayət qədər fəal deyilik.

Hazırda müzakirə etdiyimiz petisiya Azərbaycanın mühüm bir qələbəsi oldu. Ağ Ev Administrasiyasının mühüm bir platformasında Azərbaycan həqiqətlərinin müzakirə edilməsi, ABŞ-ın Azərbaycan xalqının çağırışına müsbət

reaksiya verməsi və nəhayət elə ABŞ-ın tədqiqat mərkəzinin bu petisiyanı yenidən gündəmə gətirməsi olduqca vacib məsələlərdir. Petisiyanın dünyada ikinci olması ilə bağlı hesabat 1 həftədir, dərc edilib, bu barədə ölkəmizdə hər hansı bir müzakirə, çıxış varmı!? Elə internet mediada kiçik monitorinq aparsaq, bu suala asanlıqla cavab tapa bilərik.

Torpaqlarımızın erməni tapdağı altındakı iniltisi hər bir Azərbaycanlının dərdidir və kimliyindən asılı olmayaraq, hər bir Azərbaycanlı erməni təbliğat maşınına qarşı mübarizə aparmalı, torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində zəruri olan bütün cəbhələrdə öz töhfəsini verməlidir.

Elxan Süleymanov: "Biz döyüş meydanlarından öncə informasiya meydanında Ermənistanı məğlub etməliyik"

10.02.2017

1905.az

Fuad Babayev, Gündüz Nəsibov

– Elxan müəllim, AVCİYA yarandığı ilk gündən Ermənistanın Azərbaycana təcavüzünü, onun aradan qaldırılması yollarını ön plana çəkib. Bu illər ərzində AVCİYA-nın həyata keçirdiyi hansı mühüm layihələri qeyd edə bilərsiniz?

– Ermənistanın Azərbaycana təcavüzü mahiyyət etibarilə 1828-ci ildə ermənilərin bizim ərazilərimizə köçürülməsindən sonra həyata keçirilən soyqırım və deportasiya siyasətinin tərkib hissəsidir. Bu təcavüz və onun nəticəsində ölkəmizin üzləşdiyi acınacaqlı vəziyyətin nəticələrinin geniş dünya ictimaiyyətinə çatdırılması əslində hər bir təşkilatın və vətəndaşımızın ümdə vəzifələrindən biri olmalıdır. AVCİYA-nın üzvü olan təşkilatların adına sadəcə olaraq diqqət yetirsəniz, bu məsələyə bizim necə həssas yanaşdığımızın şahidi ola bilərsiniz. Burada bu problemlə həm birbaşa, həm də dolayısı ilə əlaqədar olan bir sıra qurumlar – qaçqın və məcburi köçkünlərin hüquqlarını müdafiə edən, insan hüquqları ilə bağlı, azadlıqdan məhrumetmə yerlərinin monitorinqini həyata keçirən və s. təşkilatlar təmsil olunub. AVCİYA-nın xəttilə bu ümummilli problemlə əlaqədar çoxsaylı konfrans və simpoziumlar keçirilib, xarici dillərdə müxtəlif kitablar nəşr etdirib. 2010-cu

ildə ingilis dilində "Tarixi faktlar erməni miflərinə qarşı", 2012-ci ildə isə daha bir məşum hadisə haqqında Azərbaycan və ingilis dillərində "Qaradağlı faciəsi" adlı kitab çap etdirilib. 2014-cü ildə çap etdirdiyimiz "Azərbaycanın erməni vətəndaşları: təhlükəsizlik təmin olunur!" adlı kitabda Azərbaycanın işğaldan kənar bölgələrində yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının həyat hekayələri öz əksini tapıb. 2012-ci ildə mənim və iqtisad elmləri doktoru Vurğun Süleymanovun müəllifliyimizlə "Ermənistanın Azərbaycana təcavüzü və işğalın ağır nəticələri" kitabı nəşr edildi. Kitabda təcavüz nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərər ilk dəfə olaraq kompleks araşdırıldı, ölkəmizə dəyən zərərin 431 milyard dollar olduğu müəyyənləşdirildi. Qeyd edim ki, bu kitab növbəti ildə Vaşinqtonda ingilis, Parisdə fransız, Kiyevdə Ukrayna, Sankt-Peterburqda rus dilində, Bakıda isə həm də ərəb dilində çap olundu.

2014-cü ildə mənim dəstəyim və AVCİYA-ya daxil olan "İnsan Hüquqları XXI əsr-Azərbaycan" Fondunun təşkilatçılığı ilə Sabunçu rayonunun Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş şəxslərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə abidə ucaldılıb.

Eyni zamanda mənim təşəbbüsüm və təşkilatçılığımla 2012-ci ildə İtaliya Parlamentində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyən konfrans, Finlandiya parlamentində Dağlıq Qarabağ mövzusunda, Belçika Federal Parlamentinin Nümayəndələr

Palatasında "İşğal edilmiş ərazilər, unudulmuş ərazilər (Dağlıq Qaraba münaqişəsi – hüquq və humanitar aspektlər)" mövzusunda dinləmələr, Andorrada "Azərbaycan XXI əsrdə. Azərbaycan və Andorra arasında etibarın yaradılması" mövzusunda, İspaniya Senatında "Azərbaycan bu gün Avropadadır. Azərbaycanla İspaniya arasında etimadın tənzimlənməsi" mövzusunda konfranslar keçirilib. Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun, Azərbaycan Respublikası İqtisadiyyat Nazirinin müavini Sevinc Həsənovanın, millət vəkilləri Qüdrət Həsənquliyev, Fazil Mustafa, Zahid Oruc, Fərəc Quliyev və başqalarının iştirak etdikləri həmin tədbirlərdə qeyd olunan ölkələrin parlamenterilərinə Ermənistanın Azərbaycana təcavüzü və onun nəticələri ilə bağlı dolğun məlumat verilib, müvafiq sənədlər qəbul olunub.

– AVCİYA Xocalı soyqırımını daim diqqət mərkəzində saxlayan qeyri-hökumət təşkilatlarındandır.

- Mən bu barədə danışmazdan öncə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın bu soyqırımın dünyada tanıdılması ilə bağlı misilsiz fəaliyyətlərini xüsusi qeyd etmək istəyirəm.

AVCİYA da Ermənistanın Azərbaycana təcavüzünün ən dramatik hadisəsi – Xocalı soyqırımı ilə bağlı müxtəlif illərdə böyük əks-səda doğurmuş tədbirlər həyata keçirib. 2006-cı ili Qarabağ ili elan edən AVCİYA Xocalı faciəsi şa-

hidlərinin ifadələrini, faktları, hadisənin dünya mətbuatındakı əks-sədası ilə bağlı materialları toplayaraq, Azərbaycan, ingilis və rus dillərində "Xocalı soyqırımı (sənədlər, faktlar və xarici mətbuatda)" adlı kitabda çap etdirib. 2007-ci ildə "Xocalı soyqırımı: milyon imza, bir tələb" şüarı altında miqyaslı aksiya çərçivəsində Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması tələbilə bir milyon Azərbaycan vətəndaşının imzası toplandı. İmzalar kitab halında çap etdirilərək, qabaqcıl dünya ölkələrinin parlamentlərinə və kitabxanalarına, universitetlərinə göndərildi, BMT, ATƏT, AŞPA, Beynəlxalq Cinayət Məhkəməsinə təqdim olundu. Xocalı hadisələri zamanı öldürülənlərin foto-şəkilləri bəzən ermənilər tərəfindən saxtalaşdırılaraq, erməni qurbanları kimi qələmə verilir. Növbəti erməni saxtakarlığının qarşısını almaq üçün AVCİYA 2010-cu ildə ingilis dilində "Bir faciə haqqında iki foto-söhbət" kitabını çap etdirdi. Kitaba Xocalı faciəsi ilə bağlı ən geniş yayılmış foto-şəkillərin müəllifi olan iki fotoqrafla söhbət və fotolar daxil edilib. Fotoqraflar fotoların lentə alındığı gün haqqında və həmin hadisələr barəsində öz təəssüratlarını söyləyirlər. Və hadisələrə heç bir qiymət vermədən mühakimə yürütmək hüququnu oxucunun öhdəsinə buraxırlar. AVCİYA-nın təşkilatçılığı ilə Xocalı faciəsinin 20-ci ildönümü ilə əlaqədar Bakı şəhərində 24 fevral 2012-ci il tarixində "İnsanlığa qarşı cinayətlər: Xocalı soyqırımı" adlı beynəlxalq konfrans keçirilib.

– AVCİYA-nın Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı layihələrindən danışanda ön plana çıxan əsas layihələrdən biri də

"Sərsəng SOS"dur. Bu layihə ilə bağlı həyata keçirilən tədbirlər həqiqətən Ermənistan dövlətini lərzəyə gətirdi.

– 25 ildən artıq işğal altında qalmış Sərsəng su anbarı 6 cəbhəyanı rayonda məskunlaşmış 400 min mülki əhali üçün real təhlükə mənbəyinə çevrilib. Ermənistan hakimiyyətinin bu su anbarının yüksəklikdə yerləşməsindən istifadə edərək istənilən an planlı və düşünülmüş şəkildə cəbhəyanı zonada azərbaycanlı əhalini kütləvi şəkildə məhv etmək məqsədilə silah kimi istifadə edəcəyi şübhə doğurmur. "Sərsəng SOS" layihəsi vasitəsilə biz diqqəti Azərbaycanın işğal edilməmiş ətraf rayonlarının əhalisi üçün həyati əhəmiyyətə malik Sərsəng su anbarının işğal nəticəsində baxımsızlıqdan təhlükəli vəziyyətə düşməsinə və hər an dağılma ehtimalına yönəltmək istəyirik. Bu məqsədlə "Sərsəng harayı" mövzusunda Tərtər şəhərində beynəlxalq konfrans, Yevlax şəhərində isə regional toplantı, jurnalistlər və gənc rəssamlar arasında "Sərsəng harayı" mövzusunda müsabiqə keçirildi. Sərsənglə bağlı hər hansı bir fəlakət baş verəcəyi təqdirdə məhv olmaq təhlükəsi ilə üzləşə biləcək tarix və mədəniyyət abidələri, məhvə məhkum ətraf mühit, humanitar böhran təhdidi ilə bağlı kitabçalar nəşr etdirdik. Bundan sonra biz problemin həllini təmin etmək məqsədilə beynəlxalq təşkilatlarda fəliyyətə başladıq. Bakıda keçirilən Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun Parlament Şəbəkəsinin İllik Konfransı və Vyanada keçirilmiş "Azərbaycanın geosiyasəti və Avropanın enerji təhlükəsizliyi" beynəlxalq konfransının tribunalarından Sərsəng su anbarı ilə bağlı məsələnin cid-

diliyi səsləndirildi. Nəhayət, 2014-cü ilin mayında bütün təzyiqlərə rəğmən, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Sosial Məsələlər, Səhiyyə və Davamlı İnkişaf Komitəsinin Nikosiyadakı iclasında mənim təqdim etdiyim "Azərbaycanın cəbhəyanı rayonlarında mülki əhalinin qəsdən sudan məhrum edilməsinə dair" qətnamə layihəsi əsasında məruzəçi təyin olundu. Avropa Şurasının Sərsəng bəndi ilə bağlı məruzəçisi xanım Milica Markoviç və onu müşayiət edən şəxslərlə görüşdüm. Görüşdə Sərsəng bəndinin yaratdığı sosial fəlakət, ekoloji böhran Yevlax, Bərdə, Ağdam, Tərtər, Goranboy və Ağcabədi rayonlarının su ilə təmnatında mövcud olan acınacaqlı vəziyyət və s. məsələlər ətraflı müzakirə olundu. Nəhayət, bütün səylərimizin nəticəsi olaraq AŞPA-nın 2085 saylı qətnaməsi qəbul edildi. Bu yeni qətnamə sayəsində beynəlxalq ictimaiyyət və xüsusilə Avropa ictimaiyyəti başa düşdü ki, təkcə Dağlıq Qarabağ deyil, həm də Azərbaycanın digər yeddi rayonu Ermənistanın əsassız və qeyri-qanuni silahlı işğalından əziyyət çəkir.

- AŞPA-nın qəbul etdiyi 2085 saylı qətnamə Azərbaycan diplomatiyasının 2016-cı ildəki ən böyük uğurlarından biri oldu. İki il ərzində uğrunda mübarizə apardığınız qətnamə qəbul edildi və ilk dəfə olaraq nüfuzlu Avropa təşkilatı Ermənistanı təcavüzkar kimi tanıdı...

- Bütün beynəlxalq qurumlarda olduğu kimi AŞPA-da da Azərbaycanın düşmənləri çoxdur, erməni lobbisi kifayət qədər gücə malikdir. Biz bu sənədin qəbul edilməsi uğrunda iki ildən çox mübarizə apardıq. Bu qətnamə həqiqətən

də, fərqli xarakter daşıyır. Qeyd etdiyiniz kimi ilk dəfə olaraq Avropa təşkilatının sənədində bütün məsuliyyət təcavüzkar kimi, açıq-aydın Ermənistan hakimiyyətinin üzərinə qoyulur və Azərbaycan vətəndaşlarını Ermənistan təcavüzünün qurbanları kimi təqdim edilir. Qətnamədə bildirilir ki, Ermənistan hakimiyyəti Sərsəng hövzəsinin suyundan, bəndin və irriqasiya kanallarının bərbad vəziyyətindən ekoloji təcavüz kimi sui-istifadə edir və bu, Aşağı Qarabağ vadisində yaşayan Azərbaycan vətəndaşları üçün ekoloji fəlakət yaratmaq məqsədi daşıyan zorakı hərəkətdir. Qətnamədə Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırmaq tələb edilir.

Bütün əvvəlki qətnamələrdən fərqli olaraq, bu qətnamədə təcavüzün birgə məsuliyyət olduğu qeyd edilmir. Bu gün bu təcavüzə görə açıq-aydın məsuliyyət daşıyan yeganə tərəf Ermənistan hakimiyyətidir və Ermənistana bu tələbləri yerinə yetirmək çağırışı edilir. Eyni zamanda, şübhəsiz, qəbul edilmiş 2085 (2016) saylı bu qətnamənin ən mühüm hissəsi odur ki, AŞPA "Ermənistanı açıq-aydın Azərbaycanın Dağlıq Qarabağ və digər qonşu ərazilərinin işğalçısı" kimi təqdim edir və AŞPA "Ermənistan silahlı qüvvələrinin bölgədən dərhal geri çəkilməsi üçün rəsmi tələb" qəbul etdi.

Bundan əlavə, Avropa Şurası Parlament Assambleyası qəbul edilmiş mətnə Azərbaycanın maraqlarının əleyhinə olan heç bir hissə daxil etməyib. Bu məsələdə klassik is-

tinad olan əvvəlki qətnamələrdən, o cümlədən 2005-ci il qətnaməsindən fərqli olaraq, yeni qəbul edilmiş qətnamədə artıq "nəzarətdə saxlayan separatçı qüvvələr" sözləri yoxdur.

2016-cı ildə bu qətnamənin qəbul edilməsi ilə, nəhayət, AŞPA, həqiqətən də, birmənalı şəkildə bəyan edir ki, "Ermənistan Azərbaycanın Dağlıq Qarabağ və digər qonşu ərazilərini işğal altında saxlayır."

Qətnamə layihəsinin 4-cü paraqrafında öz əksini tapan bu mövqe müzakirələrdə də erməniləri hiddətləndirirdi, çünki onlar bu paraqrafın dəhşətli miqyasını və gələcək mövqeləri üçün siyasi nəticəsini çox yaxşı anlayırdılar. 2085 (2016) saylı qətnamə artıq Avropa Şurası Parlament Assambleyasının yekun, dəyişməz və rəsmi sənədidir və əvvəlki 1416 (2005) saylı qətnamə ilə birlikdə nəzərdən keçirilə bilər. Bu yeni 2016-cı il qətnaməsi əvvəlki 2005-ci il qətnaməsi ilə bərabər, istənilən müzakirədə, istənilən formatda yeni hüquqi istinad kimi, Azərbaycanın istənilən rəsmisi və ya Azərbaycanın dostları üçün hüquqi dəstəkdir. Beləliklə, bu qətnamə yalnız su ilə bağlı deyil. AŞPA bu qətnaməni qəbul etməklə Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi və indiyədək işğal altında saxlanmasını vurğulayır, Ermənistanın silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsini tələb edir, Ermənistanın sudan silah kimi istifadə etməsini "ekoloji təcavüz" hesab edir, Sərsəng su anbarının səbəb olacağı humanitar fəlakətin, Azərbaycanın cəbhəyanı bölgəsindəki 6 rayonun 400 mindən çox saki-

ninin bu fəlakətin qurbanına çevrilməsinin məsuliyyətini birmənalı şəkildə Ermənistan dövlətinin üzərinə qoyur, bundan sonra Ermənistanın danışıqlarda Dağlıq Qarabağı tərəf kimi təqdim etməsini mümkünsüz edir. Düşünürəm ki, 2085 (2016) saylı qətnamə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən Azərbaycan xarici siyasətinin növbəti uğurudur.

– Bəs 2085 saylı qətnamədə qeyd olunmuş müddəaların təsirli vasitəyə çevrilməsi üçün Azərbaycan nə etməlidir?

– Hesab edirəm ki, biz döyüş meydanlarından öncə informasiya meydanında Ermənistanı məğlub etməliyik. 2085 saylı qətnamə ilk növbədə bu müharibədə bizim əsas silahımız, daim istifadə edə biləcəyimiz istinaddır. Biz hər zaman bu sənədə istinad etməklə Ermənistan təbliğat maşınını susdura, Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarını özününküləşdirməsinin qarşısını almağa nail ola bilərik. Qətnaməni qəbul etmiş AŞPA torpaqlarımızı Ermənistanın işğalından azad edəcək gücə malik bir qurum deyil, lakin biz mütəmadi olaraq bu barədə məsələ qaldırmalı, Ermənistana qarşı sansksiyaların tətbiq edilməsinə nail olmalıyıq. Bununla yanaşı, bütün mövcud beynəlxalq platformalarda da iş aparılmalı, Ermənistana qarşı beynəlxalq təzyiqlərin olunmasını tələb etməliyik. Yeri gəlmişkən, ötən ilin dekabrında Bakıda keçirilən "2085 (2016) saylı AŞPA qətnaməsi: praktikadan nəzəriyyəyə" mövzusunda elmi-nəzəri konfransda bu məsələlər ətraflı müzakirə olundu.

– Qətnamənin qəbul edilməsi qeyd etdiyiniz kimi, həqiqətən

də Azərbaycanın böyük uğurudur. Yəqin ki, ötən il AVCİYA-nın ABŞ Prezident Administrasiyasına ünvanlanan və bütün ölkəni əhatə edən "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" petisiyasında da məqsəd dünyanın diqqətini 2085 (2016) saylı qətnamənin müddəalarına cəlb etməkdən ibarət idi?

Biz Azərbaycanın haqq səsinin bütün dünyaya çatdırılmasını istədik. Ağ Evin "Biz Xalqıq" platforması bunun üçün tam uyğun bir meydan idi. Bu səbəbdən "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" petisiyası ilə ABŞ Prezidenti Administrasiyasına müraciət etdik. Məqsədimiz həm Ermənistanın işğalçı siyasəti ilə bağlı bütün dünyanı məlumatlandırmaq, həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün ABŞ kimi nəhəng bir güc mərkəzinin dəstəyini almaq idi. Layihəyə aprel ayının 6-da AVCİYA prezidenti kimi mənim imzamla start verildi, Ağ ev Administrasiyasının internet resursunda Azərbaycan xalqının Obama Administrasiyasına müraciəti yerləşdirildi. Müraciətdə AŞPA-nın 2085 (2016) saylı qətnaməsində vurğulanan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırki durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə çatdırılır, Administrasiyaya AŞPA-nın 2085 (2016) saylı qətnaməsini

dəstəkləməsi, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım edilməsi üçün çağırış edilirdi. Platformanın qaydalarına görə, 1 ay ərzində müraciəti 100 min nəfərin imzalaması lazım idi. Lakin AVCİYA-nın apardığı genişmiqyaslı kampaniyanın nəticəsi olaraq 331,914 imza toplandı.

Birincisi, petisiyaya bütün Azərbaycan xalqı, bütün türk dünyası qoşuldu və zəruri olan imza sayından bir neçə dəfə artıq imza toplandı. İkincisi, Ağ Evin müraciətimizə cavabı Azərbaycan üçün böyük bir siyasi dəstək idi. ABŞ bu cavabında Dağlıq Qarabağ ətrafı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasına və Dağlıq Qarabağın statusunun müəyyən olunmasına dair təcili danışıqlar aparmağa çağırış etdi. Ağ Evin cavabında deyilirdi: "Biz tərəfləri münaqişənin hərtərəfli nizamlanmasına, o cümlədən Dağlıq Qarabağ ətrafı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasına və Dağlıq Qarabağın statusunun müəyyən olunmasına dair təcili danışıqlar aparmağa və təmkinli olmağa çağırırıq". Petisiya Ağ Evin "Biz Xalqıq" platformasının çoxmilyonlu izləyicisinin diqqətini bir daha bu məsələyə yönəltdi, Ermənistanın işğalçı siyasəti yenidən aktuallaşdırıldı. Bütövlükdə bu petisiya Azərbaycan xalqının informasiya müharibəsində çox mühüm intellektual qələbəsi idi.

– Yeri gəlmişkən, Amerika Tədqiqat Mərkəzi AVCİYA-nın bu petisiyasını Ağ Evin "Biz xalqıq" platformasında toplanan səslərin sayına görə ikinci ən məşhur petisiya elan etdi...

- Doğrudan da, Amerikanın Pew Tədqiqat Mərkəzi de-

kabrın 28-də dərc etdiyi hesabatda Ağ Ev Administrasiyasının rəsmi saytında yerləşdirilmiş "Biz Xalqıq" platformasının 2011-2016-cı illər ərzində olan fəaliyyətini və bu platforma vasitəsilə Ağ Ev Administrasiyasına ünvanlanan müraciətlər və bu müraciətlərin cavablandırılması vəziyyətini araşdırıb.

Öncə vurğulamaq istərdim ki, "Biz Xalqıq" platforması 2011-ci ildə Barak Obama Administrasiyası tərəfindən yaradılmış və kifayət qədər ciddi bir platformadır. Həm bu saytın bütün dünyada çoxmilyonlu izləyiciləri var, həm də sayta edilən müraciətlərə Ağ Evin rəsmi reaksiyasını almaq mümkündür. Bu platforma ilə bağlı araşdırma aparmış Mərkəz özü də dünya səviyyəsində tanınmış bir sosioloji araşdırma qurumudur. Bu Mərkəz Amerikanı və dünyanı formalaşdıran məsələləri araşdırır, ABŞ siyasəti və strategiyasını, ABŞ-ın sosial və demoqrafik istiqamətlərini öyrənir, bu kimi sahələrdə peşəkar təhlillər aparır. Pew Tədqiqat Mərkəzinin bu hesabatında bildirilir ki, 5 il ərzində Ağ Ev Administrasiyasına ümumilikdə 4799 petisiya ünvanlanıb və bunlardan cəmi 227-nə Administrasiya tərəfindən cavab verilib, "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya isə Ağ Evə müraciət platforması tarixində ikinci ən məşhur petisiyadır.

– 2010-cu ildən Siz Şamaxı rayonunu Azərbaycan Respublikasının Milli Məclisində təmsil edirsiniz. Məlumdur ki, 1918-ci il mart-aprel aylarında ermənilərin Azərbaycana qarşı törətdikləri soyqırımın ən dəhşətli hadisələri Şamaxıda cərəyan edib.

– Həqiqətən də Şamaxıda ermənilərin törətdikləri qır-

ğın həm qurbanlarının sayına, həm də əhatə dairəsinə görə fərqlənir. O zaman qəza mərkəzi olan Şamaxı şəhərini ermənilər fürsətdən istifadə edərək ələ keçirmək istəyirdilər. 1918-ci ilin mart ayında başda Stepan Şaumyanın əlaltısı olan Şamaxı ermənisi Lalayan olmaqla Bakı Sovetinin erməni-daşnaklardan ibarət cəllad dəstələri dinc, günahsız şamaxılılara, sözün həqiqi mənasında, divan tutdular. Şamaxı soyqırımı bəşəriyyət tarixinin ən qatı cinayətlərindən biridir. Ona görə də bu soyqırım haqqında həqiqətlərin çatdırılması bizim əsas prioritetlərimizdən biridir. AVCİYA 2011-ci ilin martından başlayaraq "Azərbaycanda erməni terrorunun izləri – Şamaxı soyqırımı (1918-ci il)" adlı layihə həyata keçirməyə başlayıb. Layihə çərçivəsində 2011-ci ilin martında Şamaxıda yüksək səviyyədə beynəlxalq konfrans keçirilib, həqiqətləri çatdırmaq üçün Azərbaycan və ingilis dillərində "Şamaxı soyqırımı" adlı kitab nəşr edilərək müxtəlif ölkələrə yayılıb. 2012-ci ilin martında Bakıda "İnsanlıq əleyhinə cinayətlər: Şamaxı soyqırımı" mövzusunda eilmi-praktik konfrans keçirilib. Assosiasiya erməni cinayətlərinin dünyaya çatdırılması sahəsindəki məqsədyönlü işini davam etdirərək, 2012-ci ilin oktyabr ayında "Şamaxı qırmızı terrorun hədəfində (XX əsrin 30-cu illər repressiyaları)" kitabını nəşr etdirib. Ötən il nəşr etdirdiyimiz "Şamaxı Ensiklopediyası"nda da ermənilərin və onların əlaltılarının Şamaxıda törətdikləri soyqırım və onun nəticələrindən ətraflı bəhs olunur.

– Elxan müəllim, qarşıdan Xocalı soyqırımının 25-ci ildönümü gəlir. Yəqin ki, AVCİYA-nın da bu tarixlə bağlı planları var.

– Əlbəttə. Bu hadisə ilə bağlı artıq tədbirlər planı hazırlanıb. Amma bu tədbirlər içərisində ilk növbədə mənim təşəbbüsümlə "1905.az kitabı" seriyasında nəşr olunacaq "Xocalı yaddaşı" kitabını qeyd etmək istəyirəm. Şərti olaraq bir neçə hissəyə bölünən kitabda Xocalı faciəsinədək olan dövr, bilavasitə faciə, faciənin qiymətləndirilməsi ilə bağlı materiallar, orijinal müsahibələr daxil edilməsi nəzərdə tutulub.

Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu, "1905.az kitabı" seriyasından artıq ikinci kitabdır. Daha öncə bu seriyadan tanınmış tarixçi Aqil Şahmuradovun "Ermənilər Cənubi Qafqazda" (məskunlaşma tarixindən) kitabı çap edilib. Kitabda ermənilərin mənşəyi, miqrasiya prosesləri nəticəsində Balkanlardan Anadolunun şərqinə gəlmələri, Rusiya imperiyasının yardımı ilə Cənubi Qafqaza köçürülmələri, yerli xalqların mədəniyyətini və tarixini mənimsəmələri erməni və xarici mənbələrlə sübuta yetirilir.

Əminəm ki, "Xocalı yaddaşı" kitabı da Ermənistanla informasiya müharibəsində mühüm "silah"larımızdan olacaq.

ÇIXIŞLAR

Millət vəkili Elxan Süleymanovun "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi-Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)" kitabının təqdimat mərasimindəki çıxışından

30.06.2017

Əziz göyçaylılar!

Dünyada insanın üç müqəddəs borcu var: Ana borcu, vətən borcu, torpaq borcu. Biz hətta vətənimizə, torpağımıza öz sevgimizi bildirmək üçün ona Ana Torpaq, Ana Vətən deyirik. Bax, bu gün təqdimatına toplaşdığınız kitabın ərsəyə gəlməsi də göyçaylıların yüz il unudulmuş qəhrəmanlıqlarını gündəmə gətirmək, bu qəhrəmanlığı tanıtdırmaq, unudulmuş və həlak olmuş göyçaylıların ruhlarını şad etmək üçündür. Mən öz Vətən və torpaq borcumu yerinə yetirmək üçün bu kitabın işıq üzü görməsinə dəstək vermişəm...

Biz tariximizi bilməliyik. Tariximizi bilmədən Azərbaycanı yaşada bilmərik. Bizim balalarımız, nəvələrimiz, uşaqlarımız Azərbaycan tarixini bilməlidir. Çünkü o kökdür. Bizdə atalar sözü var, ot kökü üstə bitər. Nəsillərimiz bilməlidir ki, kim kimdir. Bax, bu kitaba da bunun üçün imza atılıb. Çox utandırıcıdır ki, bu kitab doxsan doqquz ildən sonra yazılıb. Bu qəhrəmanlıq salnaməsi doxsan doqquz ildən sonra dilə gəlib və mən sizə əminliklə söz verirəm ki, yüz illiyində biz bu kitabı araşdırmalarla daha mükəmməl bir əsərə çevirəcəyik.

Əziz göyçaylılar! Mən nənəmin yanında böyümüşəm, Hacalı kəndində. Hacı Rəhim Əfəndinin nəvəsiyəm. Hacı Rəhim Əfəndi Azərbaycanın fəxri olan bir din xadimi və maarifpərvər bir şəxs olub. Otuz yaşına qədər Göyçayda üç məktəb tikdirib - Alpout, Bığır və Qaraman kəndlərində. Qaraman kəndində möhtəşəm məscid tikdirib. Fəxr edirəm ki, mən belə böyük bir insanın nəvəsiyəm və onun əməllərinə xidmət edirəm. Biz hazırda babamın adını daşıyan Qaraman kənd tam orta məktəbinin yeni binasını inşa edirik. Yeri gəlmişkən, deyim ki, mən Şamaxıda və Qaramanda eyni zamanda məktəb binası tikdirirəm.

İndi ermənilərin fəaliyyətindən və bütün dünyada müsəlmanlara qarşı divan tutulması strategiyasından danışmaq istərdim. Biz elə hesab etməyək ki, 1918-ci ilin iyul ayında soyqırım qurtarıb. Yaxud, həmin ilin sentyabrında Bakı qələbəsindən sonra qurtarıb, xeyr, ermənilərin törətdikləri soyqırımı hələ də davam edir. Bu soyqırımından, erməni işğalından xilas olmaq üçün hər bir azərbaycanlı çalışmalıdır. Birinci növbədə biz ideoloji müharibəni udmalıyıq. Ermənilərin ideoloji maşını çox sürətlidir.

Ona görə də tarixi mükəmməl bilməliyik. Ermənilər Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və yeddi rayonunu işğal edib. Ancaq mənim əzizlərim, işğal bu yeddi rayonla qurtarmır. Ermənilər eyni zamanda Azərbaycanın daha altı rayonuna təcavüz edib. Bu, ekoloji təcavüzdür. Yevlax, Bərdə, Ağdam, Tərtər, Goranboy və Ağca-

bədi rayonları Sərsəng su anbarının ermənilər tərəfindən işğalı nəticəsində böyük ekoloji təcavüzə məruz qalıblar. Bu sözün əsl mənasında çox böyük ekoloji və siyasi böhrandır.

Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə inşa olunan Məlcək kənd ümumi orta məktəbinin binasının açılışında çıxışından

15.09.2017

Əziz şamaxılılar!

Əziz Məlcək camaatı, istəkli balalar, hörmətli müəllim kollektivi, hörmətli rayon icra hakimiyyətinin nümayəndələri, yerli hakimiyyət nümayəndələri!

Bu gün təkcə məlcəklilər üçün deyil, mən deyərdim ki, bütün Şamaxı üçün, bizim hamımız üçün çox böyük bir gündür. Ona görə böyük gündür ki, sizin böyük ədiblərinizXaqani, Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir həmişə təhsilin önəmini vurğulayıblar. Şamaxı, bütün Azərbaycan ancaq müasir biliklərə, texniki biliklərə, təhsilə güvənib, irəli gedə bilər. Bu mənada sizin kəndinizdə bütün tələblərə, təhsil binalarının standartlarına uyğun, Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş bir layihə gerçəkləşib.

Necə olub ki, mən məktəb binasının tikintisi üçün məhz Məlcək kəndini seçmişəm? Mən istərdim bilməyənlər bunun səbəbini bilsinlər. Günlərin bir günü köməkçim mənə bir məktub gətirdi - Məlcək camaatının, təhsil şöbəsinin müdiri hörmətli Eyvaz müəllimin və məktəb direktorunun müraciətlərini. Bu müraciətlərin hər üçündə Məlcək kənd məktəbinin bərbad vəziyyətdə olduğu bildirilirdi. Valideyinlərdən aldığımız fər-

di məktublarda da göstərilirdi ki, bura ilan məskəninə çevrilib. Buna görə də mən vicdanımın səsinə qulaq asaraq, balaları ilan vurmasın, ölkəmiz üçün ayıb olmasın deyə və Şamaxının tərəqqisi naminə bu məktəb binasını tikdirməyə qərar verdim. Bu qərarımı da yanvar ayında Mədəniyyət Sarayında tədbir keçirərkən rayon ictimaiyyəti qarşısında elan etdim.

Əziz şamaxılılar, əzizlərim, bütün regionlarda görülən işlər cənab prezident tərəfindən edilir. Bu işlər prezidentin sayəsində baş tutur və onun sərəncamı ilə görülür.

Dəmirçi məktəbi hospital binası olub, bərbad vəziyyətdədir, orada oxumaq olmaz. Mən həmin məktəbin damını, döşəməsini təmir etdirmişəm. Amma Dəmirçi kəndindən keçən və Azərbaycanın dilbər guşəsi və tarixi məkanı olan Lahıca gedən yolu Azərbaycanın gələcək inkişafı, turizm bazasının yaradılması üçün müdrük prezidentimizin müvafiq qərarı ilə çəkilib və müvafiq maliyyə ayrılıb. Mən çağırış edirəm, yerli hakimiyyət nümayəndələrinə, iş adamlarına, biz prezidentə kömək etməliyik. Biz öz imkanlarımız çərçivəsində, mənim kimi kiçik məktəbləri abadlaşdırmaqla, yenidən tikməklə balalarımıza güc verməliyik. Böyük Sabir deyir ki, məktəb könül açan, ürəkaçan yer olmalıdır. Bəs ilan məskən salan yer ürəkaçan, könülaçan yer ola bilərmi? Orada hansı gələcəkdən, hansı təhsildən danışmaq olar? Məhz buna görə də Şamaxıda bu məktəb binası tikilib.

Şamaxı Azərbaycanın bütün diyarlarından fərqli olaraq böyük mədəniyyət mərkəzidir. Böyük dühalar, ədib-

lər məkanıdır. Siz bu məkana xidmət etməlisiniz...

Mən sizin qarşınızda öz öhdəliyimi yerinə yetirmək, sizi duymaq, öz vicdanıma məlhəm olmaq üçün bunları edirəm. Hər şeyi də ürəyimin gücü, qərarı ilə edirəm. Millət vəkili seçildiyimdən bu günə qədər bütün yüksək balla daxil olan tələbələri təbrik edirəm və o tələbələrə hər ay 100 manat məbləğində təqaüd verirəm. Bu gün artıq 47 nəfər tələbə təqaüd alır. Bu il də Şamaxının altı gənci yüksək, 600-dən yuxarı balla ali məktəblərə daxil olub. Mən onları təbrik edirdim, bu zaman həmin altı nəfərdən ikisi mənə müraciət etdi. Bunlardan biri, 617 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat uçotu və audit şöbəsinə daxil olan Heybətov Adəm dayısı ilə yanıma gəldi. Mənə söz demək istəyəndə uşağın dodaqları titrədi. Öz yetimliyim yadıma düşdü. Mən də onun kimi çox kiçik, cansız bir gənc idim. Dayısı dedi ki, onun qardaşı əsgərlikdədir, anası xəstə, yaşlı qadındır. İndi uşaq Bakıya oxumağa gedir, amma oxumaq üçün bir manat da alacaq yeri yoxdur. Mən dərhal dedim: "Oğul, sən oxuyacaqsan, Dəyanət müəllimə (Şamaxının millət vəkilinin rayondakı səlahiyyətli nümayəndəsi – red.) ünvanlarını de və hər ay sənə təqaüd verəcəm". İkinci müraciət edən isə Adnalı kəndindən Heydərov Seyidrəsul idi. O uşaq həm Azərbaycan Dövlət İqtisad Universitetinə, həm də Çin Xalq Respublikasında bir universitetə qəbul olub. Yaşlı bir qadın olan anası ilə gəlmişdi. Anası dedi ki, istəyirlər uşaq Çində oxusun, amma təyyarə bileti üçün pulları yoxdur.

Dərhal qərar verdim ki, onun bütün biletlərini mən alıram, qoy uşaq xaricdə oxusun.

Bax mən istəyirəm ki, bizim rayonun iş adamları, ölkəmizdən kənardakı imkanlı şəxslər, məmurlar fərdi şəkildə belə xeyirxah, nəcib işlərə qoşulsunlar. Belə xırda məsələlərdə biz vətənpərvərlik, insanpərvərlik, ləyaqət göstərib, onlara kömək etməliyik.

Hörmətli Eyvaz müəllim, keçən il mən yüksək balla ali məktəbə qəbul olunan 12 nəfəri təbrik etmişdim, bu il 6 nəfəri. Mən arzu edirəm ki, gələn il 24 nəfəri təbrik edim. Şamaxıda təhsilin inkişafına biz hamımız birgə yardım etməliyik. Sabir qiraət günlərində 72 nəfərə mən hər ay təqaüd verirdim. Sonra biz müsabiqənin formatını dəyişdik. Və məlum oldu ki, birinci ildə mükafat alan on uşaq 5-6 ildə bir dəfə də növbəti müsabiqənin laureatı olmayıb, Sabirin yeni bir şeirini öyrənməyib. Mən bunu Sabirə təhqir hesab edirəm. Şair o vaxt yaşayır ki, onun kitabları oxunur. Bəstəkar o vaxt yaşayır ki, mahnısı oxunur.

Gələcək Sabirlər, gələcək Seyid Əzim Şirvanilər, Abbas Səhhətlər olmalıdır. Mən bu məktəbi tikərkən heç yadınıza düşməzdi ki, burada asfalt olsun. O yaşıllıq da yadınıza düşməzdi. Bayraq meydanı ancaq röyada ola bilərdi. Mən bunu ona görə etdim ki, bayraq vətənpərvərlik rəmzidir. Son dəfə bura gələndə məktəbin xidmətçiləri olan iki qadın utana-utana mənə dedilər ki, bizim suyumuz yoxdur. Sabir bulağını da sizə ona görə çəkdim ki, balalarımız Sabir bulağından su içib, güc alsınlar.

Mən bu gün buraya öz nəvələrimlə, ailəmlə, oğlanlarımla gəlmişəm. Bu məktəbin tikintisini də oğluma həvalə etmişdim. Hər bir insan vicdanı qarşısında mütləq cavabdehdir. O vicdanı ilə danışmalıdır, böyük Mirzə Ələkbər Sabirin dediyi güzgünün qarşısında özünü mühakimə etməlidir...

Bu bina vətən sevgisindən doğub. Hər bir insanın ürəyində hökmən vətən sevgisi olmalıdır.

İL ƏRZİNDƏ SEÇİCİLƏRƏ ÜNVANLADIĞI TƏBRİKLƏR

Əziz Anam!

Yenə 8 mart gəlib.

Bu bayram baharın müjdəçisi sayıla bilər.

Və bu gün Sizi – mənim üçün əziz olan bir İnsanı təbrik etmək imkanımın olması mənim də ürəyimə bahar sevinci gətirir. Bu sevinci yaşadığıma görə mən Sizə borcluyam.

Bu kiçik təbrik məktubunun "ərazi"si çox kiçikdir. Odur ki, ürəyimdə olan bitib- tükənməyən arzuları, diləkləri bu məktuba sığışdırmaqda çətinlik çəkirəm.

Sizə cansağlığı arzulayıram.

Sizə sevincli günlər arzulayıram.

Arzulayıram ki, neçə-neçə belə bayramlara çıxasınız, Əziz Anam!

Elxan

Əzizlərim !

Yurdumuza Bahar gəlir. İlin ən yaddaqalan hadisələrindən biri, həm təbiəti, həm də ruhumuzu təzələyən Novruzun - Baharın gəlişi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu bayramın şəninə çox sözlər deyilib.

Ən ağrılı məqamlardan biri də Qarabağımızın hələ də bizim olmamasıdır.

Bunu bilmək, yaşamaq çox ağrılıdır.

Amma, mən inanıram ki, bu ağır yükü çiyinlərimizdən götürə biləcəyik.

İşğal altında olan torpaqlarımız mütləq bizim olacaq.

Uğrunda şəhidlərimizin qanının töküldüyü müqəddəs Vətən torpaqları yenə bizim olacaq.

Qoy müqəddəs Qarabağ torpaqları uğrunda şəhid olan qəhrəmanlarımızın ruhu şad olsun. Azərbaycanımızın bütün kəndlərində, şəhərlərində Novruz tonqallarımız gur yansın!

Ən xoş arzularla, Şamaxının millət vəkili
Elxan Süleymanov

Əziz Dost!

Bahar gəlir! Və mən səni ürəkdən təbrik edirəm.

İstəyirəm, ürəkdən arzulayıram ki, bu isti bahar günəşi sənin yeni- yeni biliklərə, elmlərə aparan yolunu işıqlandırsın.

Mən inanıram ki, sən təhsilini bitirdikdən sonra doğmaların, əziz Şamaxın, müqəddəs Azərbaycan torpağı üçün faydalı insan olacaqsan.

Və bəlkə də bu balaca təbrik də səni ruhlandıran amillər sırasında kiçik yerini tutacaq.

Nə bilmək olar? Bu həyatdır.

Yaxşı oxumaqda davam et.

Ən xoş arzularla, Elxan Süleymanov,
Şamaxının millət vəkili

Əziz müharibə veteranları!

Faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, səadət, rifah və nikbinlik arzulayıram.

9 May Qələbə Günü bizim hər birimiz üçün sevimli, əziz, işıqlı və həssas bayram olaraq qalır. Bəşəriyyətin tarix boyu qarşılaşdığı ən amansız müharibədə qazandığınız bu qələbəyə görə, övlad minnətdarlığı ilə qarşınızda baş əyirik.

Sizə uzun ömür və şəxsi həyatınızda uğurlar diləyirəm.

Hörmətlə,
Şamaxının millət vəkili Elxan Süleymanov

Hörmətli seçicim!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən və hərarətlə təbrik edir, ən xoş arzularımı bildirirəm.

Qurban bayramı bizim xalqımızın mənəvi irsinin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, İslamın yüksək insani dəyərlərinə bağlılığımızın təcəssümüdür.

Bu əziz bayramda Sizə uzun ömür, cansağlığı, səadət, əmin-amanlıq və

ruzi-bərəkət diləyirəm.

Qoy Uca Allahın mərhəməti üzərinizdən əskik olmasın.

Hörmətlə,
Şamaxının millət vəkili Elxan Süleymanov

Əziz balam !

Yeni ilin mübarək !

Çox şadam ki, bu bayramda səni təbrik edə bilirəm. Və 2018-ci ilin sənə gətirdiyi sevinc sovqatında kiçik də olsa, mənim də payım var.

Çox istəyirəm ki, Yeni İl sənin üçün, səni boya-başa çat- dırmaq üçün durmadan çalışan valideynlərin üçün, bütöv- lükdə Azərbaycanımız üçün düşərli olsun.

Təbrik edirəm səni!

Elxan baba

Əziz Seçicilərim!

Yeni İlin gəlişi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Qoy üzümüzə gələn 2018-ci il bizi Qarabağa bir qədər də yaxınlaşdırsın. Və torpaqlarımız uğrunda canından keçən igidlərimizin ruhları təskinlik tapa bilsin.

Ocaqlarımız gur yansın.

Sizin Elxan Süleymanov,
Şamaxının millət vəkili

İDEYA MÜƏLLİFİ VƏ NAŞİRİ OLDUĞU KİTABLAR HAQQINDA MƏLUMATLAR VƏ ONLARA YAZDIĞI "ÖN SÖZ"LƏR

"XOCALI YADDAŞI"

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "1905.az" portalının "1905.az kitabı" seriyasından ikinci nəşri – "XOCALI YADDAŞI" kitabı işıq üzü görüb. Orijinal dizayn və nəfis tərtibatla çap olunan kitab Xocalı soyqırımı qurbanlarının xatirəsinə ithaf olunub və şərti olaraq üç hissəyə bölünüb. Kitab AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun ön sözü ilə açılır. Birinci bölümdə Qarabağ bölgəsinin, bu əraziyə ermənilərin köçürülməsi tarixi, onların törətdikləri soyqırımlar, Ermənistanın ərazi iddiaları, Qarabağ probleminin başlanması, Dağlıq Qarabağın azərbaycanlı kəndlərinin işğalı ilə bağlı materiallar verilib. Birinci bölüm Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarından müvafiq iqtibaslarla müşayiət olunur.

Xocalı soyqırımından bəhs edən ikinci bölüm kitab içərisində kitab kimi verilib və digər bölümlərdən ayrılır. Bu bölümə Xocalı rayonu və şəhəri, Xocalı soyqırımı, hadisə zamanı itkin düşənlərin, əsir və girov götürülənlərin siyahısı, əsir və girov götürülənlərlə bağlı ətraflı məlumat, faciə zamanı müstəsna igidlik göstərən Azərbaycanın Milli Qəhrəmanları, qətliamı törədən erməni qruplaşmaları, xocalılara divan tutulan yaşayış məntəqələri ilə bağlı materiallar daxil edilib. Materiallar xarici medianın Xocalı soyqırımı ilə bağlı yazıları, faciə zamanı əsir düşənlərin dedikləri, eləcə də ermənilərin baş verənlərlə bağlı söylədikləri ilə

müşayiət olunur.

Üçüncü bölümdə Rusiyanın "Memorial" İnsan Hüquqları Mərkəzinin, "Human Rights Watch" təşkilatının Xocalı hadisələri ilə bağlı hesabatı, Xocalı soyqırımı ilə bağlı rəsmi sənədlər, Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir sıra çıxış və müraciətləri, hadisənin soyqırımı kimi dəyərləndirilməsi ilə bağlı materiallar, Heydər Əliyev Fondunun Xocalı soyqırımının tanıdılması ilə bağlı fəliyyəti, "Xocalıya ədalət" kampaniyası, soyqırımın beynəlxalq aləmdə tanınması, eləcə də bu hadisə ilə bağlı gerçəkləri dünyaya yayan insanlar haqqında məlumatlar verilib.

Bütün kitab boyu hadisələr müstəqil məna yükü daşıyan fotoxronikanın köməyi ilə oxuculara təqdim edilir.

Kitabda həmçinin, Xocalı soyqırımının şahidi olan insanlar, soyqırımın tədqiqatçısı olan alimlər, Xocalı faciəsinin incəsənətdə, ədəbiyyatda inikası ilə bağlı müsahibələr də yer alıb. Kitabda ilk dəfə olaraq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fondlarından da istifadə etməklə Xocalı soyqırımı mövzusunda elmi, bədii və publisistik kitabların siyahısı verilib.

"XOCALI YADDAŞI" kitabının ideya müəllifi və naşiri AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanov, elmi məsləhətçiləri Azərbaycan MEA-nın müxbir üzvü İlyas Babayev, siyasi elmlər doktoru, professor Ramiz Sevdimalıyev, iqtisad elmlər doktoru Vurğun Süleymanov və başqaları, yaradıcı heyətin rəhbəri siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayevdir.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "1905.az KİTABI" seriyasında işıq üzü görmüş "Xocalı yaddaşı" kitabına ön söz

Dəyərli Oxucu!

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının yeni nəşrini, "1905.az KİTABI" seriyasında işıq üzü görən "Xocalı yaddaşı"nı sizə təqdim edirəm.

Bu kitab məşum Xocalı soyqırımının 25-ci ildönümü ərəfəsində işıq üzü görür...

Və Azərbaycan tarixində, demək həm də dünya azərbaycanlılarının yaddaşında silinməz iz buraxmış dəhşətli hadisə haqqında bildiklərimizin bir hissəsini əhatə edir.

"Xocalı yaddaşı" bu olaydan bəhs edən kitablar sırasında, Assosiasiyamız tərəfindən nəşr edilmiş eyni mövzulu kitablar kimi öz yerini tutacaq. Hər halda, mən buna inanıram.

Əminəm ki, Xocalı haqqında bundan sonra çox kitablar yazılacaq.

Əminəm ki, unutmayacağıq.

Və bəlkə də, onilliklər sonra hansısa bir Azərbaycan gənci bu kitaba erməni tapdağından azad edilmiş Xocalıdakı kitabxanada rast gələcək.

Və o zaman Xocalı soyqırımını törədən cinayətkarlar çoxdan cəzalandırılmış olacaq.

Elə bu inamla da "Xocalı yaddaşı"nı sizə təqdim edirəm.

Oxuyun, irad və təkliflərinizi bizə bildirməyi unutmayın.

Bu kitabın Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı düzənlənəcək tədbirlərin də yer alacağı yeni nəşri də işıq üzü görəcək. Ümid edirəm ki, həm də xarici dillərdə.

Elxan Süleymanov,
Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili

“Samir! Nazim! Elşən”

Aida Eyvazlı Göytürkün müəllifliyi ilə nəşr edilən bu kitaba 2016-cı ilin aprel ayında Ermənistanın dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribatını layiqincə cavablandırarkən, uğurlu əks-hücum əməliyyatı zamanı qəhrəmancasına həlak olmuş hərbçilərimizdən Samir Kaçayev, Nazim Zəkərayev və Elşən Səmədov haqqında yazdığı yazılar yer alıb.

Kitaba daxil edilən yazılar 2016-cı ildə modern.az saytında dərc edilib. 3 yazını kiçik sözardılar tamamlayır. Kitaba həmçinin, müəllifin 1905.az portalına verdiyi müsahibə daxil edilib. Kitab “1905.az kitabı” seriyası çərçivəsində nəşr olunub. Seriyanın ideya müəllifi və kitabın naşiri Şamaxının millət vəkili və AVCİYA-nın prezidenti Elxan Süleymanov, nəşrin məsləhətçisi pedaqoji elmlər üzrə fəlsəfə doktoru Dəyanət Musayev, seriyanın tərtibçisi siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayevdir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Aida Eyvazlının "1905.az KİTABI" seriyasında nəşr edilmiş "Samir! Nazim! Elşən!" kitabına ön söz

Dəyərli Oxucu!

"1905.az KİTABI" seriyasından növbəti kitab qarşınızdadır.

Bu kitab ötən ilin aprel döyüşləri zamanı həlak olmuş üç qəhrəman oğlumuzdan bəhs edir.

Jurnalist Aida xanımın qələmə aldığı üç yaddaqalan yazını birləşdirən "SAMİR! NAZİM!ELŞƏN!" kitabı üç şamaxılı gəncin həyat yolundan danışır və bu gənclərin kiçik, mənalı, unudulması mümkün olmayan həyat dastanları çox təsirlidir.

Təsirlidir bu dastanlar.

Bu yazıları oxuduqca İnsan kədərlənir, düşünür, götür-qoy edir.

Bu həyat hekayələri insanı çox uzaqlara aparır.

Biz istər-istəməz mühüm nəticələr çıxarırıq.

Biz bu nəticələri ona görə çıxarmalıyıq ki, atəşkəs sazişi imzalanan 1994-cü ildə dünyaya gəlmiş Samir Kaçayevin və ondan 3 yaş kiçik olan Nazim Zəkərəyev, Elşən Səmədovun şəhidlik zirvəsinə ucaldıqları aprel döyüşlərindən ruhlana bilək.

Bəli, biz itkilər vermişik. Amma biz qələbə də əldə etmişik.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən ilin noyabrında Füzuli rayonu

ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olandan sonra hərbçilər qarşısında çıxışında de,isdi:

"Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qar-şı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan

Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə

sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir"

Qoy Samir kimi, Nazim kimi, Elşən kimi, onlarla, yüzlərlə,minlərlə şəhidlərimiz rahat uyusunlar məzarlarında.

Biz torpaqlarımızı Ermənistanın işğalından azad edə biləcəyik.

Samirin, Nazimin, Elşənin və digər şəhid övladlarımızın şəhid olduqları döyüşlər də bir daha sübut etdi ki, biz döyüşməyi də bacarırıq, qələbə çalmağı da.

Qələbə bizimlə olacaq və bu qələbə haqqında daha böyük kitablar yazılacaq.

Mən buna inanıram.

Elxan Süleymanov,
Şamaxının millət vəkili

“İndi bildim nağıldı...”

Azərbaycanın görkəmli şairi Musa Yaqubun “İndi bildim nağıldı...” kitabı şairin 80 illik yubileyi ərəfəsində işıq üzü görüb. Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə nəşr olunan kitaba sevgi, təbiət və ictimai mövzulu 400-dən artıq şeir və iki poema daxil edilib.

Kitab Elxan Süleymanovun ön sözü ilə açılır. On iki bölümə ayrılmış kitabda şairin yeni əsərləri ilə yanaşı, çoxumuz üçün uşaqlıqdan tanış olan məşhur şeirləri də yer alıb. Bölümlərin hər biri xüsusi olaraq kitab üçün çəkilmiş illüstrasiyalarla başlanır. Kitabda həmçinin Musa Yaqubun geniş müsahibəsi də dərc olunub.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab əməkdar jurnalist Fuad Babayevin rəhbərliyi ilə “1905.az STUDİO”-da nəşrə hazırlanıb, tərtibçi Nəzirməmməməd Zöhrablıdır.

Kitab mayın 3-də Azərbaycan Yazıçılar Birliyi və Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının birgə təşkilatçılığı ilə Musa Yaqubun 80 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbirdə təqdim olunub.

Musa Yaqubun "İndi bildim nağıldı..." kitabına ön söz

Musa Yaqubu çoxdan tanıyıram.

Və "İndi bildim nağıldı..." adlı bu böyük kitaba kiçik bir ön söz yazmaq qərarına gələndən sonra arxada qalmış ayların, illərin yaddaşımda qoyduğu izlərə təkrarən nəzər saldım.

Bu aylar, bu illər ömür yolumuzun çox böyük bir hissəsini təşkil edir.

Bəli, onilliklər boyu biz yanaşı addımlamışıq.

Ötən əsrin 50-ci illərində, birgə oxuduğumuz Göyçay Pedaqoji Texnikumundan başlanır bu yol. Musa Yaqubun "Qalacıq" poemasının bir neçə saat çəkən müzakirəsini indiki kimi xatırlayıram. Həmin müzakirə məhz Göyçayda, mənim üçün əziz olan pedaqoji texnikumda baş tutmuşdu.

... Və artıq on üç ildir ki, bizim yolumuz Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasında davam edir.

Bu mənim uğurlarımdan biridir.

Böyük Şair Musa Yaqubu şəxsən tanımaq doğrudan da böyük uğurdur.

Və bu uğurdan hamıya pay düşməlidir...

2004-cü ildən bəri fəaliyyət göstərən təşkilatımız onlarla gəncin əsl işçi kimi yetişməsi üçün meydan olub. Bu meydanda onlar çalışıblar, fərqlənibələr və indi bir çox sahələrdə çalışırlar.

Həmin insanların püxtələşməsində Musa Yaqubla ünsiyyət böyük rol oynayıb.

2011-ci ildən bərişəxsən mənim təşəbbüsümlə, hər ilin may ayında Şamaxıda Sabir yaradıcılığına həsr edilmiş bədii qiraət müsabiqələri keçirilir. Və bizim Assosiasiyamızın üzvü olan Söz Azadlığını Müdafiə Fondunun sədri Musa Yaqub həmin müsabiqələrin münsifər heyətinin sədri olur. Sabirsevər şagirdlərimiz böyük bir şairi görə bilirlər, eşidəbilirlər.

Bir qədər əvvəl haqqında yazdığım böyük Uğurdan onlara da pay düşür.

Bu gözəl kitabı oxuyan bütün insanlarımıza da pay düşəcək həmin Uğurdan...

Əminəm ki, "İndi bildim nağıldı..." kitabının oxucularının sayı bu nəşrin tirajından qat-qat çox olacaq.

Bu kitabın nüsxələri əldən-ələ gəzəcək və ailə kitabxanalarında uzun illər qorunacaq.

Mən çox xoşbəxtəm ki, 60 ildən artıq tanıdığım, dostum, böyük şairimiz Musa Yaqubun bu kitabının işıq üzü görməsi mənim təşəbbüsümlə, dəstəyimlə baş tutub.

Bəlkə də bu, mənim 80 yaşlı böyük Şairə zaman çərçivəsinə sığmayan böyük hədiyyəm kimi dəyərləndirilə bilər.

80 yaşın mübarək, əziz Dostum!

Allah səni Azərbaycana çox görməsin, böyük şairimiz Musa Yaqub!

Elxan Süleymanov,

Şamaxının millət vəkili,

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti

“Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)”

Məhərrəm Zülfüqarlının müəllifliyi, Şamaxının millət vəkili, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti Elxan Süleymanovun dəstəyi ilə nəşr olunan “Göyçay döyüşləri” kitabı Azərbaycan tarixinin ən şanlı səhifələrindən birinə, bolşevik-daşnak qoşunu üzərində Qafqaz İslam Ordusunun və Azərbaycan döyüşçülərinin qazandığı zəfərə həsr olunub.

“Mövzunun tarixşünaslığı” bölümündə Qafqaz İslam Ordusunun fəaliyyəti və Göyçay döyüşü ilə bağlı sovet və müstəqillik dövrü tarixşünaslığında qeyd olunan mənbələr araşdırılır, bu döyüşlərin ardıcıllıq təsnifatı verilir.

“Göyçay döyüşləri ərəfəsində ictimai-siyasi vəziyyət” bölümündə müəllif 1917-1918-ci illərdəki vəziyyət, Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilər, Zaqafqaziya Seyminin fəaliyyəti ilə bağlı məlumat verir, bolşevik-daşnak silahlı qüvvələrin formalaşmasından, müsəlmanların (azərbaycanlıların) isə Çar Rusiyası dövründə hərbi xidmətə cəlb edilmədiyindən döyüş qabiliyyətlərinin olmamasından və qarşı tərəfin bundan bəhrələnərək Azərbaycanın ən müxtəlif ərazilərində törətdiyi soyqırımı faktlarından bəhs edir.

“Pirəmşaq döyüşü” bölümündə Ağsu yaxınlığında erməni quldurlarından müdafiə məqsədilə keçirilmiş Pirəmsaq döyüşü Göyçay döyüşünə qədər erməni quldurlarına

qarşı müqavimətin nümunəsi kimi təqdim olunur. Müəllif Pirəmsaq döyüşünü 1918-ci ildə erməni quldurlarına qarşı ən böyük müdafiə döyüşü adlandırır.

"Kürdəmir istiqamətində cərəyan edən hadisələr" bölümündə Kürdəmir stansiyasının strateji əhəmiyyəti, bolşevik-daşnak qüvvələri üçün önəmi qeyd olunur. Bölmədə həmçinin Kürdəmir nahiyəsinin kəndlərində törədilən erməni vəhşilikləri vurğulanır.

"Ucar stansiyasının strateji əhəmiyyəti" bölümündə Ucarın tarixi, bu stansiyanın Azərbaycan tarixindəki önəmi sadalanır, ətraf yaşayış məntəqələrindən erməni zülmü sayəsində didərgin düşmüş əhalinin pənah gətirdiyi əsas yaşayış məntəqələrindən biri olması göstərilir.

"I Qaraməryəm döyüşü" bölməsində Qaraməryəmin Göyçay yolunda önəmli məntəqə olması vurğulanır və bu döyüşün Qafqaz İslam Ordusu və Azərbaycan könüllülərinin birləşmiş qüvvələri ilə bolşevik-daşnak işğalçıları arasında ilk böyük hərbi əməliyyat olması bildirilir, döyüşün gedişi təsvir olunur.

"Göyçay döyüşü" bölümündə bu döyüş Azərbaycan tarixinin şərəfli, qəhrəmanlıq səhifələrindən biri kimi səciyyələndirilir, döyüşdə qazanılan qələbə sayəsində düşmənin hücumunun dayandırıldığı, müharibənin gedişində əsaslı dönüş olması bildirilir. Bölmədə döyüş zamanı yaranmış mürəkkəb şərait şərh edilir, yerli əhalinin başına gətirilən fəlakətlərdən və əhalinin ümumi düşmənə qarı mübarizəsindən ətraflı bəhs olunur. Görkəmli din xadimi, maarifçi və xeyriyyəçi kimi regionda məhşur olan Hacı Rə-

him Əfəndi kimi şəxslərin Qafqaz İslam Oprdusuna yardımı, könüllülərin toplanması, ordunun ərzaq və su ilə təchizindəki rolu, yaralıların Gəncəyə göndərilməsi və şəhidlərin dəfnində iştirakı da xüsusi qeyd olunur. Müəllif Qafqaz İslam Ordusunun döyüş taktikasının təsvirinə də əhəmiyyətli yer ayırır.

"II Qaraməryəm" döyüşü bölümündə Qaraməryəmin düşməndən azad edilməsi ilə rəqibin Kürdəmirdən geri çəkildiyi, Göyçay üçün təhlükənin aradan qaldıldığı qeyd olunur. Bölümdə həm də Göyçay döyüşünün Azərbaycanın dövlətçilik tarixindəki tarixi əhəmiyyəti sadalanır.

Kitabda göyçaylı general, Göyçay döyüşlərinin iştirakçısı Sadıq bəq Ağazadə haqqında ətraflı məlumat verilir.

"Göyçay döyüşləri haqqında şifahi tarix" bölümündə müxtəlif peşə sahibləri hadisələrin şahidlərinin bu döyüş haqqında söylədiklərini xatırlayırlar.

Məhərrəm Zülfüqarlının Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının layihəsi çərçivəsində nəşr olunmuş "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)" kitabına ön söz

Dəyərli Oxucu!

Bu kiçik kitabda az qala 100 il bundan əvvəl baş vermiş hadisələrdən bəhs edilir.

Bəli, bu hadisələr əslində çoxdan baş verib. Onilliklər boyu sovet reallıqları bu hadisələr barədə təsəvvürlərimizin formalaşmasını əngəllədiyindən adama elə gələ bilər ki, lap çox vaxt keçib...

Amma, biz 1918-ci ildə yaşanan hadisələri unutmamışıq. Və mən tarixçi Məhərrəm Zülfüqarlının əlyazmasını vərəqləyə-vərəqləyə bir daha əmin oldum ki, heç nə unudulmur, heç nə yaddan çıxmır. Hökmən şahidlər, xatirələr, sənədlər, xəritələr qalır.

Hökmən, biz qalırıq və biz bu torpaqlarda yaşananları öyrənmək, bilmək istəyirik.

İndi çox uzaq görünən 1918-ci ilin iyun-iyul aylarında yaşananlar haqqında yazılanları siz də oxuyacaqsınız. Əlbəttə, sizin Qafqaz İslam Ordusunun bizim könüllülərlə birlikdə, bir əsr bundan qabaq bu torpaqlarda bolşevik-daşnak işğalçılarına qarşı apardığı mübarizədən xəbəriniz var. Bu kitab bəzi məqamların üzərinə bir daha işıq salacaq...

Mən Göyçayda anadan olmuşam, göyçaylıyam və bu-

nunla fəxr edirəm. Böyük ziyalı, din xadimi, böyük maarifçi Hacı Rəhim Əfəndinin nəvəsiyəm və mənim babam bu döyüşlərin iştirakçılarından olmuşdur.

Çox xoşbəxtəm ki, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) indiki müstəqil Azərbaycanımızın varisi olduğu ilk müstəqil Azərbaycanın qorunub saxlanmasında, ermənilərin azərbaycanlılara qarşı növbəti soyqırımının qarşısının alınmasında mühüm rol oynayan Göyçay döyüşlərindən bəhs edən belə bir vacib layihəni həyata keçirib. Rəhbərlik etdiyim AVCİYA-nın və millət vəkili olaraq fəaliyyətimin əsas istiqaməti hər zaman erməni tapdağı altında inildəyən torpaqlarımızın işğaldan azad olunması uğrunda beynəlxalq aləmdə gərgin və davamlı mübarizənin aparılmasına yönəlmişdir.

Və mən indi bu sətirləri bu mövzuda yeni-yeni əsərlərin yaranacağına inamla yazıram.

Biz tariximizi yaxşı bilməliyik.

Biz dostumuzu düşmənimizdən ayırmağı bacarmalıyıq.

Biz torpaqlarımızın erməni işğalçılardan azad ediləcəyi günləri görməliyik.

Elxan Süleymanov,
Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili

"Sərsəng harayı"

"Sərsəng harayı" kitabı Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasıyasının (AVCİYA) növbəti nəşridir.

Kitab Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun oxuculara müraciəti ilə başlayır.

"Sərsəng harayı" kitabı 3 hissədən ibarətdir.

Birinci bölüm Sərsəng su anbarı haqqında müfəssəl məlumatların yer aldığı 6 fəsildən ibarətdir. Kitabın bu bölümü siyasi elmlər doktoru Ramiz Sevdimalıyev tərəfindən yazılmışdır.

Kitabın Girişində Sərsəng su anbarının 1992-ci ildə Ermənistan hərbi qüvvələri tərəfindən işğalı nəticəsində Azərbaycanın 100 min hektar torpaq sahəsinin susuz qalması faktı vurğulanır. Sərsəng su anbarının Ermənistanın işğalı altında qalması Azərbaycanın cəbhəyanı rayonları üçün real təhlükə mənbəyi olması, yaranmış təhdidlərin və onların aradan qaldırılması istiqamətində Azərbaycan tərəfinin beynəlxalq təşkilatlarda fəaliyyətinin araşdırılmasının aktuallığı qeyd olunur.

Kitabın ilk fəsli "Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan tərəfindən işğalı" Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə olan torpaq iddiasının, erməni işğalının tarixi, 250 mindən artıq etnik azərbaycanlının 1988-1989-cu illərdə cəmi bir neçə ay ərzində öz

tarixi torpaqları olan indiki Ermənistan Respublikası ərazisindən deportasiyasından bəhs edilir. Bu bölümdə həmçinin Ermənistanın silahlı qüvvələri tərəfindən 20 mindən çox insanın öldürülməsi, 50 mindən cox insanın yaralanması və şikəst edilməsi, minlərlə insanın itkin duşməsi, işgəncəyə məruz qalması, 1 milyona qədər dinc əhalinin qaçqına çevrilməsi, Xocalı soyqırımı, Ermənistanın işğalı nəticəsində Azərbaycanın iqtisadiyyatına dəyən maddi ziyan oxucuların diqqətinə çatdırılır. Bundan başqa bu bölümdə Ermənistan tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda dağıdılmış 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinin qısa icmalı da öz əksini tapıb.

"Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktının tanıdılması sahəsində görülmüş işlər" fəslində Ermənistanın Azərbaycana təcavuzunun aradan qaldırılması, problemin sulh yolu ilə həllinə nail olunması, işğal altında olan ərazilərdə Azərbaycanın dövlət suverenliyinin bərpası və beynəlxalq hüquq cərcivəsində ərazi bütövlüyünün təmin edilməsi istiqamətində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin fəaliyyətinə geniş yer ayrılıb.

Qeyd olunur ki, torpaqlarımızın işğalı faktı daim Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev və Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən beynəlxalq təşkilatlarda qaldırılmış, onların çıxışlarının prioriteti olmuşdur. Xüsusilə vurğulanır ki, məhz bu fəaliyyətin nəticəsində BMT Təhlukəsizlik Şurasının 1993-cu il

tarixli 822, 853, 874, 884 saylı qətnamələrinin, BMT Baş Assambleyasının 14 mart 2008-ci ildə kecirilən 62-ci sessiyasında qəbul olunan "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsinin, AŞPA-nın 2005-ci ildə qəbul etdiyi "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi uzərində munaqişəyə dair" 1416 (2005) saylı qətnaməsinin, AŞPA-nın 2016-cı ilin yanvar sessiyasında "Azərbaycanın cəbhəyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" adlı 2085 (2016) saylı qətnaməsinin, Avropa İttifaqının Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli bağlı rəsmi mövqeyi Avropa Parlamentinin 20 may 2010-cu idə qəbul etdiyi "Avropa İttifaqının Cənubi Qafqaz üzrə Strategiyası" qətnamələrinin qəbulu mümkün olub.

Bu fəsildə həmçinin Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar nəticəsində 2016-cı ilin martın-aprel aylarındakı 4 gün davam döyüşlərdə işğal altında olan strateji məntəqələrin Azərbaycan Silahlı Quvvələri tərəfindən azad olunması, aprel döyüşlərindən sonra Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyevanın təmas xəttindəki cəbhəboyu zonada vəziyyətlə yerində tanışlığı və sakinlərlə goruşü də fəsildə öz əksini tapıb. Uzun illərdən sonra Cocuq Mərcanlıya məcburi kockunlərün qayıtması Böyük Qayıdışın başlanğıcı kimi dəyərləndirilir.

"Sərsəng su anbarı və onun işğal altında qalması nəticəsində yaranmış təhdidlər" fəslində 1976-cı ildə tikilib istifadəyə verilmiş Sərsəng su anbarının qəza vəziyyətdə olması

və istənilən an humanitar faciə baş verə biləcəyi xüsusi qeyd olunur. Bu humanitar faciə 3 amillə əsaslandırılır. Əvvəla, Sərsəng su anbarı işğal altında olduğu üçün ona texniki xidmət göstərilmir və bu avadanlıqların istismar müddəti başa çatmışdır. İkincisi, Sərsəng su anbarında qəza təbii fəlakət səbəbindən baş verə bilər. Nəhayət, üçüncü amil Sərsəng su anbarı Ermənistanın işğalı altındadır və işğalcı rejim dəfələrlə Azərbaycan tərəfi su anbarını partlada biləcəyi ilə təhdid etmişdir. Bu bölümdə həmçinin Sərsəng su anbarında baş verə biləcək qəza nəticəsində bölgədə yaranacaq humanitar və ekoloji böhran vəziyyətinə gorə Ermənistanın beynəlxalq-hüquqi məsuliyyət daşıması və Azərbaycan ərazilərı işğaldan azad edilmədən bu problemin uzunmüddətli həllinə nail olmağın mümkünsüzlüyü vurğulanır.

"Ermənistanın Sərsəng su anbarını işğal altında saxlaması nəticəsində əziyyət çəkən cəbhəyanı rayonlar" fəslində Azərbaycanın işğal nəticəsində Sərsəng su anbarından istifadə etməkdən məhrum edilmiş 6 cəbhəyanı rayonun (Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Yevlax və Goranboy) qısa tarixi və coğrafi mövqeyi haqqında lakonik məlumat verilir. Qeyd olunur ki, bu 6 rayonun təxminən 400 min nəfərlik əhalisinin həyatı daim təhlukə altındadır və qəza baş verəcəyi təqdirdə bölgədə humanitar böhran vəziyyətinin yaranması qacılmaz olacaq.

"Müxtəlif ölkələrdə tikilmiş su anbarlarında baş vermiş qəzalara dair məlumatlar" fəslində dünyanın müxtəlif ölkələrinin su anbarlarında və bəndlərində baş vermiş qəzalardan bəhs olunur.

"İşğal nəticəsində qəzalı vəziyyətə düşmüş Sərsəng su anbarı harayı beynəlxalq müstəvidə" fəslində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) 25 may 2013-cu ildən həyata kecirilməyə başladığı "Sərsəng harayı" adlı genişmiqyaslı layihədən bəhs edilir. Qeyd olunur ki, layihə çərçivəsində 2013-cu ilin sentyabr ayında Tərtər şəhərində yerləşən Gənclər Mərkəzində beynəlxalq konfrans, 9-11 noyabr 2013-cu il tarixlərində Tərtər, Bərdə, Ağcabədi, Ağdam və Goranboy rayonlarında ictimaiyyətin iştirakı ilə 5 dəyirmi masa kecirilmişdir.

Bundan başqa gənc rəssamlar arasında "Sərsəng harayı" adlı rəsm musabiqəsi və jurnalistlər arasında Sərsəng su anbarının təhdidlərinə dair məqalə musabiqəsi, AVCİYA-nın "Sərsəng SOS: təhlukə altında qalan tarixi və mədəniyyət abidələri", "Sərsəng SOS: Humanitar Bohran Təhdidi" və "Sərsəng SOS: Məhvə Məhkum Ətraf Muhit" adlı kitabları, 10 dekabr 2014-cu il tarixində Beynəlxalq İnsan Huquqları gununda bir sıra xarici olkə səfirlikləri, mətbuat numayəndələri və ictimai xadimlərin iştirakı ilə "Sərsəngə yuruş" aksiyası haqqında məlumatlar da bu bölümdə yer alıb.

Birinci bölümün sonunda Sərsəng su anbarının işğal altında olmasından əziyyət çəkən insanların www.sarsang.org saytından götürülmüş faksmileləri verilib.

Kitabın İkinci bölümündə AVCİYA prezidenti Elxan Süleymanovun imzası ilə Ağ Ev Administrasiyasına "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya ilə müraciət etməsi haqqında məlumatlar geniş şəkildə oxuculara çatdırılır.

Müraciətdə ATƏT-in Minsk Qrupunun torpaqlarımızın işğaldan azad edilməsində 23 il ərzində heç bir nəticə əldə etmədiyi bəyan edilir, AŞPA-nın 2085 (2016) saylı qətnaməsində vurğulanan: Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dovləti tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən torətdiyi ekoloji bıŋhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı quvvələrinin işğal bolgəsindən dərhal geri cəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırki durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə ɜatdırılır, Administrasiyaya AŞPA-nın 2085 (2016) saylı qətnaməsini dəstəkləməsi, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad edilməsinə və bolgədə humanitar fəlakətin qarşısının alınmasına yardım edilməsi üçün çağırış edilir.

Bu petisiyanın qeydə alınması üçün ən azı 100 min nəfərin muraciəti (elektron) imzalaması zərurətini nəzərə alaraq AVCİYA olaraq respublikada "Səs ver! İşğalçı Ermənistanı bütün dünyada birgə ifşa edək" adlı gemişmiqyaslı kapmaniyaya başlaması, bu məqsədlə respublikanın aparıcı ali təhsil müəssisələrinin (Azərbaycan Dillər Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Tibb Universiteti və s.) tələbə və müəllim heyəti ilə, Şamaxı ictimaiyyəti ilə keçirilən görüşlər, Elxan Süleymanovun çıxışlarının məzmunu xronoloji ardıcıllıqla oxucuların diqqətinə çatdırılır.

Bu kampaniyanın nəticəsində 330 mindən artıq səs toplanıldı və ABŞ-ın nüfuzlu Pew Tədqiqat Mərkəzinin hesabatına görə, "Biz Xalqıq" adlanan və 2011-ci ildə Barak Obama tərəfindən yaradılmış Ağ Evə muraciət platforması tarixində ikinci ən məşhur petisiya "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" petisiyası oldu.

Kitabın sonuncu 3-cü bölümündə AVCİYA-nın "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya layihəsinə geniş oxucu və tamaşaçı kütləsinin marağını formalaşdırmaq, səsvermə prosesini stimullaşdırmaq və aksiyanın əhəmiyyətliliyini qabartmaq məqsədilə elektron və çap kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında elan edilmiş müsabiqənin qaliblərinin yazıları və sujetlərin skinşotları yer alıb. Bu müsabiqədə Leyla Məhərrəmova (Azadinform.az) I yerə, Elşad Məmmədli ("Yeni Müsavat") II yerə, Asif Nərimanlı (Publika.az) və Rəsmiyyə Rzalı-Qarayeva (Vətəninfo.az) III yerə layiq görülüb. Televiziya süjetlərinə görə Ələsgər Vəliyev (İTV) I yeri, Ulviyyə Zülfüqar (ATV) II yeri, Günel Səfərli (Lider TV) və Leyla Abbasova (Region TV) III yeri böluşublər.

Kitabda Elxan Süleymanovun 10 fevral 2017-ci il tarixdə 1905.az saytına verdiyi müsahibə də yer alıb.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "Sərsəng harayı" nəşrinə ön söz

Dəyərli oxucular!

Azərbaycanın dilbər guşələrindən biri olan Dağlıq Qarabağ regionu və digər əraziləri 25 ildən artıqdır ki, düşmən tapdağı altındadır. Bu torpaqlar Ermənistan silahlı qüvvələri tərəfindən

işğal edilib və indiyədək işğal altında saxlanılır.

İşğal nəticəsində Azərbaycan xalqına külli miqdarda maddi və mənəvi zərər vurulmuş, bölgədə humanitar fəlakət vəziyyəti yaranmışdır, minlərlə insan həlak olmuş, yüz minlərlə insan məcburi köçkünə çevrilmiş və indiyədək məcburi köçkün həyatı yaşamaqdadır.

Azərbaycanın bir çox tarixi, dini və mədəniyyət abidələri,sosial-ictimai obyektləri işğal nəticəsində məhv edilmiş və ya indiyədək işğal altındadır. İşğal nəticəsində regionun ekoloji durumuna ciddi zərər vurulmuş, fauna və florası məhv edilmiş,bioloji müxtəliflik məhv edilmək üzrədir, bir sözlə bölgədə ekoloji tarazlıq pozulmuşdur.

Azərbaycanın strateji əhəmiyyət kəsb edən bir sıra obyektləri də Ermənistanın silahlı təcavüzünün qurbanı olmuşdur və indiyədək işğal altında qalmaqdadır. Ermənistanın işğalı altında qalmış belə strateji əhəmiyyətli obyeklərdən biri də XX əsrin 70-ci illərində Tərtər

çayı üzərində tikilərək istifadəyə verilmiş Tərtər hidrokompleksidir. Bu hidrokompleks Sərsəng su anbarından və elektrik stansiyasından ibarətdir. Sərsəng su anbarı işğala qədər Azərbayanın bir sıra dağətəyi düzən rayonlarında 100 min hektardan artıq əkin sahələrinin suvarılması üçün istifadə edilirdi.

İşğal altında qalmış Sərsəng su anbarı hazırda Azərbaycanın bir sıra cəbhəyanı rayonları üçün real təhlükə mənbəyinə çevrilmişdir. Bundan əlavə, Ermənistan Sərsəng su anbarından Azərbaycana qarşı silah kimi istifadə etmək istəyini gizlətməkdən belə çəkinmir.

Təəssüf ki, uzun müddət bu məsələ diqqətdən kənarda qalmışdı. Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Assosiasiyası (AVCİYA) bu boşluğu aradan qaldırmaq üçün 2013-cü ildən genişmiqyaslı "Sərsəng harayı" adlı layihə həyata keçirməyə başladı, ölkə ictimaiyyətinin və beynəlxalq təşkilatların diqqətini bu problemə yönəltməyə çalışdı. Səylər boş qalmadı.

Nəhayət, AŞPA 2016-cı ilin yanvar sessiyası zamanı 2085(2016) saylı "Azərbaycanın cəbhəyanı bölgələrinin sakinlərinin qəsdən sudan məhrum edilməsi" qətnaməsini qəbul etdi.

İşğal altında qalması nəticəsində Sərsəng su anbarının qəzalı vəziyyətə düşməsi və real təhdid mənbəyinə çevrilməsi, digər ölkələrdə bir sıra analoji hidroqurğuların qəzası nəticəsində törədilmiş fəlakətlərin miqyasının qiymətləndirilməsi, AŞPA-nın 2085(2016) saylı qətnaməsinin əhəmiyyəti və s. məsələlər bu nəşrdə işıq-

landırılmışdır.

İnanıram ki, bu nəşr maraqlananlar üçün əhəmiyyətli olacaqdır.

Elxan Süleymanov,

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "Ermənistanın Azərbaycana təcavüzü media gündəmində" adlı müsabiqə qaliblərinin materialları

AVCİYA "Ermənistanın Azərbaycana təcavüzü media gündəmində" müsabiqəsinə yekun vurdu

21.06.2017

1905.az

İyunun 21-də Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Milli Mətbuat Günü ərəfəsində "Ermənistanın Azərbaycana təcavüzü media gündəmində" mövzusunda keçirdiyi müsabiqəyə yekun vurdu.

Müsabiqənin məqsədi Ermənistanın Azərbaycana təcavüzünün tarixi və mövcud durumunu kütləvi informasiya vasitələrində geniş işıqlandırmaqdan, potensial oxucu və tamaşaçı auditoriyasının vətənpərvərlik ruhunu daha da yüksəltməkdən ibarət idi.

Peşəkar münsiflər heyəti 50-dən artıq müəllifin müsabiqəyə göndərdiyi 90-dan çox məqalə, müsahibə, film və süjeti qiymətləndirib. Mükafatlandırma mərasimini açan AVCİYA-nın təmsilçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayev qaliblərə AVCİYA-nın prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun təbriklərini çatdırdı, diplom və pul mükafatlarını sahiblərinə təqdim etdi. Nəcibə Mustafayeva (Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi), Şirməmməd Nəzərli ("Salamnews") I yerə, Rafiq Oday (Gundelik.info) və Elşad Məmmədli ("Yeni Müsavat") II yerə, Leyla Məhərrəmova ("Azadinform"),

Miri Məcidli (“Femida.az”), İlham Cəmiloğlu (“Modern.az”), Ceyhun Əhmədli (“Femida.az”) III yerə, Elnur Eltürk (“Faktor.az”), Murtəza Bünyadlı (“Gununsesi.info”), Əli Zülfüqaroğlu (“Xalqcebhesi.az”), Asəf Quliyev (“Lent.az”), Vüqar Əsgərov, Fuad Hüseynzadə (“Palitra” qəzeti), Anar Turan (“Xalq qəzeti”) müsabiqənin xüsusi dplomuna layiq görülüblər.

"Ermənilərin azərbaycanlılara qarşı hücumları kilsədən idarə olunurdu" məqaləsindən

SalamNews, Şirməmməd Nəzərli

Siyasi elmlər doktoru Ramiz Sevdimalıyevlə müsahibədən

- ...Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları xarici himayədarları tərəfindən xeyli əvvəl hərtərəfli plan əsasında hazırlanması indi heç kimə sirr deyil. Azərbaycan dövlətini və xalqını gərginlik altında saxlamaq hansı qüvvələrə və niyə maraqlıdır? Bu barədə Azərbaycan KİV-də açıq danışamağın vaxtı deyilmi?

– Sözsüz ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixi kökləri ilə yanaşı geosiyasi kökləri də var. Geosiyasi faktor regionun coğrafiyası, təbii enerji resursları və kommunikasiya imkanları, o cümlədən regionu əhatə edən qonşu dövlətlərlə şərtlənir. Bu kontekstdə yanaşanda Cənubi Qafqazda Ermənistan dövlətini yaratmaqda və bu layihəni reallaşdırmaqda uzağa gedən məqsədlərdən biri Türkiyənin regiona təsirinin qarşısını almaq, bölgədə müsəlman-türk faktoru kimi mövcud olan azərbaycanlıları neytrallaşdırmaq olub. Digər tərəfdən, Rusiya Cənubi Qafqazı özünün cənub-qərb isitiqamətində təhlükəsizliyinin təmin edilməsi üçün çox vacib bir məkan hesab edib, bu gün də hesab edir və yəqin ki, gələcəkdə də belə olacaq. Ona görə Rusiya bu məkanı öz təsir dairəsində saxlamaq istəyir. O da məlumdur ki, SSRİ dağılarkən Rusiya çoxsaylı daxili siyasi-iqtisadi-sosial problemlərlə üzləşmişdi və Cə-

nubi Qafqazı öz təsir dairəsində saxlamaq onun üçün çətin idi. Amma Rüsiyaya bu regionda yaranmış yeni dövlətlər arasında ərazi problemlərinin, münaqişələrin olması lazım idi. Hesab edilirdi ki, belə münaqişələrin olması, həmin dövlətlərin Rusiyadan çox uzaqlaşmasına mane olacaq və Rusiya özünə gələn kimi həmin dövlətləri öz təsir dairəsinə qaytaracaq. Fikir verin, Cənubi Qafqazda Gürcüstanın ərazi problemləri var, Ermənistan Azərbaycana silahlı təcavüz edib ərazilərini işğal altında saxlayır. Bu problemlərin meydana gəlməsində Rusiyanın rolu danılmazdır. Digər tərəfdən, Rusiyanın təsir dairəsinin genişlənməsinin qarşısının alınmasında maraqlı olan, Xəzərin enerji resurslarına çıxış əldə etmək istəyən güclər, əsasən də Qərb ölkələri, 90-cı illərdə münaqişələrin olmasında maraqlı idilər və bu regionu özlərinin maraq dairələrinə aid etmişdilər. Üçüncü tərəfdən, Türkiyə və İran Cənubi Qafqazı özünün təhlükəsizlik zonası kimi görürlər. Nəhayət, həmin dövrdə biz bu hadisələrə hazır deyildik. Lakin erməni kilsəsi, erməni diasporu, erməni siyasətçiləri, bütövlüklə erməni toplumu bu təcavüzə uzun illər ərzində ciddi hazırlaşmışdılar, beynəlxalq ictimai şüurda müəyyən anti-azərbaycan fikirlər formalaşdırmışdılar, silahlanmışdılar. Onlar yenə də imperiyanın iflası ərəfəsində hər kəsin öz problemləri ilə məşğul olacağına əmin olaraq yuxarıda göstərdiyimiz amillərdən yararlandılar və öz planlarını reallaşdırmaq üçün Azərbaycana qarşı genişmiqyaslı işğalçılıq müharibəsinə başladılar...

“YANVAR QIRĞINDAN – XOCALI FACİƏSİNƏ” məqaləsindən

Gundelik.info, Rafiq Oday

70 İLİN ŞİRİN YALANI

...70 il Sovet imperiyasının tabeçiliyində yaşayan xalqlara və millətlərə Sovet təbliğat maşını o hissləri aşılamışdı ki, guya Sovet İttifaqı azad və demokratik bir qurumdur və bu qurumda təmsil olunan respublikalar sərbəst halda öz müqəddəratlarını təyin etmək hüququna malikdirlər. Kapitalist dövlətlərində isə hər şey bunun əksinədir. Burada insanlar miskin və acınacaqlı həyat tərzi sürür, heç bir hüquq və imtiyazlara malik deyillər. Bu maşın elə qurulmuşdu ki, insanları bu xoş yalana inandıra bilmişdi. Ancaq hər şeyin son həddi olduğu kimi, qan üzərində bərqərar olmuş bu imperiya da qan gölündə boğulmalı idi. Artıq respublikalarda və əyalətlərdə insanlar öz haqq səslərini ucaltmağa başlamışdılar. Bu səslərin içərisində Azərbaycanın səsi daha aydın, daha gur və daha ötkəm eşidilməyə başlamışdı. Çünki əsrin əvvəllərində Azərbaycan azadlığın tamını dadmış və hürr olmağın necə gözəl bir nemət olduğunu duymuşdu. Artıq Azərbaycan xalqı yalançı vədlərə inanmaq fikrində deyildi. O siyasi cəhətdən yetkinləşib, əqli cəhətdən kamilləşmişdi. Ona görə də qram-qram verilən imtiyazlarla barışa bilməzdi. Sevimli şairimiz Xəlil Rza Ulutürkün dediyi kimi:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək, qram… qram!

Xalqın öz azadlığı uğrunda mücadiləsi başlandı. Məğlubiyyətlə barışmaq istəməyən Sovetlər Birliyinin tör-töküntüləri hər vəchlə bu azadlıq sədalı hayqırtıları boğmağa, susdurmağa çalışırdılar.

İmperiya yaxşı bilirdi ki, Azərbaycanı itirmək bütövlükdə Cənubi Qafqazda dayaqlarını laxlatmaq deməkdir. Eyni zamanda böyük yeraltı və yerüstü sərvətlərə malik olan Azərbaycan kimi «yağlı tikə»ni əldən verməyin nə demək olduğunu Moskvada yaxşı bilirdilər.

YIRTILAN PƏRDƏ

Beləliklə də Moskvada qara əllər, xain ürəklərlə tərtib olunmuş plan 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıda gerçəkləşdi. Əliyalın küçələrə axışan xalqın ağlına belə gəlməzdi ki, 70 il çörəklə, su ilə, neftlə, pambıqla, nə bilim daha nələrlə təmin etdiyi bir millət onun qəniminə çevrilə bilər. Ancaq azğın imperiya cəlladlarının gözlərini qan elə tutmuşdu ki, bu anda nə dostluq, nə qardaşlıq, nə kəsilən çörək, nə içilən su yada düşürdü.

Beləcə, o gecə yüzlərlə vətən övladının sinəsi güllədən qızılgülə döndü. Torpaq onu canları, qanları qədər sevən ər oğulların qanı ilə suvarıldı...

“Beynəlxalq media, kommersiya maraqları və Qarabağ həqiqətləri”məqaləsindən

Azadinform.az, Leyla Məhərrəmova

...“Qərb mediası Dağlıq Qarabağ münaqişəsini xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə çalışır”

Xarici medianın Qarabağ həqiqətlərini əks etdirməkdə bir çox hallarda tutduğu qərəzli mövqe və buna təsir göstərən amillər barədə “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu ilə söhbətləşdik. Baş redaktor bildirdi ki, bəzi ölkələrin, Türkiyə və Pakistanın mediası istisna olmaqla, xarici media əzəldən, münaqişə başlayan gündən bu məsələdə qeyri-obyektiv mövqe tutub: “Bir çox ölkələr var ki, onlar birbaşa mənbə kimi Azərbaycan mediasına istinad etmir, rəsmi orqanların məlumatlarından yox, əsasən transmilli media orqanlarının yaydığı informasiyadan istifadə edilir. Bu media orqanlarında məlumatlar əsas etibarilə monipulyativ olur, gerçəkliyi əks etdirmir”.

H. Babaoğlu vurğulayıb ki, bəzi qonşu ölkələrin mətbuatı hadisənin mahiyyətini bilirlər, lakin informasiyanı təhrif edib yanlış məlumat yayırlar: “Son hadisələr zamanı, yəni 4 iyulda erməni faşistlərinin açdığı atəş nəticəsində Füzuli rayonunun Alxanlı kəndinin sakini kiçik Zəhranın ölümündən sonra qlobal informasiya məkanı hadisəni monipulyasiya etmək üçün Azərbaycan haqqında mənfi informasiyalar yaymağa başladı, amma gecikdi, buna nail olmadı”.

Redaktorun sözlərinə görə, xüsusilə Qərb mediası mü-

naqişəni xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə çalışır: "Bu KİV-lər düşünülmüş şəkildə ictimaiyyətə məlumat ötürürlər ki, konfliktdə olan tərəf, yəni işğalçı Qərbin dindaşıdır. Onlar işğal edən tərəfin işğalçı əməllərini gizlətməyə çalışırlar. Bu ənənə bu gün də davam edir. Transmilli media Qərb imperializminə xidmət edir. Həmin media orqanları ciddi nəzarət altındadır, imperializmin yumşaq gücü qismində çıxış edirlər. Hesab edirəm ki, onlardan ədalət gözləmək də doğru deyil. Biz bunu istəsək də dəyişə bilməyəcəyik".

H. Babaoğlu qeyd edib ki, amma bəzi hallarda transmilli mediada obyektiv olmağa çalışan mətbu orqanlar var və Azərbaycan da haqlı olaraq onlara müraciət edir, onların ədalət hissinə müraciət edib məlumatları çatdırır: "Çox sevindirici haldır ki, Azərbaycanın haqq səsi dünyaya ucadan çata bilir. Bu istiqamətdə xarici mediada obyektiv məlumatlara rast gəlmək olur, getdikcə bu cür məlumatların sayı çoxalır. Azərbaycan daim bu istiqamətdə iş aparır"...

"Ölkəni qarışdıran fotonun sirri: Həyatı gətirməyən Həyatın taleyi" məqaləsindən

Femida.az, Mircəlal Məcidov

Uzun illərdir ki, Azərbaycan mətbuatı bir şəkli Xocalı sakinləri kimi təqdim edir. Amma həqiqət başqadır . Bu şəklin də çox maraqlı tarixçəsi var. 24 il əvvəl çəkilmiş fotoda olan şəxs Kəlbəcər rayon sakini Bayramova Həyat Fikrət qızıdır. O hazırda Goranboyun Buzluq kəndi ərazisində, 3 uşağı ilə birgə yaşayır.

Maddi vəziyyəti acınacaqlı olan Həyat xanım valideynlərinin qoyub getdiyi evdə tək 3 uşaq böyüdür. Həyat Bayramova 12 yaşında erməni işğalı nəticəsində öz doğma yurdundan ayrı düşür. Mətbuatda böyük səs-küyə səbəb olan həmin foto da məhz o gün çəkilib. Həyat xanım Femida.az -a bir şəklin tarixçəsini belə açıqlayıb:

"… Həmin günü həyətimizə gələn su donduğu üçün bulqadan su gətirməyə getmişdim. Gördüm ki, qonşumuz saçını yolub, qışqırır. Deyirdi ki, ermənilər tuneli alıb, kəndə çatır. Mənim cəmi 12 yaşım var idi. Bunu eşidib, evə qayıtdım. Artıq hamı bir-birinə qarışmışdı. Atam da həmin günü evdə deyildi. Anam bizi çətinliklə yola çıxardı. Biz də ailədə 7 uşağıq. Anam bilmirdi ki, hansımızı aparsın. Artıq yolun başında köç maşınları dayanmışdı. Anam bizi çayın qırağındakı körpünün yanına gətirdi. Orada bizi yük maşınlarına mindirdilər.

Murovu çətinliklə aşdıqdan sonra Xanlar rayonunun girişində maşında düşdük. Anam baxdı ki, qardaşım yoxdur.

Bizi orada qoyub, geri qayıtdı. Həmin vaxt balaca bacım da qucağımdaydı. Ətrafdakı səs-küydən, qadınların ağlamağından qorxurduq. Tək qaldığımızı görən bir kişi bizə yaxınlaşdı. O Molla Cəlilli kəndindən olan Alik dayı idi. Bizi götürüb, evinə apardı. Onun həyat yoldaşı Yazgül xala bizi 15 gün evində saxladı. Sonra atamla anam Molla Cəlilliyə gəlib, bizi tapdılar. Qardaşımı da kənd camматı çıxanda Kəlbəcərdən Bərdəyə gətirmişdilər. Bir müddət Bərdədə məskunlaşdıqdan sonra Goranboyun Buzluq kəndinə köçdük. 1994-cü ildən bu evdə, Buzluqda yaşayırıq…

Mətbuatda yayılan həmin foto da bizim qaçqın düşdüyümüz gün çəkilib. Bacım Fatimə acından və soyuqdan ağlayırdı. Onun cəmi 5 yaşı var idi. Anam onu yun ədyala bükmüşdü. Bu günün özündə anam bacımı bükdüyümüz o ədyalı saxlayır…"

“Generalın qətiyyəti... 1967-ci il, Xankəndi şəhəri...” məqaləsindən

Modern.az, İlham Cəmiloğlu

...1967-ci ildə daha çox səs-küyə səbəb olan və Xankəndində gərginliyi son haddə çatdıran hadisə isə Xocavənd rayonunda baş verir. Rayonun Qaradağlı kəndində azərbaycanlıların və ermənilərin birgə təhsil aldıqları orta məktəbdə bir erməni uşağı yoxa çıxır. Səhərisi gün vəhşicəsinə qətlə yetirilmiş uşağın meyiti yol kənarından tapılır. Bu hadisədən bir neçə gün sonra heç bir əsas olmadan həmin məktəbin direktoru Ərşad Məmmədovu və daha iki azərbaycanlı müəllimi həbs edirlər. Vilayət prokurorluğu işi Ali Məhkəməyə göndərir. Ali Məhkəmə isə işə Xankəndində baxılması üşün qərar verir. Azərbaycan SSR Ali Məhkəməsinin üzvlərindən birinin sədarəti altında məhkəmə prosesi başlanır...

...Həmin ağır günlərdə bütün azərbaycanlılar ədalətin bərqərar olması üçün Heydər Əliyevə ümid bəsləyirdilər. Heydər Əliyev isə bu ümidləri doğruldur. Onun peşəkarlığı, gərgin əməyi nəticəsində qısa müddət ərzində Xankəndi olaylarının səbəbləri açılır, cinayəti törədənlər, təşkil edənlər layiqli cəzalarını alır, 39 nəfər erməni canisi həbs edilir. Sübuta yetirilir ki, milli ədavəti yaratmaq üçün erməni məktəblisini vəhşicəsinə qətlə yetirən də Edik Baqdasaryan olub. Daha sonra o da məlum olur ki, Xankəndi olaylarının arxasında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsi durur.

Bu bir həqiqətdir ki, o zaman general Heydər Əliyev DTK sədri kimi Xankəndinə getməsəydi, o qanlı cinayətin üstü ört-basdır ediləcəkdi. Məhz, Heydər Əliyevin qətiyyəti sayəsində erməni millətçilərinin çirkin əməlləri ali-üst oldu. Ermənilər özləri də bir məsələni yaxşı dərk edirlər ki, nə qədər Heydər Əliyev var, onların planlarının hayata keçməsi mümkün olmayacaq. Tarix də bunu sübut etdi ki, Ermənistan Qarabağa qarşı təcavüz planlarını Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdıqdan sonra həyata kecirməyə başladılar.

“Unudulmuş soyqırımlar silsiləsindən... - Quqarkdakı erməni dəhşətləri “ məqaləsindən

Femida.az,Ceyhun Əhmədli

...Hazırda Vanadzor şəhərində yaşayan jurnalist Mane Papyanın 29 aprel 2015-ci il tarixində www.epress.am saytında “События в Гугарке. Как громили азербайджанцев в Армении” başlıqlı yazısı yerləşdirilib. Mane Papyan faciəli hadisələrin baş verdiyi Vartanlı kəndinə gedərək hadisənin canlı şahidləri ilə söhbət edib. Həmin məqalədə Vartanlı qırğınlarının baş verdiyi zaman Kirovakan şəhər prokuroru olmuş Qriqori Şahverdyanın jurnalistə verdiyi məlumatlardan aydın olur ki, Sumqayıt hadisələri ərəfəsində Ermənistanda milli münasibətlər gərginliyinin pik həddinə çatıbmış.

Şahverdyanın dediyinə görə, 1988-ci ilin mart-noyabr aylarında Quqark rayonunda 634 azərbaycanlının işdən qovulmaları barəsində onun əlində rəsmi sənəd vardır. Qriqori Şahverdiyanın sözlərinə görə, həmin günlərdə Kirovakan şəhərində 7 azərbaycanlının qətlə yetirilməsi faktı istintaq materiallarında öz əksini tapıb.

“Qarabağ” komitəsinin keçmiş üzvü Artur Sakuns da etiraf edib ki, gecə vaxtı Quqark rayonunun Arçut kəndindən azərbaycanlıları aparan avtobuslara ermənilər yolda hücum etmişdilər.

Mane Papyan yazır: “Rəsmi məlumata əsaən o zaman Vartanlı kəndində 11 azərbaycanlı öldürülüb. Bu hadisə

təkcə Ermənistanda deyil, onun hüdudlarında kənarda da böyük əks-səda doğurdu. Təqsirkarları aşkar etmək üçün Moskvadan 100 nəfərdən artıq istintaq qrupu gəlir. Quqark rayon Partiya Komitəsinin bürosu birinci katib Lavrenti Bağdasaryanı, İcraiyyə Komitəsinin sədri Samvel Qazaryanı və Şaumyan milisinin bütün əmədaşlarını işdən azad edildi...

"Ermənistanın Azərbaycana təcavüzü... - Faktlar nə deyir?" məqaləsindən

Faktor.az ,Elnur Eltürk

...Ermənistanın Azərbaycana təcavüzündə erməni terroru faktoru da önəmli yer tutb. 1989-1994-cü illərdə erməni terrorçuları tərəfindən Azərbaycan ərazisində 373 terror aktı törədilib, nəticədə 1568 nəfər ölüb, 1808 nəfər yaralanıb. Azərbaycan, eləcə də xarici ölkələrin məhkəmələri tərəfindən prosessual qaydada sübuta yetirilib ki, həmin terror aktlarının 32-si Ermənistanın xüsusi xidmət orqanlarının bilavasitə iştirakı ilə Azərbaycanın işğal olunmuş ərazilərindən istifadə edilməklə, cəbhə xəttindən yüz kilometrlərlə aralıda yerləşən yaşayış məntəqələrində həyata keçirilib. Yəni bu terror aktları heç cür Qarabağda gedən hərbi əməliyyatlara daxil edilə bilməz.

Azərbaycanda mülki əhaliyə qarşı terrorçu fəaliyyətin bilavasitə Ermənistanın dövlət orqanları və Qarabağdakı separatçı qurum tərəfindən üçüncü ölkə vətəndaşları, Azərbaycandakı azsaylı xalqlarının nümayəndələri, hərbi əsir və girovlardan istifadə ilə təşkili, maliyyələşdirilməsi və reallaşdırılmasına cəhdlər göstərilib. 1990-cı illərin ortalarında Azərbaycan və Rusiya xüsusi xidmət orqanları Ermənistanın Milli Təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi polkovnik Can Ohanesyanın, onun müavini mayor Aşot Qaloyanın, Rusiya Federal Əks-kəşfiyyat Xidmətinin terrorizmlə mübarizə İdarəsinin baş əməliyyat müvəkkili mayor Boris Simonyanın başçılığı ilə Rusiya ərazisində

fəaliyyət göstərən erməni separatçılarından ibarət terrorçu qrup zərərsizləşdirilib. Moskvada yerləşən və Valeri Petrosyanın rəhbərlik etdiyi lTİRR Assosiasiyası tərəfindən maliyyələşdirilən həmin qrup Rusiya və Azərbaycan ərazisində dəmiryolu qatarlarında bir neçə partlayış törədiblər. Bu şəxslərin hamısı Rusiya və Azərbaycan məhkəmələri tərəfindən müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzasına məhkum olunublar...

"Əsrlər boyu davam edən erməni təcavüzü" məqaləsindən

Xalqcebhesi.com, Əli Zülfüqaroğlu

...Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin sədri Faiq İsmayılov bildirib ki, 903-ü rəsmi Dövlət qeydiyyatında olmaqla Azərbaycanın bizə məlum olan 2550 adda tarix və mədəniyyət abidəsi erməni işğalı altındadır. Onun sözlərinə görə, bu abidələrdən: 609-u yerli əhəmiyyətli, 285-i ölkə əhəmiyyətli, 13 ədədi Beynəlxalq əhəmiyyətli, 1647 abidə isə hələlik dövlət qeydiyyatında olmayan abidələrdir.

Ermənistanın Mədəniyyət Nazirliyinin rəsmi hesanatında bildirilir ki, 2011-ci ildən başlayaraq Dağlıq Qarabağda 120 istiqamət üzrə aparılan tədqiqat zamanı bu ərazilərdə 4000 minə yaxın tarix və mədəniyyət abidələri qeydə alınıb. Erməni mənbələrindən məlum olur ki, onlar işğal dövrü hazırladıqları 1450 ədəd xaçdaşlarını, o cümlədən, yeni inşa edilən erməni kilsələrini də tarixi abidə kimi qeydə alaraq Qarabağın tarix və mədəniyyət abidələri siyahısına daxil ediblər.

Erməni tarixçisi Şahen Mkrtçyanın 2006-cı ildə İrəvanda nəşr etdirdiyi "Qarabağın memarlıq abidələri" kitabında Qarabağdakı abidələrin saxtalaşdırılmış adları, tarixləri və mövcud olduqları yerlər göstərilib.

Əslində isə ermənilərin Qarabağda mövcudluğunu iddia etdikləri 4000 abidənin 1450 ədədinin ermənilər tərə-

findən işğal dövrü yonularaq qoyulan müasir xaçdaşları və yeni tikdikləri erməni kilsələridir. Əslində isə tərəfimizdən aparılan tədqiqatlar nəticəsində məlum oldu ki, işğal altındakı ərazilərdəki daşınmaz tarix və mədəniyyət abidələrin ümumi sayı 2550-dən çox deyildir".

F.İsmayılov həmçinin əlavə edib ki, ümumilikdə işğal dövrü Ermənistan tərəfindən Azərbaycanın işğal altındakı tarix və mədəniyyət abidələrinə 177 milyard dollar zərər dəyib...

“Kazan anonsu, Ali Baş Komandanın seçimi və Lələtəpədə dalğalanan bayraq” məqaləsindən

Lent.az, Asəf Quliyev

...Ötən ilin apreli başqa bir cəhətdən də Azərbaycan üçün test oldu. İstər cəbhə xəttində bilavasitə güllə, mərmi hədəfində olan, istəsə də ölkənin digər regionlarında yaşayan vətəndaşlar hamısı irimiqyaslı döyüşlərin başlamasını alqışlayır və sona qədər davam etməsini istəyirdi. Bir sözlə, insanlar arasında ruh yüksəkliyi açıq şəkildə görünürdü.

Əslində bu, Azərbaycan vətəndaşının müharibə hərisliyi yox, itirilmiş torpaqların geri qaytarılması üçün mövcud şəraitdə mümkün ola biləcək yeganə vasitə kimi güc nümayişini məqbul hesab etməsinin nəticəsi idi. Bəli, müharibə ancaq bir vasitədir, Qarabağa qayıtmaq üçün vasitə.

Reallaşan anonsla verilən anons

Beləliklə, ötən ilin aprel ayında 2011-ci ildə Kazan görüşündən sonra edilən xəbərdarlıq reallaşdı. Qısa müddətli əməliyyatlar nəticəsində mühüm strateji yüksəkliklər azad edildi. Deməli, qarşıya qoyulan vəzifə yerinə yetirildi.

Əslində ötən ilin aprelində Moskvada əldə olunan razılaşmadan sonra da atəşkəsin intensiv pozulması müşahidə olundu. Ələlxüsus da Silahlı Qüvvələrimizin irəlilədiyi istiqamətlərdə. Hətta nə Azərbaycanda, nə Ermənistanda, nə də beynəlxalq müstəvidə aprelin sonlarına doğru baş verən daha ciddi və intensiv atışmalar barədə danışılmır. Çünki sonradan baş verən bu döyüşlər ermənilərin itirdikləri mövqeləri qaytarmaq cəhdi idi. Və bu cəhdlər uğur-

suzluqla nəticələndi. Ermənistan rəhbərliyinin erməni ordusu haqqında yaratdığı mif artıq dağılmışdı.

Bu reallıq isə ermənilər üçün növbəti döyüşlərin arzuolunmaz anonsu idi. Və indi Ermənistan apreldə verilən anonsun nə vaxtsa reallaşacağı qorxusu ilə yaşayır...

"Erməni terrorizminin ifşa olunması fasiləsiz davam etməlidir"məqaləsindən

Palitranews.az, Fuad Hüseynzadə

...İnformasiya savaşında ermənilərin ölkəmizə qarşı təxribatlarının qarşısının alınması üçün xarici dövlətlərdə və xarici ölkələrin domenləri altında media portalları və televiziya kanalları yaradılmalı və yaxud sayt alınmalıdır. Bunların rəhbərləri və işçiləri qeyri-azərbaycanlılar olmalıdır. Məsələn, ermənilərin Ukraynada, Rusiyada, ABŞ-da, Fransada və digər ölkələrdə, hətta Türkiyədə bu cür media resursları mövcuddur. Bu resurslar yalnız xəbərlər üzərində qurulmamalı, həmçinin intellektual, şou, musiqi istiqamətli olmalı və geniş auditoriyanı əhatə etməlidir. Azərbaycana lazım olan məqamlarda bu KİV-lərdən istifadə olunmalıdır.

Jurnalistlərimiz də səngərdə keşik çəkən əsgərlərimiz kimi, daim aktiv şəkildə, gözlənilən təhdidlərin qarşısının alınması üçün fəaliyyət göstərməlidirlər. Bizim strategiyamız ancaq müdafiə mövqeyində qalıb cavab yazıları hazırlamaq deyil, hücum mövqeyinə keçib erməni terrorizmini ifşaedici yazılarla dünya mediasına çıxmaq olmalıdır.

Xarici mediada, xüsusən, erməni KİV-lərində Azərbaycanla bağlı qərəzli yazılar verilən zaman həmin yazının elektron versiyasına şərhlər yazmaq, bu məqalələrin qərəzli olduğunu faktlarla göstərmək lazımdır. Daha da irəli gedərək, həmin dillərdə məqalələr hazırlanmalı və o ölkənin istənilən mediasında çap olunmalıdır.

Ölkəmizdə informasiya savaşında iştirak etmək, Ermənistanın Azərbaycana təcavüzünü ifşa etmək üçün yeni nəsil jurnalistlər yetişməlidir. Bu jurnalistlər 2-3 dil bilməli və çevik şəkildə istənilən məsələyə münasibət bildirməlidirlər. Çünki bu gün dünya mediasında Azərbaycanla bağlı verilən yazılarda pozitiv şərh boşluğu var. Ermənilərin əsassız şərhlərinə onların öz dillərində cavab verəcək çox az jurnalistimiz var. Ona görə də bu istiqamətdə aktiv olan jurnalistlərimizin sayı artmalıdır.

Erməni və ermənipərəst jurnalistlər "Facebook", "Twitter"də, eləcə də CNN, BBC və s. tanınmış media orqanlarında Azərbaycan haqqında neqativ yazılarla çıxış edirlər. Nəzərə almaq lazımdır ki, bu gün "Twitter" sosial şəbəkəlikdən çıxaraq, siyasi platformaya çevrilib. "Twitter"də informasiya müharibəsinin ən gərgin anı - həştəq mübarizəsi yaşanır. Burada yazılan bir "twit"lə anındaca dünyanın ictimai-siyasi gündəmini dəyişmək olur. Azərbaycan jurnalistləri kütləvi şəkildə "Twitter"də aktivlik göstərib, bu kimi məsələlərə təsir etmək gücünü artırmalıdırlar...

1905 və 1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımı aktları məqaləsindən

"Xalq qəzeti", Anar Turan

...Tanınmış türkiyəli tarixçi İsmail Özçelik "Karabağ tarihi ve Karabağda ermeni olayları" əsərində ermənilər tərəfindən Şuşada 16–20 avqust tarixində qanlı toqquşmaların davam etdiyini, rus kazaklarının və rus piyada birliyinin erməni daşnakları ilə birlikdə azərbaycanlı evlərinə basqın etdiklərini, ancaq azərbaycanlıların müdafiəsi qarşısında geri çəkilməyə məcbur olduqlarını yazır. Ümumiyyətlə, ermənilərin qanlı qırğınları təkcə Yuxarı Qarabağda deyil, 6–9 fevralda Bakıda, 10 mayda Naxçıvanda, 23 mayda İrəvan quberniyasında, 25 avqustda yenə Bakıda, 26 avqustda Cavanşir qəzasında, 18 noyabrda Gəncədə, 23 noyabrda Tiflisdə, Qazaxda və digər yerlərdə də minlərlə azəri türkünün faciəli surətdə öldürülməsi ilə baş vermişdir. Bu barədə daha bir tanınmış türk tarixçisi Taha Akyol "Azerbaycan Sovyetler ve ötesi" əsərində erməni keşişlərinin 1906-cı ildə Şuşada olan erməni kilsələrini azərbaycanlılara qarşı əsl cəbbəxanalara çevirərək, kilsələrin zirzəmilərində küllü miqdarda silah-sursat gizlətmələri barədə məlumatlar verir. Allah evindən öz çirkin niyyətləri üçün istifadə etdiklərinə görə o zamankı şəhər üsul-idarəsi tərəfindən Ter-Arsen Vartapetov, Ter-Karapet Vartapetov, Ter Ovanesyan, Mirzəbekov, Asatur Vartapetov kimi keşişlər cəzalandırılaraq Şuşadan qovulmuşdular. Bu da müsəlmanları

arxayın salmaq üçün bir oyun idi. Çünki Çar Rusiyasının himayəsində olan imkanlı ermənilər 1905–1906-cı illərdə Türkiyə və İrandan muzdlu erməni döyüşçüləri gətirib Azərbaycan türklərinə qarşı vuruşdururdular.

1905-1906-cı illərdə törədilmiş qırğınlara aid erməni müəlliflərinin də bir neçə əsəri mövcuddur. Hovannes Ter-Martirosyanın (A-do) 1907-ci ildə İrəvanda çap edilən "Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). Sənədli, statistik, topoqrafik izahlarla" əsərində, S. Zavaryanın 1907-ci ildə Sankt-Peterburqda rus dilində çap edilən "Qarabağın iqtisadi şəraiti və 1905-1906-cı illər aclığı", İ. Alibekovun 1906-cı ildə Tiflisdə rus dilində çap olunan "Yelizavetpolun qanlı günləri cəmiyyətin mühakiməsi qarşısında" əsərlərində 1905–1906-cı illər qırğınlarının mahiyyəti təhrif edilsə də, bu əsərlər faktoloji baxımdan tədqiqatçılara xeyli material verir...

Əlavə 1

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının BMT-nin İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi komitəsinə

Ermənistan Respublikasının təqdim etdiyi hesabata bəzi qeydlər

1. Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 2005-ci ildə təsis edilmiş qeyri-hökumət təşkilatıdır. AVCİYA daimi olaraq insan hüquqları, dini və etnik tolerantlıq, beynəlxalq hüquqa və ərazi bütövlüyünə hörmət və ekologiya problemləri ilə bağlı bir çox irimiqyaslı layihələr həyata keçirir. AVCİYA fəaliyətinin əsas məqsədini Azərbaycan həqiqətlərini beynəlxalq aləmə çatdırmaqda görür.

AVCİYA indiyə qədər bir sıra böyük layihələr həyata keçirmişdir. Xocalı soyqırımına həsr edilmiş "Xocalı soyqırımı: milyon imza-bir tələb", "Şuşa - qədim Azərbaycan diyarı", "Bir faciə haqqında iki foto-söhbət", "Tarixi faktlar erməni miflərinə qarşı" topluları nəşr edilərək, ABŞ və Avropa dövlətlərinin parlamentlərinə, dünyanın əksər məşhur kitabxanalarına göndərilmişdir.

AVCİYA-nın "Sərsəng harayı" layihəsi Ermənistan Respublikası tərəfindən işğal edilmiş Azərbaycanın ən böyük su anbarı olan Sərsəng su anbarında və ətrafında mümkün humanitar faciənin qarşısının alınmasına yönələn layihədir. Həmin layihənin təşəbbüskarı AVCİYA-nın prezidenti Elxan Süleymanovun müəllifliyi ilə

Avropa Şurası Parlament Assambleyasına qətnamə layihəsi təqdim edilmiş və 2016-cı ilin yanvar ayında AŞPA-nın 2085 (2016) saylı qətnaməsi qəbul edilmişdir. AVCIYA-nın ABŞ-ın Prezident Adminitrasiyasına ünvanladığı "Ədalətin Bərqərar Olunması və Böyük Fəlakətin Qarşısının Alınması naminə" adlı petisiya 331.914 narahat insanın imzasını toplamış və Ağ Evin rəsmi cavabına səbəb olmuşdur[1].

2. AVCİYA hesab edir ki, Ermənistan Respublikası tərəfindən BMT-nin İrqi ayrıseçkiliyin bütün formalarının ləğvi komitəsinə təqdim edilmiş hesabatda eyni zamanda hazırda Ermənistan işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərində İrqi Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiyanın müddəalarının gözlənilməsinə dair məlumat yerləşdirilməlidir.

Ermənistan Respublikası tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərinə faktiki nəzarət Strasburqda Avropa İnsan Hüquqları Məhkəməsinin bir sıra qərarlarında rəsmi təsdiqlənmişdir. Məsələn, Arayik Zalyan Ermənistana qarşı[2] və ya Qraç Muradyan Ermənistana qarşı[3] və ya Elxan Çıraqovun Ermənistana qarşı[4] işləri.

1.https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe

2.Case of Arayik Zalyan and Others v. Armenia: http://hudoc.echr.coe.int/eng?i=001-161408

3.Case of Hrachya Muradyan v. Armenia: http://hudoc.echr.coe.int/eng?i=001-168852

4.Case of Elkhan Chiragov and Others v. Armenia https://lovdata.no/static/EMDN/emd-2005-013216-2.pdf

Sonuncu qərarın 186 paraqrafında deyilir: "Yuxarıda sadalananlar Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən başlayaraq Ermənistan Respublikasının "DQR" üzərində əhəmiyyətli və həlledici təsirinin olduğunu, iki subyektin bütün mühüm məsələlərdə bir-birilə faktiki olaraq qarşılıqlı əlaqədə olduğunu, və bu vəziyyətin bu günə qədər davam etdiyini aşkarlayır. Başqa sözlə desək, "DQR" və onun administrasiyası **Ermənistandan gələn** hərbi, siyasi, maliyyə və digər dəstəklər hesabına həyatda qalmağa davam edir, bu da onun Laçın rayonu da daxil olmaqla **Dağlıq Qarabağ və ətrafyanı ərazilərdə effektiv nəzarəti həyata keçirməsinə gətirib çıxarır. Şikayət edilən məsələlər** Konvensiyanın 1-ci məddəsinin məqsədlərini həyata keçirmək üçün **nəticədə Ermənistanın yurisdiksiyasına daxil olur. "**

Ermənistan Respublikasının Azərbaycanın işğal edilmiş ərazilərinə nəzarət etməsi beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə qeyd olunub. Bu səbəbdən Azərbaycanın işğal edilmiş ərazilərində **irqi ayrı-seçkilik motivi** əsasında törədilən cinayətlərə görə Ermənistan hökuməti bilavasitə məsuliyyət daşıyır. Xocalı soyqırımı və mülki əhaliyə qarşı bir çox digər hərbi cinayətlər çoxsaylı mənbələr, o cümlədən beynəlxalq KİV tərəfindən sənədləşdirilib və dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Lakin bu cinayətlərin təşəbbüskarları və icraçıları Ermənistan Respublikası tərəfindən gizlədilir və onlar barədə heç bir müvafiq hüquq icraatı aparılmır.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ və di-

gər işğal edilmiş ərazilərində etnik təmizləmə, mülki əhalinin kütləvi qətliamları, digər beynəlxalq cinayətlərə və məsul aktorları məsuliyyətə cəlb etməməyə görə Ermənistan Respublikası birbaşa məsuliyyət daşıyır. Ermənistan Respublikası bu məsələ barədə BMT komitəsinə təqdim edilmiş hesabatda məlumat verməlidir.

3. Ermənistan Respublikasının təqdim etdiyi hesabatın 23-cü bəndində qonşu dövlət olan Azərbaycan Respublikası ilə münasibətlərə dair tarixi faktlar təhrif edilmiş formada verilir və ya saxtalaşdırılır. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü və ərazisinin işğal olunması faktının davam etməsi bütün beynəlxalq təşkilatlar tərəfindən rəsmi olaraq qanunsuz addım kimi tanınıb. BMT-nin üzv dövləti olan Ermənistan Respublikası bu qurumun Təhlükəsizlik Şurasının **S/RES/822 (1993), S/RES/853 (1993), S/RES/874 (1993), S/RES/884 (1993)** saylı qətnamələrinin tələblərini yerinə yetirmir və BMT-yə digər üzv dövlətin - Azərbaycan Respublikasının ərazisini bu günə qədər işğal altında saxlayır. Avropa Parlamentinin, ATƏT Parlament Assambleyasının və AŞPA-nın qətnamələri Azərbaycan torpaqlarının işğal olunmasını beynəlxalq hüquqa zidd hesab edir və qeyd-şərtsiz işğala son qoyulmasını tələb edir.

Bu sıradan olan son beynəlxalq sənəd AŞPA-nın 2016-cı ilin yanvar sessiyasında qəbul edilmiş «Azərbaycanın sərhədyanı rayonlarının sakinləri qəsdən sudan məhrum edilir» adlı 2085 (2016) saylı qətnaməsi

Ermənistan Respublikasının birmənalı olaraq işğalçı dövlət olduğunu təsdiqləyir.[5]

4. Həmin qətnamənin təhlili bu nəticələrə gəlməyə imkan verir:

- 1966-cı il Beynəlxalq Çayların Suyundan İstifadəyə dair Helsinki qaydaları və 2004-cü il Su Ehtiyatlarına dair Berlin qaydaları sudan sərbəst istifadəni insanın əsas hüququ hesab edir.
- Sudan qəsdən məhrumedilmə məsum vətəndaşlara zərər vermək vasitəsi kimi istifadə edilə bilməz.
- Qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" hesab edilməli və ekoloji fəlakət sahələri yaratmaq və həmin ərazilərdə yaşayan əhalinin normal həyatını qeyri-mümkün etmək məqsədilə bir dövlətin digər dövlətə qarşı düşməncəsinə hərəkəti kimi qəbul edilməlidir.
- Assambleya Azərbaycanın Dağlıq Qarabağ və digər qonşu ərazilərinin Ermənistan tərəfindən işğalının Aşağı Qarabağ vadisində yaşayan Azərbaycan vətəndaşları üçün buna bənzər humanitar və ekoloji problemlər yaratmasını pisləyir.
- Assambleya bu təcili humanitar problemi nəzərə alaraq,

1.1. Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal geri çəkilməsini,

1.2. Ermənistan hakimiyyətinin su ehtiyatlarından

5.http://assembly.coe.int/nw/xml/XRef/Xref-DocDetails-EN.asp?fileid=22429&lang=EN&search=c2Fyc2FuZw==

münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırmağı tələb edir.

25 il ərzində Ermənistan Respublikası tərəfindən Sərsəng su anbarının işğalı Azərbaycanın 6 cəbhəyanı rayonun (Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Goranboy, Yevlax) 410.000 mülki əhalisinin kəskin su qıtlığı səbəbindən gündəlik olaraq ciddi humanitar, mənəvi, iqtisadi, ekoloji və bioloji təhdidlərlə üz-üzə qoyub.[6] **Bu təhdidlərin hədəfi - digər etnik qrupa məhsub olan Azərbaycan vətəndaşlarıdır.**

Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində "ekoloji təcavüz", humanitar, mənəvi, iqtisadi, ekoloji və bioloji təhdidlərə görə Ermənistan Respublikası məsuliyyət daşıyır. Ermənistan Respublikası bu məsələ barədə BMT komitəsinə təqdim edilmiş hesabatda məlumat verməlidir.

5. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, Ermənistan Respublikası tərəfindən 4016 nəfər əsir-girov götürülmüş azərbaycanlıdan 877 nəfər barəsində məlumat toplanılıb .[7] Bu şəxslərin içində qadın olan azərbaycanlılar da var. [8]

Ermənistan Respublikası bu şəxsləri əsirlikdə saxla-

6.Sərsəng su anbarında mümkün humanitar faciənin səbəbləri AVCİYA-nın layihəsində təqdim edilir.

7.Bu barədə bax http://sarsang.org/en/main-news-2/529-threats-of-destruction-of-sarsang-water-reservoir-dam.html

8.https://www.icrc.org/en/document/nagorny-karabakh-icrc-submits-updated-list-missing-persons

maqla, onlar barədə məlumat verməməklə, onlara qarşı zorakılıq, qeyri-insani rəftar tətbiq edilməsinə görə məsuliyyət daşıyır. Ermənistan Respublikası bu məsələ barədə BMT komitəsinə təqdim edilmiş hesabatda məlumat verməlidir.

6. Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində 2-5 aprel 2016-cı il tarixli doyüşlərdə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən yalnız Ağdamın və Tərtərin təmas xəttində yerləşən kəndlərində məskunlaşan məcburi köçkünlərdən 17 nəfər öldürülüb. [9]

Ermənistan Respublikasının elan edilməmiş növbəti silahlı basqınının qurbanları da məhz digər etnik qrupa mənsub olan şəxslər – azərbaycanlılar olmuşdur. Ermənistan Respublikası qonşu ölkənin ərazisində apardığı hərbi əməliyatlara və bu insanların etnik əsaslarla öldürülməsinə görə məsuliyyət daşıyır. Ermənistan Respublikası bu məsələ barədə BMT komitəsinə təqdim edilmiş hesabatda məlumat verməlidir.

